40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 1

# ƏHDİ-CƏDİD

## (İNCİL)

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 1

# MATTANIN
# NƏQL ETDİYİ MÜJDƏ

## GİRİŞ

*«Mattanın nəql etdiyi Müjdə»*də İsa Məsihin vəd edilmiş Xilaskar olduğu barədə danışılır. Burada Onun vasitəsilə Allahın Əhdi-Ətiqdə Öz xalqına verdiyi vədlərin yerinə yetməsi vurğulanır. Bu Müjdə yalnız aralarında İsanın böyüyüb başa çatdığı Yəhudi xalqı üçün deyil, bütün dünya üçündür.

Mattanın nəql etdiyi Müjdə səlis ardıcıllıqla yazılıb. Bu kitab İsanın doğuluşu, vəftizi və sınağa çəkilməsindən başlayır. Sonra müəllif İsanın vəzləri, təlimləri və Qalileyada şəfa verməsi barədə danışır. Müjdə İsanın Qalileyadan Yerusəlimə səyahəti, Onun həyatında son həftə ərzində baş vermiş hadisələr, çarmıxa çəkilməsi və dirilməsi ilə bitir.

*«Mattanın nəql etdiyi Müjdə»* İsanı Qanunu izah etmək və Allahın Padşahlığı haqqında təlim vermək səlahiyyətinə malik olan böyük Müəllim kimi təqdim edir. Onun insanlara həyat verən təlimləri bu kitabda yazılmışdır.

***Kitabın məzmunu:***

1:1-2:23 İsa Məsihin nəsil şəcərəsi və doğulması
3:1-12 Vəftizçi Yəhyanın vəzi
3:13-17 İsa Məsihin vəftiz olunması
4:1-11 İsanın sınağa çəkilməsi
4:12-18:35 İsanın Qalileyada ictimai xidməti
19:1-20:34 Qalileyadan Yerusəlimə
21:1-27:66 İsanın Yerusəlimdəki son günləri
28:1-20 İsanın dirilməsi

***İsa Məsihin nəsil şəcərəsi***
*(Luka 3:23-38)*

1 [1]Davudun Oğlu, İbrahimin də
Oğlu olan İsa Məsihin nəsil şəcə-
rəsi:
[2]İbrahimdən İshaq törədi. İshaq-
dan Yaqub törədi. Yaqubdan Yəhuda
və onun qardaşları törədi. [3]Yəhuda-
dan Tamarın doğduğu Peres və Zerah
törədi. Peresdən Xesron törədi. Xes-
rondan Ram törədi. [4]Ramdan Ammi-
nadav törədi. Amminadavdan Naxşon
törədi. Naxşondan Salmon törədi.
[5]Salmondan Raxavın doğduğu Boaz
törədi. Boazdan Rutun doğduğu Oved
törədi. Oveddən Yessey törədi. [6]Yes-
seydən padşah Davud törədi.
Davuddan Uriyanın arvadının doğ-
duğu Süleyman törədi. [7]Süleymandan

**1:11** *2Pad. 24:14-15; 2Saln. 36:10; Yer. 27:20*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 2



Rexavam törədi. Rexavamdan Aviya
törədi. Aviyadan Asa törədi. [8]Asadan
Yehoşafat törədi. Yehoşafatdan Ye-
horam törədi. Yehoramdan Uzziya
törədi. [9]Uzziyadan Yotam törədi. Yo-
tamdan Axaz törədi. Axazdan Xizqiya
törədi. [10]Xizqiyadan Menaşşe törədi.
Menaşşedən Amon törədi. Amondan
Yoşiya törədi. [11]Babil sürgünü zamanı
Yoşiyadan Yekonya[a] və onun qardaş-
ları törədi.

[12]Babil sürgünündən sonra Ye-
konyadan Şealtiel törədi. Şealtieldən
Zerubbabil törədi. [13]Zerubbabildən
Avihud törədi. Avihuddan Elyaqim
törədi. Elyaqimdən Azur törədi.
[14]Azurdan Sadoq törədi. Sadoqdan
Yaxin törədi. Yaxindən Elihud törədi.
[15]Elihuddan Eleazar törədi. Eleazar-
dan Mattan törədi. Mattandan Yaqub
törədi. [16]Yaqubdan Məryəmin əri Yu-
sif törədi. Məryəmdən də Məsih adla-
nan İsa doğuldu.

[17]Beləliklə, İbrahimdən Davuda qə-
dər olan bütün nəsillər on dörd nəsil-
dir, Davuddan Babil sürgününə qədər
on dörd nəsildir, Babil sürgünündən
Məsihə qədər də on dörd nəsildir.

### *İsa Məsihin doğulması*

*(Luka 2:1-7)*

[18]İsa Məsihin doğulması belə oldu.
Anası Məryəm Yusifə nişanlanmışdı.
Amma birlikdə olmalarından əvvəl
Məryəmin Müqəddəs Ruhdan hamilə
olduğu aşkar oldu. [19]Onun nişanlısı
Yusif saleh bir adam idi və Məryəmi
camaat arasında rüsvay etmək istə-
məyərək gizlicə boşamaq niyyətinə
düşdü. [20]Amma belə düşündüyü halda
Rəbbin bir mələyi röyada ona görünüb
dedi: «Davud oğlu Yusif! Məryəmi
özünə arvad etməkdən qorxma, çünki
onun bətnindəki körpə Müqəddəs
Ruhdandır. [21]Məryəm bir Oğul doğa-
caq və Onun adını İsa[b] qoy, çünki O
Öz xalqını günahlarından xilas edə-
cək».

[22]Bütün bunlar Rəbbin peyğəmbər
vasitəsilə söylədiyi bu söz yerinə yetsin
deyə baş verdi:

[23]«Budur, bakirə qız hamilə olub
Oğlan doğacaq, adını İmmanuel
qoyacaqlar».

«İmmanuel» «Allah bizimlədir» de-
məkdir.

[24]Yusif yuxudan oyananda Rəbbin
mələyinin buyurduğu kimi etdi və
arvadını qəbul etdi. [25]Amma Məryəm
bir Oğul doğana qədər Yusif onunla
yaxınlıq etmədi. Doğulan Körpənin
adını İsa qoydu.

### *Müdrik adamların ziyarəti*

2 [1]İsa padşah Hirodun dövründə
Yəhudeyanın Bet-Lexem şəhərin-
də anadan olduqda müdrik adamlar[c]
şərqdən Yerusəlimə gəlib [2]dedilər:
«Yəhudilərin anadan olmuş Padşahı
haradadır? Şərqdə Onun ulduzunu
gördük və Ona səcdə qılmağa gəldik».
[3]Padşah Hirod bunu eşitdikdə özü və
bütün Yerusəlim xalqı təlaşa düşdü.
[4]Hirod xalqın bütün başçı kahinlərini
və ilahiyyatçılarını toplayaraq onlar-
dan Məsihin harada doğulduğunu
soruşdu. [5]«Yəhudeyanın Bet-Lexem
şəhərində» dedilər. «Çünki peyğəmbər

a **1:11** *Yekonya* – başqa adı Yehoyakindir.
b **1:21** *İsa* – ibrani dilində *Rəbb xilas edir* deməkdir.
c **2:1** *Müdrik adamlar* – hərfi tərcümədə *mağlar,* yəni şərq ölkələrindən olan din və elm adamları.
**1:18** *Luka 1:26-27* **1:21** *Luka 1:31* **1:22-23** *Yeş. 7:14* **1:25** *Luka 2:21*
**2:2** *Say. 24:17; Yer. 23:5; Zək. 9:9; Mark 15:2; Yəh.1:49*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 3



vasitəsilə belə yazılıb:
6 "Ey Yəhuda torpağındakı
Bet-Lexem, sən
Yəhuda hökmdarları arasında
ən kiçik deyilsən,
Çünki xalqım İsrailə çoban olan
Hökmdar səndən çıxacaq"».
7 Onda Hirod müdrik adamları giz-
licə çağırıb onlardan ulduzun görün-
düyü dəqiq vaxtı öyrəndi. 8 «Gedin,
Körpəni diqqətlə axtarın, tapan kimi
mənə xəbər verin ki, mən də gedib Ona
səcdə qılım» deyərək onları Bet-Lexe-
mə göndərdi. 9 Onlar padşahı dinlədik-
dən sonra yola düşdülər. O vaxt şərqdə
gördükləri ulduz onlara yol göstərirdi.
O, Körpənin olduğu yerin üzərinə
çatdıqda dayandı. 10 Onlar ulduzu gör-
dükləri vaxt çox sevindilər. 11 Evə girib
Körpəni anası Məryəmlə birlikdə gör-
dülər və yerə qapanaraq Ona səcdə
qıldılar. Xəzinələrini açıb Ona hədiy-
yələri – qızıl, kündür və mirranı təq-
dim etdilər. 12 Sonra röyada Hirodun
yanına qayıtmamaq üçün xəbərdarlıq
aldıqlarına görə başqa yolla öz ölkə-
lərinə getdilər.

### *Misirə qaçma*

13 Müdrik adamlar yola düşəndən
sonra Rəbbin bir mələyi Yusifə röyada
görünərək dedi: «Qalx, Körpə ilə ana-
sını götür, Misirə qaç. Mən sənə xəbər
verənə qədər orada qal. Çünki Hirod
Körpəni öldürmək üçün axtarmağa
başlayır». 14 Beləliklə, Yusif qalxdı,
həmin gecə Körpə ilə anasını götürüb
Misirə yollandı. 15 Hirod ölənə qədər
orada qaldı. Bu, Rəbbin peyğəmbər
vasitəsilə söylədiyi söz yerinə yetsin
deyə baş verdi:
«Öz Oğlumu Misirdən çağırdım».
16 Hirod müdrik adamlar tərəfindən
axmaq yerinə qoyulduğunu görəndə
çox hiddətləndi. O, müdrik adamlar-
dan öyrəndiyi vaxta görə Bet-Lexem
və onun ətrafında yaşayan iki və iki
yaşdan aşağı körpə oğlan uşaqlarını
öldürtdü. 17 Beləliklə, Yeremya pey-
ğəmbər vasitəsilə söylənən bu söz
yerinə yetdi:
18 «Ramada bir səs eşidildi,
Ağlaşma[a] və böyük fəryad səsləri!
Rəhilə uşaqları üçün ağlayır,
Təsəlli istəmir.
Çünki onlar daha yoxdur».

### *Misirdən Nazaretə dönüş*

19 Hirod öləndən sonra Rəbbin bir
mələyi Misirdə Yusifə röyada görünüb
20 dedi: «Qalx, Körpə ilə anasını götür,
İsrail ölkəsinə qayıt. Çünki Körpənin
canını almaq istəyənlər öldü». 21 Yusif
qalxdı, Körpə ilə anasını götürüb İsrail
ölkəsinə qayıtdı. 22 Amma Arxelanın
öz atası Hirodun yerinə Yəhudeya
padşahı olduğunu eşidəndə oraya
getməyə qorxdu. Röyada xəbərdarlıq
alaraq Qalileya bölgəsinə getdi. 23 Gə-
lib Nazaret deyilən şəhərdə məskən
saldı. Bu, peyğəmbərlər vasitəsilə söy-
lənən «Ona Nazaretli deyiləcək» sözü
yerinə yetsin deyə baş verdi.

### *Vəftizçi Yəhyanın gəlişi*

*(Mark 1:1-8; Luka 3:1-18; Yəh. 1:19-28)*

3 1 O günlərdə Vəftizçi Yəhya Yəhu-
deya çölündə vəz edərək meydana
çıxdı. 2 O belə deyirdi: «Tövbə edin!
Çünki Səmavi Padşahlıq yaxınlaşıb».
3 Bu o adamdır ki, Yeşaya peyğəmbər
onun barəsində demişdi:

---

a **2:18** *Ağlaşma* – bəzi əlyazmalarda *Mərsiyə, ağlaşma.*

**2:6** *2Şam. 5:2; 1Saln. 11:2; Mik. 5:2* **2:15** *Huşə 11:1* **2:18** *Yer. 31:15* **3:1-2** *Mat. 4:17; Mark 1:15*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 4



«Səhrada nida edənin səsi gəlir:
“Rəbbin yolunu hazırlayın,
Onun keçəcəyi yerləri düz edin”».
4Yəhya dəvə yunundan paltar geymiş,
belinə dəri qurşaq bağlamışdı, yeməyi
çəyirtkə və çöl balı idi. 5Yerusəlim
sakinləri, bütün Yəhudeya diyarından
olanlar və İordan ətrafında yaşayan-
lar Yəhyanın yanına gəlirdi. 6Onlar
günahlarını etiraf edərək onun tərə-
findən İordan çayında vəftiz olunur-
du.

7Fariseylər və sadukeylərdən ço-
xunun vəftiz olmaq üçün onun yanına
gəldiyini görən Yəhya onlara belə
dedi: «Ey gürzələr nəsli! Üzərinizə
gələn qəzəbdən canınızı qurtarmağı
sizin beyninizə kim yeridib? 8İndi isə
tövbəyə layiq bəhrə verin. 9Ürəyinizdə
“atamız İbrahimdir” deyə düşünmə-
yin. Mən sizə deyirəm: Allah bu
daşlardan İbrahimə övlad yaratmağa
qadirdir. 10Artıq balta ağacların
dibində yatır. Beləliklə, yaxşı bəhrə
verməyən hər ağac kəsilir və oda
atılır.

11Mən sizi tövbəniz üçün su ilə
vəftiz edirəm, amma məndən sonra
Gələn məndən daha qüdrətlidir. Mən
Onun çarıqlarını daşımağa belə, layiq
deyiləm. O sizi Müqəddəs Ruhla və
odla vəftiz edəcək. 12Onun kürəyi
əlindədir və xırmanını sovuracaq, Öz
taxılını anbara toplayacaq. Küləşi isə
sönməz odda yandıracaq».

### *İsanın vəftiz olunması*

*(Mark 1:9-11; Luka 3:21-22)*

13O vaxt İsa Yəhya tərəfindən vəftiz
olmaq üçün Qalileyadan İordan çayı-
na, Yəhyanın yanına gəldi. 14Yəhya
Ona mane olmaq istəyərək dedi: «Sən
Məni vəftiz etməlisən, Sən niyə mənim
yanıma gəlirsən?» 15İsa ona cavab
verdi: «Hələlik buna razı ol. Çünki biz
salehlik işini beləcə yerinə yetirmə-
liyik». Onda Yəhya razı oldu. 16İsa
vəftiz olunan kimi sudan çıxdı. O vaxt
göylər yarıldı və Allahın Ruhunun
göyərçin kimi endiyini və Öz üzərinə
qonduğunu gördü. 17Göylərdən bir
səda gəldi: «Bu Mənim sevimli Oğlum-
dur, Ondan razıyam».

### *İsanın sınağa çəkilməsi*

*(Mark 1:12-13; Luka 4:1-13)*

4 1Bundan sonra İsa iblis tərəfindən
sınağa çəkilmək üçün Ruh tərə-
findən səhraya aparıldı. 2İsa qırx gün-
qırx gecə oruc tutandan sonra acdı. 3O
zaman sınağaçəkən yaxınlaşıb Ona
dedi: «Əgər Sən Allahın Oğlusansa, bu
daşlara əmr et ki, çörəyə dönsün». 4İsa
ona belə cavab verdi: «“İnsan yalnız
çörəklə deyil, Allahın ağzından çıxan
hər kəlmə ilə yaşayar” deyə yazılmış-
dır».

5Sonra iblis Onu müqəddəs şəhərə
gətirdi və məbədin qülləsinə qoyub
6dedi: «Əgər Sən Allahın Oğlusansa,
Özünü aşağı at. Axı
“Allah Sənə görə mələklərinə əmr
edər ki,
Səni əlləri üstündə aparsınlar,
Ayağın bir daşa dəyməsin”
deyə yazılmışdır». 7İsa ona dedi:
«“Allahın Rəbbi sınama” deyə də ya-
zılmışdır».

8İblis yenə İsanı çox yüksək bir
dağa çıxartdı. Ona dünyanın bütün

---

**3:3** *Yeş. 40:3* **3:4** *2Pad. 1:8* **3:7** *Mat. 12:34; 23:33; Luka 3:7* **3:9** *Yəh. 8:33* **3:10** *Mat. 7:19*
**3:17** *Zəb. 2:7; Yeş. 42:1; Mat. 12:18; 17:5; Mark 1:11; Luka 9:35* **4:1** *İbr. 2:18; 4:15*
**4:4** *Qanun. 8:3* **4:5-6** *Zəb. 91:11-12* **4:7** *Qanun. 6:16*

padşahlıqlarını və şan-şöhrətini göstərib dedi: 9«Əgər Sən yerə qapanıb mənə səcdə etsən, bütün bu şeyləri Sənə verəcəyəm». 10İsa dedi: «Rədd ol, Şeytan! "Allahın Rəbbə səcdə et və yalnız Ona ibadət et" deyə yazılmışdır».

11Bundan sonra iblis İsanı tərk etdi və mələklər gəlib Ona xidmət edirdi.

### *İsa xidmətinə başlayır*

*(Mark 1:14-15; Luka 4:14-15)*

12İsa Yəhyanın həbs olunduğunu eşitdikdə Qalileyaya qayıtdı. 13Nazaretdən çıxıb Zevulun və Naftali bölgəsində, Qalileya gölü kənarında yerləşən Kefernahumda məskən saldı.
14Bu, Yeşaya peyğəmbər vasitəsilə söylənən həmin söz yerinə yetsin deyə baş verdi:

15«Zevulun və Naftali bölgələri,
Dənizkənarı yol,
İordan çayının o biri tayı,
Müxtəlif millətlər yaşayan
Qalileya –
16Zülmətdə yaşayan xalq
Möhtəşəm bir işıq gördü.
Ölüm kölgəsi diyarında
məskunlaşanların üzərinə
Nur doğdu».

17O vaxtdan İsa vəz edib belə deməyə başladı: «Tövbə edin! Çünki Səmavi Padşahlıq yaxınlaşıb».

### *İlk şagirdlər*

*(Mark 1:16-20; Luka 5:1-11)*

18İsa Qalileya gölünün sahilində gəzərkən suya tor atan iki qardaşı – Peter adlanan Şimonu və qardaşı Andreyi gördü. Bu adamlar balıqçı idi.
19İsa onlara dedi: «Ardımca gəlin, Mən sizi elə balıqçı edəcəyəm ki, insan tutacaqsınız». 20Onlar dərhal torları kənara atıb Onun ardınca getdilər.
21İsa oradan irəli gedib başqa iki qardaşı – Zavday oğlu Yaqubu və qardaşı Yəhyanı gördü. Onlar ataları Zavdayla birlikdə qayıqda torlarını düzəldirdi. İsa onları çağırdı. 22Onlar da dərhal qayığı və atalarını qoyub Onun ardınca getdi.

### *İsa xəstələrə şəfa verir*

*(Mark 3:7-12; Luka 6:17-19)*

23İsa bütün Qalileyanı gəzir, onların sinaqoqlarında öyrədir, Səmavi Padşahlığın Müjdəsini vəz edir, xalq arasında hər cür xəstəliyə və hər cür naxoşluğa şəfa verirdi. 24Onun haqqındakı xəbər bütün Suriyaya yayıldı. Ona görə də İsanın yanına hər cür xəstəlik və iztirab çəkənləri, cinlərə tutulmuşları, epileptikləri və iflicləri gətirdilər. O da onlara şəfa verdi.
25Qalileyadan, Dekapolis bölgəsindən, Yerusəlimdən, Yəhudeyadan və İordan çayının o biri tayından böyük izdihamlar İsanın ardınca gedirdi.

### *İsanın Dağüstü vəzi*

5 1İsa izdihamı görüb dağa çıxdı. Oturan kimi şagirdləri Onun yanına gəldi. 2İsa danışmağa başlayıb onları öyrədərək dedi:

### *Bəxtiyar olanlar*

*(Luka 6:20-23)*

3«Nə bəxtiyardır ruhən yoxsullar!
Çünki Səmavi Padşahlıq
onlarındır.
4Nə bəxtiyardır yaslı olanlar!
Çünki onlar təsəlli tapacaq.

**4:10** *Qanun. 6:13* **4:12** *Mat. 14:3; Mark 6:17-18; Luka 3:19-20* **4:13** *Yəh. 2:12*
**4:14-16** *Yeş. 9:1-2* **4:17** *Mat. 3:1-2* **4:23** *Mat. 9:35; Mark 1:39* **5:4** *Yeş. 61:1-3*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 6



5Nə bəxtiyardır həlimlər!
Çünki onlar yer üzünü irs alacaq.
6Nə bəxtiyardır salehlik üçün
acıb-susayanlar!
Çünki onlar doyacaq.
7Nə bəxtiyardır mərhəmətli olanlar!
Çünki onlara mərhəmət ediləcək.
8Nə bəxtiyardır ürəyi təmiz olanlar!
Çünki onlar Allahı görəcək.
9Nə bəxtiyardır sülhyaradanlar!
Çünki onlar Allahın övladları
adlanacaq.
10Nə bəxtiyardır salehlik uğrunda
təqib edilənlər!
Çünki Səmavi Padşahlıq
onlarındır.
11İnsanlar Mənə görə sizi təhqir
edib təqib edəndə, yalan söyləyib sizə
hər cür böhtan atanda siz nə bəxti-
yarsınız! 12Sevinin və şadlanın! Çünki
göylərdə mükafatınız böyükdür. Axı
sizdən qabaq gələn peyğəmbərləri də
belə təqib ediblər.

### *Duz və nur*

13Siz yer üzünün duzusunuz. Amma
duz öz dadını itirərsə, nə ilə duzlanar?
Artıq çölə atılıb insanlar tərəfindən
tapdalanmaqdan başqa bir şeyə yara-
maz.
14Siz dünyanın nurusunuz. Dağın
zirvəsində qurulan şəhər gizli qala
bilməz. 15Heç kim çırağı yandırıb
qabın altına qoymaz. Əksinə, çıraq-
dana qoyar ki, evdəkilərin hamısını
işıqlandırsın. 16Eləcə də sizin nurunuz
insanların qarşısında elə parlasın ki,
onlar xeyirxah işlərinizi görüb göylər-
də olan Atanızı izzətləndirsinlər.

### *Qanun və Peyğəmbərlər*

17Sanmayın ki, Mən Qanun və
Peyğəmbərlərin sözlərini ləğv etmək
üçün gəldim. Mən onları ləğv etmək
üçün yox, yerinə yetirmək üçün gəl-
dim. 18Sizə doğrusunu deyirəm: göy və
yer keçib getmədən, hər şey icra
olmadan Qanundan ən kiçik bir hərf
və ya bir nöqtə belə, yox olmayacaq.
19Beləliklə, bu əmrlərdən ən kiçiyin-
dən birini kim pozarsa və başqalarına
da bu cür öyrədərsə, Səmavi Padşah-
lıqda ən kiçik sayılacaq. Amma kim
bu əmrləri yerinə yetirər və başqa-
larına da öyrədərsə, Səmavi Padşah-
lıqda böyük sayılacaq. 20Sizə bunu
deyirəm: əgər sizin salehliyiniz ila-
hiyyatçılarla fariseylərin salehliyindən
artıq olmasa, Səmavi Padşahlığa əsla
girə bilməzsiniz.

### *Hirs və qətl*

21Siz qədim zamanlarda adamlara
“Qətl etmə, kim qətl edərsə, müha-
kiməyə məruz qalacaq” deyildiyini
eşitmisiniz. 22Mənsə sizə deyirəm ki,
qardaşına hirslənən[a] hər kəs müha-
kiməyə məruz qalacaq. Kim qardaşına
“axmaq” deyərsə, Ali Şuranın hök-
münə məruz qalacaq. Kim qardaşına
“səfeh” deyərsə, cəhənnəm oduna
məruz qalacaq. 23Buna görə də qur-
bangah qarşısına qurbanını gətirdiyin
zaman yadına düşsə ki, qardaşının
sənə qarşı bir şikayəti var, 24qurbanını
qurbangahın qarşısında qoy, get,
əvvəlcə qardaşınla barış və ondan
sonra gəl, qurbanını təqdim et. 25Səni

a **5:22** *Hirslənən* – bəzi əlyazmalarda *əbəs yerə hirslənən.*

**5:5** *Zəb. 37:11* **5:6** *Yeş. 55:1-2* **5:8** *Zəb. 24:3-4* **5:10** *1Pet. 3:14* **5:11** *1Pet. 4:14*
**5:12** *2Saln. 36:16; Həv. 7:52-53* **5:13** *Mark 9:50; Luka 14:34-35* **5:14** *Yəh. 8:12; 9:5*
**5:15** *Mark 4:21; Luka 8:16; 11:33* **5:16** *1Pet. 2:12* **5:18** *Luka 16:17*
**5:21** *Çıx. 20:13; Qanun. 5:17* **5:25-26** *Luka 12:58-59*

40_Mat Lat:Azeri Bible Cyrillic  30.09.2009  11:04  Page 7



ittiham edənlə yolda ikən tez razılaş
ki, o səni hakimə, hakim də səni
mühafizəçiyə verməsin və zindana
atılmayasan. 26Sənə doğrusunu de-
yirəm: axırıncı qəpik-quruşunu ver-
məyincə oradan əsla çıxmayacaqsan.

### *Zina və boşanma*

27“Zina etmə” deyildiyini eşitmisi-
niz. 28Mənsə sizə deyirəm ki, qadına
şəhvətlə baxan hər adam artıq ürəyin-
də onunla zina etmiş olur. 29Əgər sağ
gözün səni pis yola çəkərsə, onu çıxar
at. Çünki sənin üçün bədən üzvlərin-
dən birinin məhv olması bütün bədəni-
nin cəhənnəmə atılmasından yaxşıdır.
30Əgər sağ əlin səni pis yola çəkərsə,
onu kəs at. Çünki sənin üçün bədən
üzvlərindən birinin məhv olması bütün
bədəninin cəhənnəmə düşməsindən
yaxşıdır.
31“Kim arvadını boşayarsa, ona ta-
laq kağızı versin” deyilmişdir. 32Mən-
sə sizə deyirəm ki, cinsi əxlaqsızlıqdan
başqa bir səbəbə görə arvadını
boşayan hər kəs onu zinaya sövq edir.
Boşanmış qadınla evlənən də zina
edir.

### *And içmək*

33Yenə qədim zamanlarda adam-
lara “Yalandan and içmə, amma and-
larını Rəbbin önündə yerinə yetir”
deyildiyini eşitmisiniz. 34Mənsə sizə
deyirəm ki, heç and içmə, nə göyə,
çünki o, Allahın taxtıdır; 35nə yerə,
çünki yer Onun ayaqlarının altındakı
kətildir; nə də Yerusəlimə, çünki ora
böyük Padşahın şəhəridir. 36Başına da
and içmə, çünki sən hətta bir dənə saçı
belə, ağ və ya qara edə bilməzsən.
37Ancaq sözünüzdə “bəli”niz bəli,
“xeyr”iniz xeyr olsun. Bundan qalanı
şər olandandır.

### *Düşmənlərinizi sevin*
*(Luka 6:27-36)*

38“Göz əvəzinə göz, diş əvəzinə diş”
deyildiyini eşitmisiniz. 39Mənsə sizə
deyirəm ki, pis adama qarşı durma.
Əksinə, sağ üzünə şillə vurana o birini
də çevir. 40Səni məhkəməyə verib
köynəyini götürmək istəyənə üst pal-
tarını da ver. 41Kim səni min addım
yol getməyə məcbur edirsə, sən onunla
iki min addım yol get. 42Səndən bir şey
diləyənə ver, səndən borc istəyəni geri
qaytarma.
43“Qonşunu sev və düşməninə
nifrət et” deyildiyini eşitmisiniz.
44Mənsə sizə deyirəm ki, düşmən-
lərinizi sevin, sizi təqib edənlər üçün
dua edin.[a] 45Belə ki siz göylərdə olan
Atanızın övladları olasınız. Çünki O,
günəşini həm pislərin, həm yaxşıların
üzərinə doğurur, yağışını da həm
salehlərin, həm də saleh olmayanların
üzərinə yağdırır. 46Əgər sizi sevənləri
sevirsinizsə, nə mükafatınız olacaq?
Vergiyığanlar da belə etmirmi?
47Əgər yalnız qardaşlarınızı salam-
layırsınızsa, başqalarından artıq nə
etmiş olursunuz? Bütpərəstlər[b] də belə
etmirmi? 48Ona görə də Səmavi

---

a **5:44** *Sizi təqib edənlər üçün dua edin* – bəzi əlyazmalarda *sizi lənətləyənlərə xeyir-dua verin, sizə nifrət edənlərə yaxşılıq edin, sizi incidənlər və təqib edənlər üçün dua edin* (Luka 6:27-28).
b **5:47** *Bütpərəstlər* – bəzi əlyazmalarda *Vergiyığanlar.*
**5:27** *Çıx. 20:13; Qanun. 5:18* **5:29** *Mat. 18:9; Mark 9:47* **5:30** *Mat. 18:8; Mark 9:43*
**5:31-32** *Qanun. 24:1-4; Mat. 19:7-9; Mark 10:4,11-12; Luka 16:18;* **5:31-32** *1Kor. 7:10-11*
**5:33** *Lev. 19:12; Say. 30:2; Qanun. 23:21* **5:34-35** *Zəb. 48:2; Yeş. 66:1; Mat. 23:22; Yaq. 5:12*
**5:38** *Çıx. 21:23-25; Lev. 24:20; Qanun. 19:21* **5:43** *Lev. 19:18*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 8



Atanız kamil olduğu kimi siz də
kamil olun.

### *Sədəqə vermək*

6 1Ehtiyatlı olun, siz saleh iş görən-
də bunu insanların önündə, on-
lara göstərmək üçün etməyin. Yoxsa
göylərdə olan Atanızdan mükafat
almazsınız.

2Ona görə də sədəqə verdiyin za-
man önündə şeypur səsi ilə car çəkmə.
Çünki adamlar onları izzətləndirsin
deyə ikiüzlülər sinaqoqlarda və küçə-
lərdə belə edirlər. Sizə doğrusunu
deyirəm: onlar mükafatlarını alıblar.
3Amma sən sədəqə verdiyin zaman sol
əlin sağ əlinin nə etdiyini bilməsin.
4Belə ki verdiyin sədəqə gizli qalsın.
Gizlində olanı görən Atan səni müka-
fatlandıracaq.[a]

### *Necə dua etməli*

*(Luka 11:2-4)*

5Dua etdiyiniz zaman da ikiüzlülər
kimi olmayın. Çünki belələri adamlar
onları görsün deyə sinaqoqlarda və
küçə tinlərində durub dua etməyi se-
virlər. Sizə doğrusunu deyirəm: onlar
mükafatlarını alıblar. 6Amma sən dua
etdiyin zaman öz otağına gir və qapını
örtüb gizlində olan Atana dua et.
Gizlində olanı görən Atan səni müka-
fatlandıracaq.[9]

7Dua edəndə bütpərəstlər kimi boş-
boğazlıq etməyin. Çünki onlar düşü-
nür ki, çox söz söyləməklə eşidilə-
cəklər. 8Siz onlara bənzəməyin! Çünki
Atanız nələrə ehtiyacınız olduğunu siz
Ondan diləməzdən əvvəl bilir.
9Buna görə siz belə dua edin:

“Göylərdə olan Atamız,
Adın müqəddəs tutulsun,
10Padşahlığın gəlsin,
Göydə olduğu kimi
Yerdə də Sənin iradən olsun.
11Gündəlik çörəyimizi bizə bu gün
ver.
12Bizə borclu olanları bağışladığımız
kimi
Bizim borclarımızı da bağışla.
13Bizi sınağa çəkmə,
Lakin bizi şərdən[b] xilas et.
Çünki padşahlıq, qüdrət və izzət
Əbədi olaraq Sənindir. Amin.”[c]

14Əgər başqa insanların təqsirlərini
bağışlasanız, Səmavi Atanız da sizi
bağışlayar. 15Amma siz başqa insan-
ları bağışlamasanız, Atanız da sizin
təqsirlərinizi bağışlamaz.

### *Oruc*

16Oruc tutduğunuz zaman ikiüz-
lülər kimi qaşqabaqlı gəzməyin. Onlar
oruc tutduqlarını insanlara göstərmək
üçün üzlərini tutqun hala salırlar. Sizə
doğrusunu deyirəm: onlar mükafatla-
rını alıblar. 17Amma sən oruc tutanda
başına yağ çək və üzünü yu. 18Belə ki
insanlara deyil, gizlində olan Atana
oruclu görünəsən. Gizlində olanı görən
Atan səni mükafatlandıracaq.

### *Səmavi xəzinələr*

*(Luka 11:34-35; 12:33-34; 16:13)*

19Yer üzündə özünüzə xəzinələr yığ-
mayın. Orada güvə və pas onları məhv

---

a **6:4,6** *Mükafatlandıracaq* – bəzi əlyazmalarda *açıqca mükafatlandıracaq.*
b **6:13** *Şərdən* – yaxud *şər olandan,* yəni Şeytandan.
c **6:13** *Çünki padşahlıq, qüdrət və izzət əbədi olaraq Sənindir. Amin.* – bu sözlər ən qədim yunan əlyazmalarında yoxdur.

**5:48** *Lev. 19:2; Qanun. 18:13* **6:1** *Mat. 23:5* **6:5** *Luka 18:9-14* **6:13** *1Saln. 29:11*
**6:14-15** *Mark 11:25-26* **6:19** *Yaq. 5:2-3*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 9



edər ya da oğrular girib oğurlayar.
20Bunun yerinə özünüzə göydə xəzinə-
lər yığın. Orada nə güvə, nə pas onları
məhv edər, nə də oğrular girib oğur-
layar. 21Çünki xəzinən haradadırsa,
ürəyin də orada olacaq.

22Bədənin çırağı gözdür. Əgər
gözün sağlam olarsa, bütün bədənin də
nurlu olacaq. 23Yox, əgər gözün zəif
görərsə, bütün bədənin qaranlıq ola-
caq. Əgər səndəki "nur" qaranlıqdır-
sa, zülmət nə qədər böyükdür!

24Heç kim iki ağaya qulluq edə
bilməz. Çünki ya birinə nifrət edib o
birisini sevəcək ya da birinə bağlı qalıb
o birisinə xor baxacaq. Siz həm Al-
laha, həm də sərvətə[a] qulluq edə bil-
məzsiniz.

### *Qayğı çəkməyin*

*(Luka 12:22-32)*

25Buna görə sizə deyirəm: "Nə
yeyəcəyik?" və ya "Nə içəcəyik?" deyə
canınız üçün, "Nə geyinəcəyik?" deyə
bədəniniz üçün qayğı çəkməyin. Can
yeməkdən, bədən isə geyinməkdən
daha vacib deyilmi? 26Göydə uçan
quşlara baxın: onlar nə əkir, nə biçir,
nə də anbarlarda saxlayır. Amma
Səmavi Atanız onları yedizdirir. Siz
onlardan daha qiymətli deyilsinizmi?
27Hansı biriniz qayğı çəkməklə öm-
rünü bir anlıq belə, uzada bilər?
28Nəyə görə geyim üçün qayğı çəkir-
siniz? Görün çöl zanbaqları necə bö-
yüyür: onlar nə zəhmət çəkir, nə də ip
əyirir. 29Lakin sizə bunu deyirəm ki,
bütün cah-calalı içində olan Süleyman
belə, bunlardan biri kimi geyinmə-
mişdi. 30Ey imanı az olanlar, bu gün
olub sabah ocağa atılan çöl otunu
Allah belə geyindirirsə, sizi geyin-
dirəcəyi daha da yəqin deyilmi?
31Beləliklə, "Nə yeyəcəyik?", "Nə
içəcəyik?" və ya "Nə geyəcəyik?" deyə
qayğı çəkməyin. 32Çünki bütpərəstlər
bütün bu şeyləri axtarırlar. Doğrudan
da, Səmavi Atanız bütün bunlara
ehtiyacınız olduğunu bilir. 33Ona görə
də siz əvvəlcə Allahın Padşahlığını və
Onun salehliyini axtarın. Onda bun-
ların hamısı sizə əlavə olaraq veri-
ləcək. 34Beləliklə, sabahın qayğısını
çəkməyin. Çünki sabahkı gün özü üçün
qayğı çəkəcək. Hər günün öz yaman-
lığı kifayətdir!

### *Mühakimə etməyin*

*(Luka 6:37-42)*

7 1Mühakimə etməyin ki, siz də
mühakimə olunmayasınız. 2Çünki
hansı hökmlə mühakimə etsəniz,
onunla da mühakimə olunacaqsınız.
Siz hansı ölçü ilə ölçsəniz, sizin üçün də
eyni ölçü ilə ölçüləcək. 3Sən nə üçün
qardaşının gözündə çöpü görürsən,
amma öz gözündəki tiri seçmirsən?
4Öz gözündə tir ola-ola qardaşına necə
deyə bilərsən: "Qoy gözündəki çöpü
çıxarım!" 5Ey ikiüzlü, əvvəlcə öz gö-
zündən tiri çıxar, onda aydın görərsən
ki, qardaşının gözündəki çöpü necə
çıxarmaq olar.

6Müqəddəs olanı itlərə verməyin və
mirvarilərinizi donuzlara atmayın;
yoxsa bunları ayaqları ilə tapdala-
yarlar və dönüb sizi parçalayarlar.

### *Dua haqqında təlim*

*(Luka 11:9-13)*

7Diləyin, sizə veriləcək, axtarın,
tapacaqsınız, qapını döyün və sizə

---

a **6:24** *Sərvət* – arami dilində *mamon*.
**6:29** *1Pad. 10:4-7; 2Saln. 9:3-6* **7:2** *Mark 4:24*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 10



açılacaq. 8Çünki hər diləyən alar,
axtaran tapar, qapı döyənə açılar.
9Aranızdan kimsə oğlu ondan çörək
diləsə, ona daş verərmi? 10Ya da balıq
diləsə, ona ilan verərmi? 11Beləliklə,
siz pis olduğunuz halda öz övladla-
rınıza yaxşı hədiyyələr verməyi bilir-
sinizsə, göylərdə olan Atanızın Ondan
diləyənlərə gözəl hədiyyələr verəcəyi
nə qədər yəqindir!

12İnsanların sizinlə necə rəftar et-
məsini istəyirsinizsə, siz də onlarla elə
rəftar edin. Çünki Qanun və Peyğəm-
bərlərin söylədiyi də elə budur.

***Dar qapı və geniş qapı***

*(Luka 13:24)*

13Dar qapıdan girin. Çünki həlaka
aparan qapı geniş və yolu enlidir. Bu
qapıdan girənlər çoxdur. 14Amma hə-
yata aparan qapı dar və yolu ensizdir,
onu tapanlar azdır.

***Ağac və bəhrə***

*(Mat. 12:33-35; Luka 6:43-46; 13:25-27)*

15Yalançı peyğəmbərlərdən özü-
nüzü gözləyin! Onlar yanınıza quzu
cildində gələrlər, amma daxilən yırtıcı
qurddurlar. 16Onları bəhrələrindən
tanıyacaqsınız. Qaratikandan üzüm
yaxud qanqaldan əncir yığılarmı?
17Beləcə də hər yaxşı ağac yaxşı bəhrə,
pis ağac isə pis bəhrə verər. 18Yaxşı
ağac pis bəhrə verə bilməz, pis ağac da
yaxşı bəhrə verə bilməz. 19Yaxşı bəhrə
verməyən hər ağac kəsilər və oda
atılar. 20Beləliklə, yalançı peyğəmbər-
ləri bəhrələrindən tanıyacaqsınız.

21Mənə "ya Rəbb, ya Rəbb" deyən
hər kəs Səmavi Padşahlığa girmə-
yəcək; lakin göylərdə olan Atamın
iradəsini yerinə yetirən oraya girəcək.
22O gün bir çoxları Mənə deyəcək:
"Ya Rəbb, ya Rəbb, biz Sənin adınla
peyğəmbərlik etmirdikmi? Sənin adın-
la cinləri qovmurduqmu? Sənin adınla
bir çox möcüzələr yaratmırdıqmı?"
23Onda Mən onlara bəyan edəcəyəm:
"Ey qanunsuzluq edənlər, Mən sizi
heç vaxt tanımamışam, Məndən uzaq
olun!"

***Ağıllı bənna və ağılsız bənna***

*(Luka 6:47-49)*

24Beləliklə, bu sözlərimi eşidib
onlara əməl edən hər kəs öz evini qaya
üzərində quran ağıllı adama bənzəyir.
25Yağış yağar, sellər gələr, yellər əsər
və o evə hücum edər. Amma ev uçmaz,
çünki təməli qaya üzərində qurulub.
26Bu sözlərimi eşidib onlara əməl
etməyən hər kəs isə öz evini qum
üzərində tikən ağılsız adama bənzəyir.
27Yağış yağar, sellər gələr, yellər əsər
və o evə hücum edər. Ev uçar və onun
yıxılması bir müsibət olar».

28İsa bu sözləri bitirəndə xalq Onun
təliminə təəccübləndi, 29çünki onlara
öz ilahiyyatçıları kimi deyil, səlahiyyət
sahibi kimi təlim öyrədirdi.

***İsa bir cüzamlıya şəfa verir***

*(Mark 1:40-45; Luka 5:12-16)*

8
1İsa dağdan endiyi zaman böyük
bir izdiham Onun ardınca getdi.
2Bu zaman cüzamlı bir adam yaxın-
laşıb «ya Rəbb, əgər istəsən, məni pak
edə bilərsən» deyərək Ona səcdə qıldı.
3İsa əlini uzadıb ona toxundu və dedi:
«İstəyirəm, pak ol!» Dərhal bu adam
cüzamdan pak oldu. 4İsa ona dedi:
«Bax heç kəsə bir söz demə, amma get,

---

**7:12** *Luka 6:31* **7:19** *Mat. 3:10; Luka 3:9* **7:20** *Mat. 12:33* **7:23** *Zəb. 6:8; Luka 13:27*
**7:28-29** *Mark 1:22; Luka 4:32* **8:4** *Lev. 14:1-32*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 11



özünü kahinə göstər. Hər kəsə şəhadət
olsun deyə Musanın buyurduğu təq-
dimi apar».

### *Yüzbaşının imanı*

*(Luka 7:1-10)*

5İsa Kefernahuma girərkən bir
yüzbaşı Ona yaxınlaşıb yalvardı: 6«Ya
Rəbb, xidmətçim iflic olub evdə yatır,
çox iztirab çəkir». 7İsa ona dedi: «Mən
gəlib ona şəfa verəcəyəm». 8Yüzbaşı
cavab verərək dedi: «Ya Rəbb, mən
layiq deyiləm ki, Sən mənim evimə
girəsən. Ancaq bir söz söylə, onda
xidmətçim sağalacaq. 9Çünki mən də
tabeçilik altında olan bir adamam,
mənim də tabeçiliyimdə əsgərlər var.
Birinə "Get!" deyirəm, o gedir, digə-
rinə isə "Gəl!" deyirəm, o da gəlir.
Quluma "Bunu et!" deyirəm, o da
edir». 10Bunu eşidən İsa heyrət etdi. O
ardınca gələn xalqa dedi: «Sizə doğ-
rusunu deyirəm: İsraildə heç kimdə
belə böyük iman görmədim. 11Sizə
deyirəm ki, şərqdən və qərbdən bir
çoxu gələcək və Səmavi Padşahlıqda
İbrahimlə, İshaqla və Yaqubla bir
süfrəyə oturacaq. 12Amma bu pad-
şahlığın əsl övladları qaranlıq çölə
atılacaq. Orada ağlaşma və diş qıcırtısı
olacaq». 13Sonra İsa yüzbaşıya dedi:
«Get, qoy sənin imanına görə olsun».
Yüzbaşının xidmətçisi də o saat sa-
ğaldı.

### *İsa çox adama şəfa verir*

*(Mark 1:29-34; Luka 4:38-41)*

14İsa Peterin evinə gəldi. Onun qa-
yınanasının qızdırma içində yatdığını
gördü. 15İsa onun əlinə toxundu və
qadının qızdırması düşdü. Qadın qal-
xıb İsaya xidmət etməyə başladı.
16Axşam olduqda isə cinə tutulmuş
bir çox adamı İsanın yanına gətirdilər.
O, sözlə ruhları çıxartdı və xəstələrin
hamısına şəfa verdi. 17Bu, Yeşaya pey-
ğəmbər vasitəsilə söylənən bu sözlər
yerinə yetsin deyə baş verdi:

«Bizim xəstəliklərimizi O çəkdi,
Naxoşluqlarımızı Öz üzərinə
götürdü».

### *İsanın şagirdi olmaq nə deməkdir*

*(Luka 9:57-62)*

18İsa ətrafında izdihamı gördükdə
əmr verdi ki, o biri sahilə keçsin. 19Bu
zaman bir ilahiyyatçı Ona yaxınlaşıb
dedi: «Müəllim! Sən hara getsən, Sənin
ardınca gedəcəyəm». 20İsa ona dedi:
«Tülkülərin də yuvası, göydə uçan
quşların da yuvası var. Amma Bəşər
Oğlunun başını qoymağa belə, yeri
yoxdur».
21Şagirdlərindən bir başqası İsaya
dedi: «Ya Rəbb, mənə icazə ver,
əvvəlcə gedim, atamı dəfn edim». 22İsa
ona dedi: «Ardımca gəl. Qoy ölülər öz
ölülərini dəfn etsin».

### *İsa tufanı yatırır*

*(Mark 4:35-41; Luka 8:22-25)*

23İsa qayığa mindiyi zaman
şagirdləri də Onun ardınca getdi.
24Göldə elə böyük tufan qopdu ki,
qayıq dalğalarla örtüldü. Amma İsa
yatırdı. 25Şagirdlər yaxınlaşıb İsanı
oyadaraq dedilər: «Ya Rəbb, bizi xilas
et, biz həlak oluruq!» 26İsa onlara «Ey
imanı az olanlar, niyə qorxursunuz?»
dedi. Sonra durub küləklərə və gölə
qadağan etdi, onda dərin sükut çökdü.
27Onlar heyrət içində qalıb dedilər:
«Bu necə bir Adamdır ki, küləklər də,
göl də Ona itaət edir?»

---

**8:11** *Luka 13:29* **8:12** *Mat. 22:13; 25:30; Luka 13:28* **8:17** *Yeş. 53:4*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 12



### *Cinə tutulmuş iki nəfər sağaldılır*

*(Mark 5:1-20; Luka 8:26-39)*

28İsa o biri sahildə yerləşən Qada-
ralıların[a] diyarına gəldiyi zaman qəbir
mağaralarından çıxan cinə tutulmuş
iki nəfər Onunla qarşılaşdı. Onlar elə
təhlükəli idi ki, heç kim o yoldan keçə
bilmirdi. 29Budur, onlar bağırdılar:
«Ey Allahın Oğlu, bizdən nə istəyir-
sən? Buraya vaxtından əvvəl bizə izti-
rab verməyəmi gəlmisən?» 30Onlar-
dan uzaqda böyük bir donuz sürüsü
otlayırdı. 31Cinlər İsaya yalvardılar:
«Bizi qovacaqsansa, bu donuz
sürüsünə göndər». 32İsa onlara
«Gedin!» dedi. Cinlər də adamlardan
çıxıb donuzların içinə girdi. Beləliklə,
bütün sürü uçurumdan aşağı, gölə
atılıb suda boğuldu. 33Donuz ota-
ranlar isə qaçdılar, şəhərə gəlib hər
şeyi və cinə tutulmuş adamların
başına gələn əhvalatı xəbər verdilər.
34Bundan sonra bütün şəhər əhalisi
İsanı qarşılamağa çıxdı. İsanı görəndə
Ona yalvardılar ki, onların bölgəsin-
dən çıxsın.

### *İsa iflicə şəfa verir*

*(Mark 2:1-12; Luka 5:17-26)*

9 1İsa qayığa minərək gölü keçdi və
Öz şəhərinə gəldi. 2Onun yanına
yataqda yatan bir iflic adamı gətir-
dilər. İsa onların imanını görəndə iflic
olan adama dedi: «Cəsarətli ol, oğlum,
günahların bağışlandı». 3Onda bəzi
ilahiyyatçılar öz-özünə dedilər: «Bu
Adam küfr danışır». 4Onların nə
düşündüklərini görərək İsa dedi: «Niyə
ürəyinizdə pis şeylər fikirləşirsiniz?
5Bax hansı daha asandır? “Günahların
bağışlandı” deməkmi, yoxsa “Qalx,
yeri!” demək? 6Lakin siz bilin ki, Bəşər
Oğlunun yer üzündə günahları bağış-
lamaq səlahiyyəti var» və onda iflicə
dedi: «Qalx, yatağını götür və evinə
get!» 7Xəstə qalxıb evinə getdi. 8Xalq
bunu gördükdə qorxdu[b] və insanlara
bu cür səlahiyyət verən Allahı izzətlən-
dirdi.

### *Matta şagirdlərə qoşulur*

*(Mark 2:13-17; Luka 5:27-32)*

9İsa oradan keçəndə vergi yığılan
yerdə oturan Matta adlı bir adamı
görüb ona dedi: «Ardımca gəl». O da
durub İsanın ardınca getdi.
10İsa evdə süfrəyə oturanda bir çox
vergiyığanlarla günahkarlar gəlib
Onunla və şagirdləri ilə birgə oturdu-
lar. 11Fariseylər bunu gördükdə Onun
şagirdlərinə dedilər: «Niyə Müəllimi-
niz vergiyığanlar və günahkarlarla
birgə yemək yeyir?» 12Amma İsa bunu
eşidəndə dedi: «Sağlamların deyil, xəs-
tələrin həkimə ehtiyacı var. 13Gedin və
“Mən qurban deyil, mərhəmət istə-
yirəm” sözünün mənasını öyrənin.
Çünki Mən salehləri deyil, günahkar-
ları çağırmaq[c] üçün gəlmişəm».

### *Oruc barəsindəki sual*

*(Mark 2:18-22; Luka 5:33-39)*

14O zaman Yəhyanın şagirdləri
İsanın yanına gəlib dedilər: «Nə üçün
biz və fariseylər çox oruc tuturuq,
amma Sənin şagirdlərin oruc tutmur?»
15İsa onlara cavab verdi: «Bəy yanla-

---

a **8:28** *Qadaralıların* – bəzi əlyazmalarda *Gergesalıların.*
b **9:8** *Qorxdu* – bəzi əlyazmalarda *heyrətləndi.*
c **9:13** *Çağırmaq* – bəzi əlyazmalarda *tövbəyə çağırmaq.*
**9:10-11** *Luka 15:1-2* **9:13** *Huşə 6:6; Mat. 12:7*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 13



rında olanda sağdışı və soldışı yas tuta bilərmi? Lakin bəyin onların arasından aparılacağı günlər gələcək və o zaman oruc tutacaqlar.

16Heç kim köhnə paltara təzə parçadan yamaq vurmaz. Çünki təzə yamaq köhnə paltardan qopar və
yırtıq daha pis olar. 17Eləcə də təzə
şərabı köhnə tuluqlara doldurmazlar. Yoxsa tuluqlar partlayar, şərab tökülər, tuluqlar da zay olar. Təzə şərab təzə tuluqlara doldurular; onda hər ikisi qorunar».

### *Qızın dirilməsi və qadının şəfa tapması*

*(Mark 5:21-43; Luka 8:40-56)*

18Bu şeyləri onlara söyləyərkən bir rəis gəldi və Ona səcdə qılaraq dedi: «Qızım indi ölür, amma gəlib əlini onun üstünə qoysan, yaşayacaq».
19İsa qalxıb şagirdləri ilə onun ardınca getdi.

20Həmin vaxt on iki il qanaxma xəstəliyinə tutulan bir qadın İsanın arxasından gəlib Onun paltarının
ətəyinə toxundu. 21Çünki öz-özünə
deyirdi: «Heç olmasa paltarına toxunsam, sağalaram». 22İsa da dönüb onu
görərək dedi: «Cəsarətli ol, qızım, imanın səni xilas etdi». Qadın o saat sağaldı.

23İsa rəisin evinə gələndə tütək çalanları və qarışıqlıq salan izdihamı
gördü 24və dedi: «Çəkilin buradan, çünki qız ölməyib, sadəcə olaraq
yatıb». Onlar İsaya güldülər. 25Amma
camaat çölə çıxarılanda İsa içəri girdi və qızın əlindən tutdu; qız da ayağa
qalxdı. 26Bu xəbər o torpağın hər
tərəfinə yayıldı.

### *İki kor ilə bir lal sağaldılır*

27İsa oradan keçərkən iki kor adam Onun ardınca gələrək qışqırırdı: «Ey Davud Oğlu! Bizə
rəhm elə!» 28Evə girdikdə korlar Onun yanına gəldilər. İsa onlara dedi: «Bunu etməyə qadir olduğuma inanırsınızmı?» Kor adamlar Ona
dedilər: «Bəli, ya Rəbb». 29O zaman
İsa onların gözlərinə toxunaraq dedi: «Sizə imanınıza görə olsun».
30Onların gözləri açıldı. İsa «baxın heç kim bu barədə bilməsin» deyə
onlara ciddi tapşırdı. 31Onlar isə çıxıb
Onun haqqındakı xəbəri o torpağın hər tərəfinə yaydılar.

32Onlar çıxarkən cinə tutulmuş lal bir adamı İsanın yanına gətirdilər.
33Cin qovulandan sonra lal danışmağa başladı. Xalq heyrətlənərək dedi: «İsraildə heç vaxt belə bir şey baş
verməmişdi». 34Lakin fariseylər deyirdilər: «O, cinlərin başçısının gücü ilə cinləri qovur».

### *Məhsul çox, işçilər az*

35İsa bütün şəhər və kəndləri gəzib-dolaşaraq onların sinaqoqlarında təlim öyrədir, Səmavi Padşahlığın Müjdəsini vəz edir, hər cür xəstəliyə və hər cür naxoşluğa şəfa verirdi.
36Lakin izdihamı görəndə İsanın onlara rəhmi gəldi, çünki çobansız qoyunlar kimi taqətsiz və çarəsiz
idilər. 37O zaman İsa şagirdlərinə
dedi: «Məhsul çoxdur, işçilərsə azdır.
38Buna görə də məhsulun Sahibinə yalvarın ki, Öz məhsulunu yığmaq üçün işçilər göndərsin».

**9:27** *Mat. 20:30* **9:34** *Mat. 10:25; 12:24; Mark 3:22; Luka 11:15* **9:35** *Mat. 4:23; Mark 1:39; Luka 4:44* **9:36** *Say. 27:17; 1Pad. 22:17; 2Saln. 18:16; Yez. 34:5; Zək. 10:2; Mark 6:34* **9:37-38** *Luka 10:2; Yəh. 4:35*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 14



### *On İki şagirdə verilən vəzifə*

*(Mark 3:13-19; 6:7-13; Luka 6:12-16;
9:1-6; 10:1-12)*

10 1İsa On İki şagirdini yanına
çağırıb onlara natəmiz ruhlar
üzərində səlahiyyət verdi ki, bunları
qovsunlar, hər cür xəstəliyə və hər cür
naxoşluğa şəfa versinlər. 2Bu On İki
həvarinin adları belədir: birincisi Peter
adlanan Şimon və onun qardaşı An-
drey, Zavday oğlu Yaqub və qardaşı
Yəhya, 3Filip və Bartalmay, Tomas və
vergiyığan Matta, Halfay oğlu Yaqub
və Tadday,[a] 4Kənançı[b] Şimon və İsaya
xəyanət edən Yəhuda İskaryot.

5İsa həmin on iki nəfəri belə əmrlə
göndərdi: «Başqa millətlərin arasına
getməyin və Samariyalıların heç bir
şəhərinə girməyin, 6amma İsrail xal-
qının itmiş qoyunlarının yanına gedin.
7Getdiyiniz yerlərdə "Səmavi Pad-
şahlıq yaxınlaşıb" deyə vəz edin.
8Xəstələrə şəfa verin, ölüləri dirildin,
cüzamlıları pak edin, cinləri çıxarın.
Müftə aldınız, müftə verin. 9Qurşağı-
nızda nə qızıl, nə gümüş, nə də mis
götürün. 10Yol üçün nə torba, nə iki
köynək, nə çarıq, nə də əsa götürün.
Çünki işçi öz azuqəsinə layiqdir.
11Hansı şəhərə ya kəndə girsəniz,
orada ləyaqətli kimdirsə, axtarın və
yola çıxanacan onun evində qalın. 12O
evə girərkən ev sakinlərini salamlayın.
13Əgər ev layiqdirsə, əmin-amanlığınız
onun üzərinə gəlsin; layiq deyilsə,
əmin-amanlığınız özünüzə qayıtsın.
14Kim sizi qəbul etməyib sözlərinizi
dinləməzsə, o evdən və ya şəhərdən
çıxarkən ayaqlarınızın tozunu çırpın.
15Sizə doğrusunu deyirəm: qiyamət
günü[c] Sodom və Homorra diyarının
halı o şəhərin halından daha asan
olacaq.

### *Şagirdlərin sıxıntıları*

*(Mark 13:9-13; Luka 21:12-17)*

16Budur, sizi qurdlar arasına quzu-
lar kimi göndərirəm. Ona görə də ilan
kimi müdrik və göyərçin kimi məsum
olun. 17İnsanlardan özünüzü gözləyin.
Çünki onlar sizi məhkəmələrə çəkəcək,
sinaqoqlarında qamçılayacaqlar.
18Onlara və millətlərə şəhadət etmək
üçün siz Mənə görə valilərin və pad-
şahların qarşısına aparılacaqsınız.
19Onlar sizi təslim edəndə necə və ya
nə deyəcəyiniz barədə qayğı çəkməyin.
Nə deyəcəyiniz həmin vaxt sizə bildi-
riləcək, 20çünki danışan siz yox, sizdə
danışan Atanızın Ruhudur. 21Qardaş
qardaşı, ata övladını ölümə təslim
edəcək. Övladlar ata-anasına qarşı
çıxıb onları edam etdirəcək. 22Mənim
adıma görə hamı sizə nifrət edəcək.
Amma axıracan dözən xilas olacaq.
23Sizi bir şəhərdə təqib edəndə baş-
qasına qaçın. Çünki sizə doğrusunu
deyirəm: siz İsrail şəhərlərini dolaşıb-
qurtarmamış Bəşər Oğlu gələcək.

24Şagird müəllimindən, qul da ağa-
sından üstün deyil. 25Şagirdin öz mü-

---

a **10:3** *Tadday* – bəzi əlyazmalarda *Tadday ləqəbi verilən Lebbay.*

b **10:4** *Kənançı* – Romalılara qarşı müqəddəs müharibəyə hazırlaşan yəhudi millətçi təşkilatının üzvünə verilən ad.

c **10:15** *Qiyamət günü* – hərfi tərcümədə *mühakimə günü.*

**10:7-15** *Luka 10:4-12* **10:9-10** *Luka 10:4* **10:10** *1Kor. 9:14; 1Tim. 5:18* **10:14** *Həv. 13:51*
**10:15** *Yar. 19:24-28; Mat. 11:24* **10:16** *Luka 10:3* **10:19-20** *Luka 12:11-12*
**10:21** *Mark 13:12; Luka 21:16* **10:22** *Mat. 24:9,13* **10:24** *Luka 6:40; Yəh. 13:16; 15:20*
**10:25** *Mat. 9:34; 12:24; Mark 3:22; Luka 11:15*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 15



əllimi, qulun isə öz ağası kimi olması
ona kifayətdir. Əgər ev sahibinə Baal-
Zevul dedilərsə, onun ailə üzvlərinə
bundan nə qədər artıq deyəcəklər!

### *Kimdən qorxmalı*

*(Luka 12:2-9)*

26Beləliklə, onlardan qorxmayın.
Çünki elə örtülü bir şey yoxdur ki,
aşkara çıxmayacaq və elə gizli bir şey
yoxdur ki, bilinməyəcək. 27Sizə qaran-
lıqda dediklərimi gün işığında söyləyin
və qulağınıza pıçıldananı damlardan
bəyan edin. 28Bədəni öldürüb canı
öldürə bilməyənlərdən qorxmayın.
Həm canı, həm bədəni cəhənnəmdə
məhv edə bilən Allahdan qorxun. 29İki
sərçə bir qara pula satılmırmı? On-
lardan biri belə, Atanızın izni olmadan
yerə düşməz. 30Sizin başınızdakı saçlar
belə, sayılıb. 31Ona görə də qorx-
mayın, siz saysız-hesabsız sərçədən
daha dəyərlisiniz.

32İnsanlar qarşısında Məni iqrar
edən hər kəsi Mən də göylərdə olan
Atamın qarşısında iqrar edəcəyəm.
33Amma kim insanlar qarşısında Məni
inkar etsə, Mən də onu göylərdə olan
Atamın qarşısında inkar edəcəyəm.

### *İsaya layiq olmaq*

*(Luka 12:51-53; 14:26-27)*

34Düşünməyin ki, yer üzünə sülh
gətirməyə gəlmişəm. Mən sülh deyil,
qılınc gətirməyə gəlmişəm. 35Çünki
Mən oğulu atasından, qızı anasından,
gəlini də qayınanasından ayırmağa
gəlmişəm.

36“İnsanın düşməni öz ev əhli
olacaq”.

37Atasını ya anasını Məndən artıq
sevən kəs Mənə layiq deyil. Oğlunu ya
qızını Məndən artıq sevən də Mənə
layiq deyil. 38Çarmıxını götürüb ar-
dımca gəlməyən kəs də Mənə layiq
deyil. 39Canını qoruyan kəs onu itirə-
cək, Mənim uğrumda canını itirənsə
onu qoruyacaq.

40Sizi qəbul edən kəs Məni qəbul
edər. Məni qəbul edən də Məni
Göndərəni qəbul edər. 41Peyğəmbəri
peyğəmbər olduğu üçün qəbul edən
kəs peyğəmbərə layiq bir mükafat
alacaq. Salehi saleh olduğu üçün qəbul
edən də salehə layiq bir mükafat
alacaq. 42Kim bu kiçiklərdən birinə
şagird olduğu üçün hətta bir kasa
soyuq su içirdərsə, sizə doğrusunu
deyirəm: mükafatsız qalmayacaq».

### *İsa Məsih və Vəftizçi Yəhya*

*(Luka 7:18-35)*

11 1İsa On İki şagirdinə nəsihət
verib qurtarandan sonra öyrə-
dərək vəz etmək üçün onların şəhərlə-
rinə getdi.

2Yəhya isə Məsihin işlərini zindan-
da eşidərək öz şagirdlərini[a] göndərib
3Ondan soruşdu: «Gəlməli Olan Sən-
sənmi, yoxsa başqasını gözləyək?» 4İsa
onlara belə cavab verdi: «Gedin,
eşidib gördüklərinizi Yəhyaya bildirin:
5korlar görür, axsaqlar yeriyir, cüzam-
lılar pak olur, karlar eşidir, ölülər
dirilir və yoxsullara Müjdə yayılır.
6Kim Mənə görə büdrəməsə, nə bəx-
tiyardır!»

7Onlar gedərkən İsa camaata Yəh-
ya haqqında danışmağa başladı: «Çölə
nəyə baxmağa getmişdiniz? Küləyin

a **11:2** *Şagirdlərini* – bəzi əlyazmalarda *şagirdlərindən ikisini* (Luka 7:18).

**10:26** *Mark 4:22; Luka 8:17* **10:33** *2Tim. 2:12* **10:35-36** *Mik. 7:6* **10:38** *Mat. 16:24; Mark 8:34;*
**10:38** *Luka 9:23* **10:39** *Mat. 16:25; Mark 8:35; Luka 9:24; 17:33; Yəh. 12:25*
**10:40** *Mark 9:36-37; Luka 9:47-48; 10:16; Yəh. 13:20* **10:42** *Mark 9:41* **11:5** *Yeş. 35:5-6; 61:1-3*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 16



sarsıtdığı qamışamı? **8**Bəs onda nəyə
baxmağa getmişdiniz? Nəfis toxunmuş
paltar geymiş bir adamamı? Amma
nəfis toxunmuş paltar geyənlər pad-
şahların saraylarında qalır. **9**Bəs onda
nəyə baxmağa getmişdiniz? Bir pey-
ğəmbərəmi? Bəli, sizə deyirəm, hətta
peyğəmbərdən də üstün birinə. **10**Bu o
adamdır ki, onun haqqında yazılıb:

“Budur, Sənin önündə Öz elçimi
göndərirəm,
O Sənin qabağında yolunu
hazırlayacaq”.

**11**Sizə doğrusunu deyirəm: qadından
doğulanlar arasında Vəftizçi Yəhya-
dan daha üstün olan meydana çıx-
mayıb. Amma Səmavi Padşahlıqda ən
kiçik olan ondan üstündür. **12**Vəftizçi
Yəhyanın günlərindən indiyə qədər
Səmavi Padşahlıq zorla alınır və zor
işlədənlər onu ələ keçirir. **13**Çünki
bütün Peyğəmbərlər və Qanun Yəh-
yaya qədər peyğəmbərlik etdi. **14**Əgər
onu qəbul etmək istəyirsinizsə, gəlməli
olan İlyas odur. **15**Qulağı olan eşitsin!

**16-17**Bəs bu nəsli nəyə bənzədim? O,
bazar meydanlarında oturan və

“Biz sizə tütək çaldıq, sizsə
oynamadınız.
Biz mərsiyələr oxuduq, sizsə
matəm tutmadınız”

deyib başqalarını səsləyən uşaqlara
bənzəyir. **18**Çünki Yəhya gəldikdə nə
çörək yeyir, nə şərab içirdi və onlar
deyirlər: “O, cinə tutulmuşdur”. **19**Bə-
şər Oğlu gəldikdə yeyib-içdi və onlar
deyirlər: “Bu qarınqulu və əyyaş ada-
ma baxın! Vergiyığanlara və günah-
karlara dost oldu!” Amma hikmət öz
əməlləri ilə[a] təsdiq olunur».

### *Tövbə etməyən şəhərlər*

*(Luka 10:13-15)*

**20**Onda İsa bir çox möcüzələr gös-
tərdiyi şəhərləri tövbə etmədikləri üçün
məzəmmət etməyə başladı. **21**«Vay
halına, ey Korazin! Vay halına, ey
Bet-Sayda! Sizdə baş vermiş möcüzələr
Sur və Sidonda olsaydı, onlar çoxdan
çul geyinib külün üstündə oturaraq
tövbə edərdilər. **22**Amma sizə deyirəm:
qiyamət günü[b] Sur və Sidonun halı
sizinkindən daha asan olacaq. **23**Sən,
ey Kefernahum, göyə qədər ucalacaq-
sanmı? Ölülər diyarına qədər enəcək-
sən. Çünki səndə baş vermiş möcüzələr
Sodomda olsaydı, o bu günə qədər
durardı. **24**Ancaq Mən sizə deyirəm:
qiyamət günü[4] Sodom diyarının halı
səninkindən daha asan olacaq».

### *Yorğunlara Müjdə*

*(Luka 10:21-22)*

**25**O vaxt İsa davam edərək dedi:
«Ey yerin-göyün Sahibi olan Ata!
Səndən razıyam ki, bu şeyləri müdrik
və dərrakəli adamlardan gizlədib
körpələrə agah etdin. **26**Bəli, Ata!
Çünki bu Sənin xoş niyyətin idi.
**27**Atam tərəfindən hər şey Mənim
ixtiyarıma verildi. Oğulu Atadan baş-
qa heç kəs tanımaz. Atanı da Oğuldan
və Oğulun agah etmək istədiyi şəxsdən
başqa heç kəs tanımaz.

**28**Ey bütün yorğunlar və yükləri
ağır olanlar, Mənim yanıma gəlin,
Mən sizə rahatlıq verərəm. **29**Mənim
boyunduruğumu üzərinizə götürün və

---

a **11:19** *Əməlləri ilə* – bəzi əlyazmalarda *övladları tərəfindən* (Luka 7:35).
b **11:22,24** *Qiyamət günü* – hərfi tərcümədə *mühakimə günü.*
**11:10** *Mal. 3:1* **11:12-13** *Luka 16:16* **11:14** *Mal. 4:5; Mat. 17:10-13; Mark 9:11-13*
**11:20-21** *Yeş. 23:1-18; Yez. 26:1-28:26; Yoel 3:4-8; Amos 1:9-10; Zək. 9:2-4*
**11:23** *Yar. 19:24-28; Yeş. 14:13-15* **11:24** *Mat. 10:15; Luka 10:12* **11:27** *Yəh. 1:18; 3:35; 10:15*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 17



Məndən öyrənin. Çünki Mən həlim və
qəlbən itaətkaram. Bununla canınıza
rahatlıq taparsınız. 30Çünki mənim
boyunduruğum rahat və yüküm yün-
güldür».

### *Şənbə günü haqqında təlim*

*(Mark 2:23-28; Luka 6:1-5)*

12 1O vaxtlar İsa bir Şənbə günü
taxıl zəmiləri arasından keçirdi.
Şagirdləri ac idi və sünbülləri qırıb
yeməyə başladılar. 2Fariseylər bunu
görüb Ona dedilər: «Budur, şagirdlə-
rin Şənbə günü qadağan olunan işləri
görürlər». 3İsa onlara dedi: «Davud və
yanındakılar ac olanda nə etdiklərini
oxumamısınızmı? 4O, Allahın evinə
girdi; ona və yanındakılara deyil,
yalnız kahinlərə yeməyə icazə verilən
təqdis çörəklərini yedilər. 5Eləcə də
Qanunda oxumamısınız ki, kahinlər
məbəddə Şənbəni pozurlar, lakin
təqsirsiz sayılırlar? 6Amma sizə deyi-
rəm ki, məbəddən daha üstün Olan
buradadır. 7Əgər siz "Mən qurban
deyil, mərhəmət istəyirəm" sözünün
mənasını bilsəydiniz, təqsirsizləri məh-
kum etməzdiniz. 8Ona görə ki Bəşər
Oğlu Şənbə gününün Sahibidir».

### *Əli qurumuş adamın şəfası*

*(Mark 3:1-6; Luka 6:6-11)*

9İsa oradan ayrılıb onların sinaqo-
quna girdi. 10Budur, orada əli quru-
muş bir adam var idi. Bəzi adamlar
İsanı ittiham etmək məqsədi ilə «Şən-
bə günü şəfa verməyə icazə varmı?»
deyə soruşdular. 11İsa onlara belə
cavab verdi: «Hansınızın bir qoyunu
olarsa və qoyun Şənbə günü çuxura
düşərsə, onu tutub çıxartmaz? 12İnsan
qoyundan nə qədər dəyərlidir! Belə-
liklə, Şənbə günü xeyirxah iş görməyə
icazə var». 13Sonra İsa adama dedi:
«Əlini uzat!» O, əlini uzatdı və əli
əvvəlki halına qayıdıb o biri əli kimi
sağlam oldu. 14Fariseylər çıxıb İsanı
necə məhv etmək barədə məsləhətləş-
dilər.

### *Allahın seçdiyi Qul*

15İsa bunu bilib oradan uzaqlaşdı.
Böyük bir izdiham Onun ardınca getdi
və İsa onların hamısına şəfa verdi.
16Amma onlara qadağan etdi ki,
Onun kim olduğunu deməsinlər. 17Bu,
Yeşaya peyğəmbər vasitəsilə söylənən
həmin söz yerinə yetsin deyə baş verdi:
18«Budur, Mənim seçdiyim Qulum!
Mənə sevimlidir, könlüm Ondan
razıdır.
Mən Öz Ruhumu Onun üzərinə
qoyacağam.
O, millətlərə ədalət elan edəcək.
19O nə mübahisə, nə də fəryad
edəcək.
Küçələrdə heç kim Onun səsini
eşitməyəcək.
20Ədaləti zəfərə çatdırana qədər
Əzilmiş qamışı qırmayacaq,
Tüstülənən piltəni söndürməyəcək.
21Millətlər Onun adına ümid
bağlayacaq».

### *İsa və Baal-Zevul*

*(Mark 3:20-30; Luka 6:43-45; 11:14-23)*

22Ondan sonra İsanın yanına cinə
tutulmuş kor və lal bir adamı gətir-
dilər. İsa ona şəfa verdi. Beləcə o da-
nışmağa və görməyə başladı. 23Bütün
xalq «Bu, Davudun Oğlu deyilmi?»
deyə mat qaldı. 24Lakin fariseylər

---

**11:29** *Yer. 6:16* **12:1** *Qanun. 23:25* **12:3-4** *Lev. 24:9; 1Şam. 21:1-6* **12:7** *Huşə 6:6; Mat. 9:13*
**12:11** *Luka 14:5* **12:17-21** *Yeş. 42:1-4*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 18



bunu eşitdikdə dedilər: «Bu Adam ancaq cinlərin başçısı Baal-Zevulun gücü ilə cinləri qovur».

25Fariseylərin nə düşündüklərini bilən İsa onlara dedi: «Öz daxilindən bölünmüş hər padşahlıq viran qalar və öz daxilindən bölünmüş hər şəhər yaxud ev davam gətirməz. 26Əgər Şeytan Şeytanı qovarsa, özü daxilindən bölünmüş olur. Bu vəziyyətdə onun padşahlığı necə davam gətirər? 27Əgər Mən cinləri Baal-Zevulun gücü ilə qovuramsa, bəs sizin adamlarınız kimin gücü ilə qovur? Buna görə də onlar sizin hakimləriniz olacaq. 28Lakin Mən cinləri Allahın Ruhu ilə qovuramsa, deməli, Allahın Padşahlığı üzərinizə gəlib. 29Bir kimsə güclü adamın evinə girib əvvəlcə onun əl-qolunu bağlamadan onun malını necə qarət edə bilər? Gərək o adamın əvvəlcə əl-qolunu bağlasın, sonra evini qarət etsin. 30Mənimlə olmayan Mənə qarşıdır və Mənimlə yığmayan dağıdır.

31Buna görə sizə deyirəm: hər bir günah və hər bir küfr insanlara bağışlanacaq; amma Ruha qarşı küfr bağışlanmayacaq. 32Kim Bəşər Oğluna qarşı söz söyləyərsə, bağışlanacaq; amma kim Müqəddəs Ruha qarşı söyləyərsə, nə bu dövrdə bağışlanacaq, nə də gələcək dövrdə.

33Ya ağaca yaxşı, bəhrəsinə də yaxşı deyin yaxud ağaca pis, bəhrəsinə də pis deyin; çünki ağac bəhrəsindən tanınır. 34Ey gürzələr nəsli, siz pis olduğunuz halda necə yaxşı şeylər söyləyə bilərsiniz? Çünki ürək doluluğundan ağız danışar. 35Yaxşı adam yaxşılıq xəzinəsindən yaxşı şeylər çıxarır, pis adam isə pislik xəzinəsindən pis şeylər çıxarır. 36Mən sizə deyirəm: insanlar söylədikləri hər boş söz üçün qiyamət günü[a] hesab verəcəklər. 37Çünki öz sözlərinə görə haqq qazanacaqsan və öz sözlərinə görə məhkum olunacaqsan».

### *Yunus peyğəmbərin əlaməti*

*(Mat. 16:1-4; Mark 8:11-12;*
*Luka 11:24-26; 29-32)*

38O zaman bəzi ilahiyyatçılar və fariseylər İsaya dedilər: «Müəllim, Səndən bir əlamət görmək istəyirik». 39İsa onlara belə cavab verdi: «Pis və vəfasız nəsil bir əlamət axtarır. Amma ona Yunus peyğəmbərin əlamətindən başqa heç bir əlamət verilməyəcək. 40Çünki Yunus üç gün-üç gecə nəhəng balığın qarnında necə qalmışdısa, Bəşər Oğlu da üç gün-üç gecə yerin bağrında elə qalacaq. 41Nineva xalqı qiyamət günündə[b] bu nəsillə birgə qalxıb onu məhkum edəcək. Çünki onlar Yunusun vəzinə görə tövbə etmişdilər. Budur, Yunusdan daha böyük Olan buradadır. 42Cənub məlıkəsi[c] qiyamət günündə[d] bu nəsillə birgə qalxıb onu məhkum edəcək. Çünki məlikə Süleymanın hikmətli sözlərini dinləmək üçün yer üzünün ucqarlarından gəlmişdi. Budur, Süleymandan daha böyük Olan buradadır.

a **12:36** *Qiyamət günü* – hərfi tərcümədə *mühakimə günü.*
b **12:41** *Qiyamət günündə* – hərfi tərcümədə *mühakimədə.*
c **12:42** *Cənub məlıkəsi* – yəni Süleymanın yanına gələn Səba məlıkəsi.
d **12:42** *Qiyamət günündə* – hərfi tərcümədə *mühakimədə.*
**12:24** *Mat. 9:34; 10:25* **12:30** *Mark 9:40* **12:31-32** *Luka 12:10* **12:33** *Mat. 7:20*
**12:34** *Mat. 3:7; 15:18; 23:33; Luka 3:7* **12:38** *Luka 11:16* **12:40** *Yun. 1:17* **12:41** *Yun. 3:5*
**12:42** *1Pad. 10:1-13; 2Saln. 9:1-12*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 19



43 Natəmiz ruh adamdan çıxdıqdan
sonra quraq yerlərdə dolaşar, rahatlıq
axtarar, lakin tapmaz. 44 O zaman de-
yər: "Çıxdığım evə dönüm". Evə qayı-
danda onu boş, süpürülmüş və səliqə-
sahman içində görər. 45 Bu vaxt o
gedib özündən daha betər yeddi başqa
ruhu özü ilə götürər. Onlar da oraya
girib məskunlaşar. Onda bu adamın
axırı əvvəlkindən daha pis olar. Bu pis
nəslin də başına belə iş gələcək».

### *İsanın anası və qardaşları kimdir?*

*(Mark 3:31-35; Luka 8:19-21)*

46 İsa camaatla söhbət edəndə anası
və qardaşları bayırda durub Onunla
danışmaq istəyirdilər. 47 Bir nəfər İsa-
ya dedi: «Budur, anan və qardaşların
bayırda dayanıb Səninlə danışmaq
istəyirlər». 48 Amma İsa bu sözü söylə-
yənə cavab verib dedi: «Mənim anam
və qardaşlarım kimlərdir?» 49 Əlini şa-
girdlərinə doğru uzadaraq dedi: «Mə-
nim anam və qardaşlarım bunlardır.
50 Çünki kim göylərdə olan Atamın
iradəsini yerinə yetirirsə, Mənim qar-
daşım, bacım və anam odur».

### *Səpilən toxum məsəli*

*(Mark 4:1-20; Luka 8:4-15)*

13 1 O gün İsa evdən çıxdı və gedib
göl kənarında oturdu. 2 Yanına
elə böyük izdiham toplaşdı ki, Özü bir
qayığa minib oturdu və bütün izdiham
sahildə durdu. 3 İsa onlara məsəllərlə
bir çox şey öyrədərək dedi: «Bir əkinçi
toxum səpməyə çıxdı. 4 Səpin zamanı
toxumlardan bəzisi yol kənarına
düşdü və quşlar gəlib onları dənlədi.
5 Bəzisi torpağı çox olmayan daş-
kəsəkli yerlərə düşdü. Torpağı dərin
olmadığına görə tez cücərdilər. 6 Lakin
günəş doğanda qarsalandılar və kök-
ləri olmadığına görə qurudular. 7 Bə-
zisi tikanlar arasına düşdü. Tikanlar
böyüyüb onları boğdu. 8 Başqaları isə
münbit torpağa düşdü. Bəzisi yüz,
bəzisi altmış, bəzisi otuz qat səmərə
verdi. 9 Qulağı olan eşitsin!»

10 Şagirdlər İsaya yaxınlaşıb dedilər:
«Nə üçün onlara məsəllərlə danışır-
san?» 11 O isə onlara belə cavab verdi:
«Səmavi Padşahlığın sirlərini bilmə
qabiliyyəti sizə verilmişdir, lakin
onlara verilməmişdir. 12 Çünki kimin
varıdırsa, ona daha çox veriləcək və o,
bolluq içində olacaq. Amma kimin
yoxudursa, əlində olan da ondan
alınacaq. 13 Mənim onlarla məsəllərlə
danışmağımın məqsədi budur ki,
"gördükləri halda görməzlər, eşitdik-
ləri halda eşitməzlər və anlamazlar".
14 Yeşaya peyğəmbərin onlar üçün de-
diyi bu sözlər yerinə yetir:

"Eşitdikcə eşidəcəksiniz, amma
anlamayacaqsınız,
Gördükcə görəcəksiniz, amma
qanmayacaqsınız.
15 Çünki bu xalqın ürəyi kütləşdi,
Qulaqları ağır eşitdi,
Gözlərini yumdular ki,
Gözləri ilə görməsinlər,
Qulaqları ilə eşitməsinlər,
Ürəkləri ilə anlamasınlar
Və Mənə sarı dönməsinlər ki,
Mən onlara şəfa verim".

16 Amma sizin gözləriniz nə bəxtiyar-
dır, çünki görürlər və qulaqlarınız nə
bəxtiyardır, çünki eşidirlər! 17 Sizə doğ-
rusunu deyirəm: bir çox peyğəmbərlər
və saleh adamlar sizin gördüklərinizi
görməyi arzuladılar, amma görmədi-

---

**13:2** *Luka 5:1-3* **13:12** *Mat. 25:29; Mark 4:25; Luka 8:18; 19:26* **13:13-15** *Yeş. 6:9-10;*
**13:13-15** *Yəh. 12:39-40; Həv. 28:26-27* **13:16-17** *Luka 10:23-24*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 20



lər, eşitdiklərinizi eşitməyi arzuladılar,
amma eşitmədilər.

18İndi əkinçi barədə məsəlin izahını
dinləyin: 19kim Səmavi Padşahlıqla
bağlı kəlamı eşidib anlamırsa, şər olan
gəlib onun ürəyində səpilmiş olanı
oğurlayır. Yol kənarına səpilən toxum
budur. 20Daş-kəsəkli yerlərə səpilən
isə kəlamı eşidir və dərhal sevinclə
qəbul edir. 21Lakin onda kök olma-
dığına görə dözümü az olur, kəlama
görə əziyyət və təqibə məruz qalan
kimi yıxılır. 22Tikanlar arasına səpilən
odur ki, kəlamı eşidir, lakin bu
dövrün qayğıları və var-dövlətin
aldadıcılığı kəlamı boğur və kəlam
barsız olur. 23Münbit torpağa
səpilənsə odur ki, kəlamı eşidir,
anlayır və doğrudan da, səmərə –
bəzisi yüz, bəzisi altmış, bəzisi otuz
qat səmərə verir».

### *Dəlicə və buğda məsəli*

24İsa onlara başqa bir məsəl də
çəkdi: «Səmavi Padşahlıq tarlasına
yaxşı toxum səpmiş bir adama bənzə-
yir. 25Adamlar yatanda onun düşməni
gəlib buğdaların arasına dəlicə səpib
getdi. 26Buğda böyüyüb bəhrə verəndə
dəlicələr də göründü. 27Ev sahibinin
qulları gəlib ona belə dedilər: "Ağa,
sən tarlana yaxşı toxum səpmədinmi?
Bəs bu dəlicə haradan əmələ gəldi?"
28O isə qullara dedi: "Bunu düşmən
etmişdir". Qullar da ona dedilər:
"İstəyirsənmi gedib onları çıxaraq?"
29O dedi: "Yox, çünki dəlicələri çıxa-
rarkən onlarla birgə buğdanı da
qopararsınız. 30Qoy biçinə qədər hər
ikisi birlikdə böyüsün. Biçin vaxtı mən
biçinçilərə deyəcəyəm: ‹Əvvəlcə dəli-
cələri toplayın və yandırmaq üçün
onlardan dərz bağlayın, buğdanı isə
anbarlarıma toplayın›"».

### *Xardal toxumu və maya məsəlləri*

*(Mark 4:30-34; Luka 13:18-21)*

31İsa onlara başqa bir məsəl də
danışaraq dedi: «Səmavi Padşahlıq bir
adamın götürüb öz tarlasında səpdiyi
xardal toxumuna bənzəyir. 32Xardal
toxumu bütün toxumların ən kiçiyi
olsa da, böyüdükdə bütün bostan
bitkilərindən hündür, lap ağac boyda
olur. Belə ki göydə uçan quşlar gəlib
onun budaqlarında yuva qurur».

33İsa onlara başqa bir məsəl də söy-
lədi: «Səmavi Padşahlıq xəmir maya-
sına bənzəyir. Qadın onu götürüb üç
kisə[a] una qarışdırıb bütün xəmir acı-
yanadək saxlayır».

34İsa bütün bu şeyləri xalqa məsəl-
lərlə söyləyirdi və onlara məsəlsiz heç
bir şey söyləməzdi ki, 35peyğəmbər
vasitəsilə söylənən bu söz yerinə yetsin:

«Ağzımı məsəllərlə açacağam,
Dünya yaranandan bəri
Gizli qalan şeyləri bəyan
edəcəyəm».

### *Dəlicə və buğda məsəlinin izahı*

36O zaman İsa xalqdan ayrılıb evə
girdi. Şagirdləri Onun yanına gəlib
dedilər: «Tarladakı dəlicələr məsəlini
bizə izah et». 37Cavabında İsa dedi:
«Yaxşı toxumu səpən Bəşər Oğludur.
38Tarla isə dünyadır. Yaxşı toxum
Padşahlığın övladlarıdır. Dəlicə isə şər
olanın övladlarıdır. 39Dəlicələri səp-
miş olan düşmən iblisdir. Biçin dövrün
sonudur və biçinçilər isə mələklərdir.
40Dəlicələr toplanıb alovla yandırıl-

---

a **13:33** *Kisə* – yunan dilində *saton*, təqribən 37 litr.
**13:35** *Zəb. 78:2*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 21



dığı kimi bu dövrün sonunda da belə olacaq. 41Bəşər Oğlu mələklərini göndərəcək, onlar da pis yola çəkən bütün şeyləri və qanunsuzluq edənləri Onun Padşahlığından toplayacaq 42və onları odlu sobaya atacaqlar. Orada ağlaşma və diş qıcırtısı olacaq. 43O zaman salehlər özlərinin Atasının Padşahlığında günəş kimi parlayacaqlar. Qulağı olan eşitsin!

### *Dəfinə və mirvari məsəlləri*

44Səmavi Padşahlıq tarlada gizlədilən bir dəfinəyə bənzəyir. Tapan adam onu gizlətdi, sevinclə gedib bütün varını satdı və o tarlanı satın aldı.

45Yenə Səmavi Padşahlıq gözəl mirvarilər axtaran bir tacirə bənzəyir. 46O, çox dəyərli olan bir mirvari tapanda gedib bütün varını satdı və onu satın aldı.

### *Tor məsəli*

47Yenə Səmavi Padşahlıq dənizə atılan və hər cür balıq tutan bir tora bənzəyir. 48Tor dolduğu zaman onu sahilə çəkdilər və oturub yaxşılarını qablara yığdılar, pisləri isə kənara atdılar. 49Bu dövrün sonunda da belə olacaq. Mələklər gəlib pisləri salehlərin arasından kənar edəcəklər. 50Sonra onları odlu sobaya atacaqlar. Orada ağlaşma və diş qıcırtısı olacaq».

51İsa «Bütün bunları anladınızmı?» deyə soruşdu. Onlar İsaya «bəli, ya Rəbb» dedilər. 52İsa da onlara dedi: «Ona görə də Səmavi Padşahlıq üçün şagirdlik etmiş hər ilahiyyatçı xəzinəsindən təzə və köhnə şeylər çıxaran ev sahibinə bənzəyir».

### *İsa Öz yurdunda rədd edilir*

*(Mark 6:1-6; Luka 4:16-30)*

53İsa bu məsəlləri bitirəndən sonra oradan ayrıldı. 54Öz doğma yurduna gələrək oradakı sinaqoqda xalqı öyrətməyə başladı. Camaat təəccüblənərək dedi: «Bu Adamda belə hikmət, belə möcüzələr yaradan qüvvə haradandır? 55Bu, dülgərin Oğlu deyilmi? Anasının adı Məryəm deyilmi? Yaqub, Yusif, Şimon və Yəhuda Onun qardaşları deyilmi? 56Bütün bacıları aramızda yaşamırmı? Bəs onda bu Adama bütün bu şeylər haradandır?» 57Onların İsaya acığı tutdu. Amma İsa onlara dedi: «Bir peyğəmbərə öz yurdundan və öz evindən başqa heç bir yerdə xor baxmazlar». 58İsa onların imansızlığı üzündən orada çox möcüzə yaratmadı.

### *Yəhyanın edamı*

*(Mark 6:14-29; Luka 9:7-9)*

14 1O vaxt İsa barədə olan xəbərləri hökmdar Hirod eşitdi. 2Nökərlərinə dedi: «Bu, Vəftizçi Yəhyadır. O, ölülər arasından dirilib. Buna görə də O, möcüzələr yaradır».

3Hirod qardaşı Filipin arvadı Hirodiyaya görə Yəhyanı tutduraraq qollarını qandalladıb zindana saldırmışdı. 4Çünki Yəhya Hiroda demişdi: «Hirodiyanı almaq sənə qadağandır». 5Hirod Yəhyanı öldürmək istəyirdi, amma camaatdan qorxurdu. Çünki camaat Yəhyanı peyğəmbər sayırdı.

6Hirodun ad günü qeyd ediləndə Hirodiyanın qızı ortaya çıxıb rəqs etməyə başladı. Bu, Hirodun xoşuna

---

**13:57** *Yəh. 4:44* **14:1-2** *Mat. 16:13-14; Mark 6:14-15; Luka 9:7-8* **14:3-4** *Luka 3:19-20*
**14:4** *Lev. 18:16; 20:21*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 22



gəldi. 7O and içib bəyan etdi ki, qız nə
istəsə, ona verəcək. 8Qız isə anasının
təhriki ilə dedi: «Vəftizçi Yəhyanın
başını burada bir sini içində mənə
ver». 9Padşahı kədər bürüdü, amma
içdiyi andlara və qonaqlara görə əmr
etdi ki, ona istədiyini versinlər.
10Beləliklə, zindanda Yəhyanın boy-
nunu vurdurdu. 11Onun başı bir sini
içində gətirilib qıza verildi. Qız da
anasına apardı. 12Yəhyanın şagirdləri
gəlib onun cəsədini götürdülər. Onu
basdırdılar və gəlib İsaya bu barədə
xəbər verdilər.

### *İsa beş min nəfəri doydurur*

*(Mark 6:30-44; Luka 9:10-17; Yəh. 6:1-14)*

13İsa bunu eşidib qayığa minərək
təkbaşına oradan kimsəsiz bir yerə
çəkildi. Bunu eşidən camaat şəhərlər-
dən piyada Onun ardınca getdi. 14İsa
sahilə düşəndə böyük bir izdiham
gördü, onlara rəhmi gəldi və xəstələ-
rinə şəfa verdi.

15Axşama yaxın şagirdlər Onun
yanına gəlib dedilər: «Bura çöllükdür,
vaxt da gecdir. Camaatı burax, qoy
gedib kəndlərdən özlərinə yemək
alsın». 16Amma İsa onlara dedi:
«Getməklərinə ehtiyac yoxdur. Onlara
yeməyi siz verin». 17Şagirdlər İsaya
dedilər: «Burada beş çörək və iki
balıqdan başqa bir şeyimiz yoxdur».
18İsa «onları buraya, Mənə gətirin»
dedi. 19Camaata əmr etdi ki, otların
üstündə otursunlar. İsa beş çörəyi və
iki balığı götürüb göyə baxaraq şükür
duası etdi. Sonra çörəyi bölüb şagird-
lərə verdi. Şagirdlər də camaata pay-
ladılar. 20Hamı yeyib-doydu. Artıq
qalan hissələrdən on iki dolu zənbil
yığdılar. 21Yemək yeyən adamların
sayı qadınlar və uşaqlardan başqa, beş
min nəfərə yaxın idi.

### *İsa suyun üstü ilə yeriyir*

*(Mark 6:45-53; Yəh. 6:15-21)*

22Bundan dərhal sonra İsa camaatı
evlərinə göndərərkən şagirdlərini də
məcbur etdi ki, qayığa minib Özündən
əvvəl o biri sahilə keçsinlər. 23İsa
camaatı göndərəndən sonra dua etmək
üçün tək-tənha dağa çıxdı. Axşam
olanda orada tək idi. 24Qayıq isə artıq
qurudan çox stadi uzaqda[a] idi və
külək onlara qarşı olduğundan
dalğalar qayığa zərbələr endirirdi.
25Gecənin dördüncü növbəsi[b] İsa gö-
lün üstü ilə yeriyərək onların yanına
gəldi. 26Şagirdlər isə İsanın gölün üstü
ilə yeridiyini görəndə «Bu bir
kabusdur!» deyərək lərzəyə düşdülər
və qorxudan qışqırdılar. 27Lakin bu
anda İsa onlara müraciət edib dedi:
«Cəsarətli olun, Mənəm, qorxmayın!»
28Peter cavabında Ona dedi: «Ya
Rəbb, əgər Sənsənsə, mənə əmr et ki,
suların üstü ilə yanına gəlim». 29İsa
«Gəl!» dedi. Peter də qayıqdan çıxıb
suların üstü ilə yeridi və İsaya tərəf
getdi. 30Amma küləyin güclü əsdiyini
görəndə qorxdu və batmağa başladı.
«Ya Rəbb, məni xilas et!» deyə
qışqırdı. 31İsa o anda əlini uzadıb onu
tutdu və dedi: «Ey imanı az olan
adam, nə üçün şübhə etdin?» 32Onlar
qayığa mindikləri zaman külək sa-
kitləşdi. 33Qayıqda olanlar «Doğru-
dan da, Sən Allahın Oğlusan!» deyə
Ona səcdə qıldılar.

---

a **14:24** *Qurudan çox stadi uzaqda* – bir stadi 200 metrə yaxındır; bəzi əlyazmalarda *gölün ortasında* (Mark 6:47).

b **14:25** *Gecənin dördüncü növbəsi* – hazırkı vaxtla səhər saat üç ilə altı arası.

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 23



### *İsa Ginesarda xəstələrə şəfa verir*

*(Mark 6:53-56)*

34 İsa və şagirdlər gölü keçib
Ginesar sahilinə çatdılar. 35 O yerin
adamları İsanı tanıdıqları zaman
ətrafdakı hər yerə xəbər yaydılar.
Bütün xəstələri Onun yanına gətir-
dilər. 36 Xəstələr heç olmasa İsanın
paltarının ətəyinə toxunmaq üçün
yalvarırdılar. Ona toxunanların hamı-
sı sağaldı.

### *İnsanı murdar edən nədir?*

*(Mark 7:1-23)*

**15** 1 Onda Yerusəlimdən fariseylər
və ilahiyyatçılar İsanın yanına
gəlib dedilər: 2 «Nə üçün şagirdlərin
ağsaqqallardan qalan adət-ənənəni
pozur və çörək yedikləri zaman əllərini
yumurlar?» 3 İsa cavabında onlara
dedi: «Bəs siz nə üçün öz adət-ənənəniz
naminə Allahın əmrini pozursunuz?
4 Çünki Allah belə əmr etdi: “Ata-
anana hörmət et” və “Atasını yaxud
anasını söyən adam öldürülməlidir”.
5 Sizsə deyirsiniz: “Kim atasına yaxud
anasına ‹məndən umduğun yardım
Allaha həsr olundu› desə, 6 onda ata-
sına[a] hörmət etməyə bilər”. Beləliklə,
siz öz adət-ənənəniz naminə Allahın
kəlamını heç edirsiniz. 7 Ey ikiüzlülər!
Yeşaya peyğəmbər sizin üçün nə yaxşı
söyləyib! O demişdir:

8 “Bu xalq dodaqları ilə Mənə
hörmət edir,
Amma qəlbləri Məndən uzaqdır.
9 Boş yerə Mənə səcdə edirlər,
İnsan əmrlərindən çıxardıqları
təlimləri öyrədirlər”».

10 İsa camaatı yanına çağırıb onlara
dedi: «Qulaq asın və dərk edin.
11 Ağıza daxil olan şey insanı murdar
etməz, amma insanı murdar edən ağız-
dan çıxan şeydir». 12 O zaman şa-
girdlər gəlib Ona dedilər: «Bilirsənmi
fariseylər bu sözü eşitdikdə incidilər».[b]
13 Amma İsa cavab verib dedi:
«Səmavi Atamın əkmədiyi hər bitki
kökündən qoparılacaq. 14 Onları bura-
xın. Onlar korların kor rəhbərləridir.
Əgər kor koru aparsa, ikisi də çuxura
düşər».

15 Peter Ona cavab verərək dedi:
«Bu məsəli bizə izah et». 16 İsa dedi:
«Siz də hələ dərk etməmisiniz? 17 Başa
düşmürsünüz ki, ağıza girən hər şey
qarına gedir və ifraz olunur? 18 Ağız-
dan çıxan şeylərsə ürəkdən çıxar,
bunlar da insanı murdar edər. 19 Çünki
ürəkdən pis fikirlər, qatillik, zinakar-
lıq, cinsi əxlaqsızlıq, oğurluq, yalançı
şahidlik və küfr çıxar. 20 İnsanı murdar
edən şeylər bunlardır. Yuyulmamış əl-
lərlə yemək isə insanı murdar etməz».

### *Kənanlı qadının imanı*

*(Mark 7:24-30)*

21 İsa oradan çıxıb Sur və Sidon
bölgələrinə çəkildi. 22 Budur, Kənanlı
bir qadın o diyardan çıxıb «ya Rəbb,
ey Davud Oğlu, mənə rəhm elə.
Qızım ağır bir halda cinə tutub» deyə
çığırırdı. 23 İsa cavabında ona bir söz
belə, demədi. Şagirdləri yaxınlaşıb
«onu burax, çünki arxamızca çığırır»
deyərək İsaya yalvardılar. 24 Amma
İsa cavab verib dedi: «Mən yalnız
İsrail xalqının itmiş qoyunlarının
yanına göndərilmişəm». 25 Qadınsa

---

a **15:6** *Atasına* – bəzi əlyazmalarda *ata-anasına.* b **15:12** *İncidilər* – hərfi tərcümədə *büdrədilər.*
**15:4** *Çıx. 20:12; 21:17; Lev. 20:9; Qanun. 5:16* **15:7-9** *Yeş. 29:13* **15:14** *Luka 6:39*
**15:18** *Mat. 12:34*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 24



yaxınlaşdı və Ona səcdə qılıb dedi:
«Ya Rəbb, mənə imdad et». **26**İsa
cavab verib dedi: «Uşaqların çörəyini
götürüb itlərə atmaq düzgün olmaz».
**27**Qadın dedi: «Haqlısan, ya Rəbb!
Amma itlər də sahiblərinin süfrə-
sindən düşən qırıntılardan yeyir». **28**O
zaman İsa cavab verib qadına dedi:
«Ey qadın! İmanın böyükdür; sənə
istədiyin kimi olsun». Onun qızı o
saatda sağaldı.

### *İsa dörd min nəfəri doydurur*

*(Mark 8:1-10)*

**29**İsa oradan çıxıb Qalileya gölünün
sahilindən keçdi və dağın başına çıxıb
orada oturdu. **30**Onun yanına böyük
bir izdiham gəldi və özləri ilə birlikdə
topallar, korlar, şikəstlər, lallar və
daha başqa bir çoxunu gətirdilər.
Onları İsanın ayaqları yanına qoydu-
lar və İsa onlara şəfa verdi. **31**Xalq
görəndə ki lallar danışır, şikəstlər
sağalır, topallar yeriyir və korlar
görür, heyrətləndi və İsrailin Allahını
izzətləndirdi.

**32**İsa şagirdlərini yanına çağırıb
dedi: «Bu camaata yazığım gəlir, çünki
üç gündür ki, yanımdadırlar və yeməyə
heç nələri yoxdur. Onları evlərinə ac
yola salmaq istəmirəm ki, yolda taqət-
dən düşməsinlər». **33**Şagirdlər Ona
dedilər: «Bu çöllükdə bu qədər cama-
atı doydurmaq üçün çörəyi haradan
tapaq?» **34**İsa onlardan soruşdu:
«Neçə çörəyiniz var?» Onlar dedilər:
«Yeddi və bir az da kiçik balığımız
var». **35**Onda İsa camaata əmr etdi ki,
yerə otursunlar. **36**Yeddi çörəklə balıq-
ları götürdü və şükür edərək bölüb
şagirdlərə, şagirdlər də camaata verdi.
**37**Hamı yeyib-doydu. Artıq qalan
hissələri yığdılar, yeddi səbət doldu.
**38**Yemək yeyən adamların sayı isə
qadınlar və uşaqlardan başqa, dörd
min nəfər idi. **39**İsa camaatı buraxıb
qayığa minərək Məcdəl bölgəsinə
getdi.

### *Fariseylərin və sadukeylərin mayası*

*(Mat. 12:38-39; Mark 8:11-21; Luka 12:54-56)*

# 16

**1**Fariseylər və sadukeylər ya-
xınlaşıb İsanı sınamaq üçün
xahiş etdilər ki, onlara göydən gələn
bir əlamət göstərsin. **2**Amma İsa on-
lara cavab verdi: «Axşam olanda siz
deyirsiniz: "Hava yaxşı olacaq, çünki
göy qırmızıdır", **3**səhər çağı "bu gün
fırtına qopacaq, çünki göy qırmızıdır,
tutqundur" deyirsiniz. Göyün[a] görü-
nüşünü seçə bilirsiniz, ancaq zamanın
əlamətlərini seçə bilmirsiniz? **4**Pis və
vəfasız nəsil bir əlamət axtarır. Amma
ona Yunusun əlamətindən başqa heç
bir əlamət verilməyəcək». İsa onları
tərk edib getdi.

**5**Şagirdlər o taya keçəndə çörək
götürməyi yaddan çıxarmışdılar. **6**İsa
onlara dedi: «Ehtiyatlı olun! Fari-
seylərin və sadukeylərin mayasından
özünüzü gözləyin». **7**Şagirdlər isə öz
aralarında danışıb deyirdilər: «Bunu
çörək götürmədiyimiz üçün deyir».
**8**İsa bunu bilərək dedi: «Ey imanı az
olanlar! Nə üçün çörəyinizin yoxlu-
ğundan danışırsınız? **9**Hələ dərk
etmirsinizmi? Beş min nəfər üçün beş
çörəyi və neçə zənbil yığdığınızı
xatırlamırsınızmı? **10**Dörd min nəfər
üçün yeddi çörəyi və neçə səbət

---

a **16:3** *Göyün* – bəzi əlyazmalarda *Ey ikiüzlülər, göyün.*

**16:1** *Luka 11:16* **16:4** *Luka 11:29* **16:6** *Luka 12:1* **16:9-10** *Mat. 14:17-21; 15:34-38*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 25



yığdığınızı da xatırlamırsınızmı? 11Necə anlaya bilmirsiniz ki, Mən sizinlə danışanda çörəyi nəzərdə tutmamışdım? Fariseylərin və sadukeylərin mayasından özünüzü gözləyin». 12O zaman onlar anladılar ki, İsa çörək mayasından yox, fariseylərin və sadukeylərin təlimindən qorunmağı nəzərdə tutmuşdu.

### *Peterin Məsihi tanıması*

*(Mark 8:27-30; Luka 9:18-21)*

13İsa Filip Qeysəriyyəsi bölgəsinə gəldiyi zaman Öz şagirdlərindən soruşdu: «Adamların dediyinə görə Bəşər Oğlu kimdir?» 14Onlar da dedilər: «Bəziləri Vəftizçi Yəhya, başqaları İlyas, digərləri isə deyirlər ki, Yeremya yaxud peyğəmbərlərdən biridir». 15İsa onlara dedi: «Bəs siz nə deyirsiniz? Sizcə Mən kiməm?» 16Şimon Peter cavab verdi: «Sən var olan Allahın Oğlu Məsihsən». 17İsa ona cavab verib dedi: «Nə bəxtiyarsan, ey Yunus oğlu Şimon! Çünki bunu sənə bildirən ət və qan[a] deyil, göylərdə olan Atamdır. 18Mən sənə deyirəm ki, sən Petersən[b] və Mən cəmiyyətimi bu Qayanın[c] üzərində quracağam. Ölülər diyarının qapıları ona qalib gələ bilməyəcək. 19Səmavi Padşahlığın açarlarını sənə verəcəyəm. Yer üzündə bağlayacağın hər şey göylərdə bağlanmış olacaq və yer üzündə açacağın hər şey göylərdə açılmış olacaq». 20Bu sözlərdən sonra İsa şagirdlərə qadağan etdi ki, Onun Məsih olduğunu heç kəsə danışmasınlar.

### *İsa ölüb-diriləcəyi barədə əvvəlcədən xəbər verir*

*(Mark 8:31-9:1; Luka 9:22-27)*

21Bundan sonra İsa şagirdlərinə danışmağa başladı ki, Özü Yerusəlimə getməli, ağsaqqallar, başçı kahinlər və ilahiyyatçılar tərəfindən çox əzab çəkməli, öldürülməli və üçüncü gün dirilməlidir. 22Peter Onu bir kənara çəkib etiraz etməyə başladı: «Ya Rəbb, Özünə yazığın gəlsin! Bu əsla Sənin başına gəlməyəcək!» 23Amma İsa dönüb Peterə dedi: «Çəkil qarşımdan, Şeytan! Sən Mənə mane olursan. Sən Allahın işləri haqqında deyil, insan əməlləri barəsində fikirləşirsən».

24Sonra İsa şagirdlərinə dedi: «Əgər bir kəs Mənim ardımca gəlmək istəyirsə, özündən imtina etsin və çarmıxını götürüb ardımca gəlsin. 25Kim canını xilas etmək istəyirsə, onu itirəcək, amma kim Mənə görə canını itirirsə, onu qoruyacaq. 26İnsan bütün dünyanı qazanıb canını itirərsə, ona nə xeyri var? Yaxud insan öz canının əvəzinə nə verə bilər? 27Çünki Bəşər Oğlu Atasının izzəti içində Öz mələkləri ilə gələcək və o zaman hər kəsə öz əməlinə görə əvəzini verəcək. 28Sizə doğrusunu deyirəm: burada duranlardan bəzisi Bəşər Oğlunun Padşahlığı ilə gəldiyini görmədən ölməyəcək».

---

a **16:17** *Ət və qan* – yəni insan.

b **16:18** *Peter* – yunan mətnində *Petros* sözü olub *daş* deməkdir.

c **16:18** *Qaya* – Xilaskar Rəbbin bir rəmzidir. Bax: Qanun. 32:4; 2Şam. 22:47; Zəb. 89:26; Yeş. 26:4; 1Kor. 10:4.

**16:14** *Mat. 14:1-2; Mark 6:14-15; Luka 9:7-8* **16:16** *Yəh. 6:68-69* **16:19** *Mat. 18:18; Yəh. 20:23*
**16:21** *Mat. 17:22-23; 20:19; 27:62-63* **16:24** *Mat. 10:38; Luka 14:27*
**16:25** *Mat. 10:39; Luka 17:33; Yəh. 12:25* **16:27** *Zəb. 62:12; Mat. 25:31; Rom. 2:6; Vəhy 2:23*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 26



### *İsanın görünüşü dəyişir*

*(Mark 9:2-13; Luka 9:28-36)*

17 1Altı gündən sonra İsa Özü ilə
yalnız Peter, Yaqub və qardaşı
Yəhyanı götürüb hündür bir dağa
çıxdı. 2Onların qarşısında görünüşü
dəyişdi. Üzü günəş kimi parladı və
libası işıq kimi ağ oldu. 3O an Musa və
İlyas onlara göründü. Onlar İsa ilə
söhbət edirdi. 4Peter sözə başlayıb
İsaya dedi: «Ya Rəbb! Nə yaxşı ki biz
buradayıq. Əgər istəyirsənsə, burada
üç çardaq qurum – biri Sənin, biri
Musa, biri də İlyas üçün». 5Peter hələ
danışan zaman parlaq bir bulud
onların üzərinə kölgə saldı. Budur,
buluddan bir səs gəldi: «Bu Mənim
sevimli Oğlumdur, Ondan razıyam,
Ona qulaq asın!» 6Şagirdlər bunu
eşidəndə üzüstə yerə qapandılar və
onları böyük dəhşət bürüdü. 7İsa gəlib
onlara toxunaraq «Qalxın, qorxma-
yın!» dedi. 8Onlar da başını qaldıran-
da İsadan başqa kimsəni görmədilər.

9Dağdan enərkən İsa şagirdlərinə
əmr etdi: «Bəşər Oğlu ölülər arasından
dirilənə qədər gördüyünüzü heç kimə
söyləməyin». 10Şagirdlər Ondan so-
ruşdu: «Elə isə, niyə ilahiyyatçılar
deyirlər ki, əvvəlcə İlyas gəlməlidir?»
11İsa onlara cavab verdi: «Düzdür,
İlyas gəlib hər şeyi yoluna qoymalıdır.
12Lakin sizə deyirəm: artıq İlyas gəldi
və onu tanımadılar, lakin nə istədi-
lərsə, onun başına gətirdilər. Eyni cür
Bəşər Oğlu da onların əlindən əzab
çəkəcək». 13Şagirdlər o zaman başa
düşdülər ki, İsa onlara bu sözləri
Vəftizçi Yəhya haqqında söyləyirdi.

### *Oğlandan cin çıxarılır*

*(Mark 9:14-29; Luka 9:37-43)*

14Onlar xalqın yanına gələndə bir
adam gəlib İsanın qarşısında diz çö-
kərək dedi: 15«Ya Rəbb! Oğluma
rəhm elə, çünki o, epileptikdir və çox
əzab çəkir. Tez-tez gah oda, gah da
suya düşür. 16Onu Sənin şagirdlərinin
yanına gətirdim, lakin ona şəfa verə
bilmədilər». 17İsa cavab verərək dedi:
«Ey imansız və yolunu azmış nəsil! Nə
vaxta qədər sizinlə olacağam? Nə
vaxta qədər sizə dözəcəyəm? Uşağı
buraya, yanıma gətirin». 18İsa cinə
qadağan etdi və cin uşaqdan çıxdı.
Oğlan o saatda şəfa tapdı.

19O zaman şagirdlər İsaya təklikdə
yaxınlaşıb dedilər: «Nə üçün biz o
ruhu qova bilmədik?» 20İsa da onlara
dedi: «İmanınız az olduğu üçün. Çünki
sizə doğrusunu deyirəm: bir xardal
toxumu qədər imanınız olarsa və siz
bu dağa "buradan oraya köç" desəniz,
o köçər və sizin üçün mümkün olma-
yan heç bir şey olmaz». 21[a]

### *İsa ölüb-diriləcəyi barədə yenə xəbər verir*

*(Mark 9:30-32; Luka 9:43-45)*

22Qalileyada yığılarkən İsa şagird-
lərə dedi: «Bəşər Oğlu insan əllərinə
təslim ediləcək 23və Onu öldürəcəklər,
amma O, üçüncü gün diriləcək». Onlar
çox kədərləndilər.

### *Məbəd vergisi*

24Kefernahuma gəldikləri zaman

---

a **17:20-21** *Olmaz* – bəzi əlyazmalarda *olmaz.* **21** *Bu cür ruhlar yalnız dua və orucla çıxar* (Mark 9:29).

**17:1-5** *2Pet. 1:17-18* **17:5** *Qanun. 18:15; Zəb. 2:7; Yeş. 42:1; Mat. 3:17; 12:18; Mark 1:11;* **17:5** *Luka 3:21-22* **17:10** *Mal. 4:5* **17:12** *Mat. 11:14* **17:20** *Mat. 21:21; Mark 11:23;* **17:20** *Luka 17:5-6; 1Kor. 13:2*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 27



məbəd vergisini[a] yığanlar Peterə
yaxınlaşıb dedilər: «Sizin Müəlliminiz
vergi ödəmirmi?» **25**Peter «ödəyir»
dedi. Evə gələndə İsa onu qabaqlaya-
raq dedi: «Şimon! Sən necə düşünür-
sən? Yerin hökmdarları gömrük və
yaxud vergini kimdən alırlar? Öz
övladlarındanmı, yoxsa kənar adam-
lardan?» **26**Peter Ona «kənar adamlar-
dan» söylədikdə İsa ona dedi: «Belə
isə, övladlar sərbəstdir. **27**Lakin bu
adamları incitməyək deyə gölə get,
tilov at və tilova düşən ilk balığı götür.
Onun ağzını açanda bir gümüş pul[b]
tapacaqsan. Onu götür, həm Mənim,
həm də öz əvəzinə ver».

### *Ən böyük kimdir?*

*(Mark 9:33-37; 42-48; Luka 9:46-48; 17:1-2)*

**18** **1**Həmin vaxt şagirdlər İsanın
yanına gəlib dedilər: «Səmavi
Padşahlıqda ən böyük kimdir?» **2**İsa
yanına bir balaca uşaq çağırıb onu
şagirdlərin arasına qoydu. **3**O dedi:
«Sizə doğrusunu deyirəm: əgər siz
yolunuzdan dönüb uşaqlar kimi olma-
sanız, Səmavi Padşahlığa əsla daxil ola
bilməzsiniz. **4**Beləliklə, kim bu uşaq
kimi özünü aşağı tutarsa, Səmavi
Padşahlıqda ən böyük odur. **5**Kim
Mənim adımla belə bir uşağı qəbul
edərsə, Məni qəbul edər.

**6**Amma kim Mənə iman edən bu
kiçiklərdən birini pis yola çəkərsə,[c] öz
boynuna böyük bir dəyirman daşı asıb
dənizin dibinə atılaraq boğulmaq
onun üçün daha yaxşı olar. **7**İnsanları
pis yola çəkən şeylər üçün vay bu
dünyanın halına! Belə şeylərin gəlməsi
qarşısıalınmazdır, amma vay o ada-
mın halına ki, bunlar onun vasitəsilə
gəlir! **8**Əgər əlin və ya ayağın səni pis
yola çəkərsə, onu kəs at. Sənin əbədi
həyata şikəst və ya topal daxil olmağın
iki əl və iki ayaqla əbədi oda atıl-
mağından yaxşıdır. **9**Əgər gözün səni
pis yola çəkərsə, onu çıxart at. Sənin
tək gözlə əbədi həyata daxil olmağın
iki gözlə cəhənnəm oduna atılmağın-
dan yaxşıdır.

### *İtmiş qoyun məsəli*

*(Luka 15:3-7)*

**10**Bu kiçiklərdən birinə belə, xor
baxmaqdan çəkinin. Çünki sizə deyi-
rəm: onların səmadakı mələkləri göy-
lərdə olan Atamın üzünü daima görür.
**11**[d]

**12**Siz necə deyirsiniz? Bir adamın
yüz qoyunu varsa və onlardan biri
yolunu azarsa, doxsan doqquzunu
dağlarda qoyub yolunu azan qoyunu
axtarmağa getməzmi? **13**Sizə doğru-
sunu deyirəm: əgər onu tapa bilərsə,
yolunu azmayan doxsan doqquz
qoyun üçün sevindiyindən artıq onun
üçün sevinər. **14**Beləcə bu kiçiklərdən
birinin belə, həlak olması göylərdə
olan Atanızın iradəsi deyil.

### *Qardaş günah işlədəndə*

**15**Əgər qardaşın sənə qarşı günah
işlədərsə, get, onun günahını ona
göstər. Qoy hər şey yalnız ikinizin

a **17:24** *Məbəd vergisi* – yunan dilində *didraxmon*, yəni iki dirhəm.
b **17:27** *Bir gümüş pul* – yunan dilində *statir*, yəni dörd dirhəm.
c **18:6,7,8,9** *Pis yola çəkmək* – hərfi tərcümədə *büdrətmək.*
d **18:10-11** *Görür* – bəzi əlyazmalarda *görür.* **11** *Çünki Bəşər Oğlu itmişləri xilas etməyə gəlmişdir* (Luka 19:10).

**17:24** *Çıx. 30:13; 38:26* **18:1** *Luka 22:24* **18:2-3** *Mark 10:15; Luka 18:17* **18:8** *Mat. 5:30* **18:9** *Mat. 5:29* **18:15** *Luka 17:3*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 28



arasında qalsın. O sənə qulaq asarsa,
qardaşını qazandın. 16Amma qulaq
asmazsa, özünlə bir və ya iki nəfər
götür ki, “hər iddia iki yaxud üç
şahidin sözü ilə təsdiq edilsin”. 17Əgər
o bu adamların da sözünə qulaq
asmaq istəməsə, vəziyyəti imanlılar
cəmiyyətinə bildir. Əgər cəmiyyətin də
sözünə qulaq asmaq istəməsə, onu bir
bütpərəst və vergiyığan hesab et.

18Sizə doğrusunu deyirəm: yer
üzündə bağlayacağınız hər şey göydə
bağlanmış olacaq və yer üzündə aça-
cağınız hər şey göydə açılmış olacaq.
19Yenə sizə doğrusunu deyirəm: yer
üzündə sizlərdən iki nəfər diləyəcəkləri
hər hansı bir şey üçün razılığa gələrsə,
göylərdə olan Atam onların istəklərini
yerinə yetirəcək. 20Çünki harada iki və
ya üç nəfər Mənim adımla yığılarsa,
Mən də orada, onların arasındayam».

### *İnsafsız qul məsəli*

21O zaman Peter gəlib İsaya dedi:
«Ya Rəbb! Qardaşım mənə qarşı
günah işlədərsə, neçə dəfə mən onu
bağışlamalıyam? Yeddi dəfəmi?» 22İsa
ona dedi: «Sənə deyirəm: yeddi dəfə
yox, yetmiş dəfə yeddi.

23Ona görə də Səmavi Padşahlıq öz
qulları ilə hesablaşmaq istəyən bir
padşaha bənzəyir. 24Hesablaşmağa
başladığı zaman onun yanına on min
talant[a] borcu olan biri gətirildi. 25Am-
ma onun ödəməyə bir şeyi olmadığı
üçün ağası əmr etdi ki, özü, arvadı,
uşaqları və bütün malı satılaraq
borcunu ödəsin. 26Elə bu vaxt qul yerə
qapanıb ona səcdə edərək dedi: “Səbir
et! Mən hamısını ödəyəcəyəm”. 27Ağa-
sının o qula rəhmi gəldi, onu buraxdı
və borcunu bağışladı.

28Amma o qul kənara çıxıb ona yüz
dinar borclu olan bir yoldaşını tapdı.
Onu yaxaladı və “Borcunu ödə!”
deyərək boğmağa başladı. 29Yoldaşı
yerə qapanıb ona “səbir et, borcunu
ödəyəcəyəm” deyə yalvardı. 30O isə
istəmədi. Gedib borcunu ödəyənə
qədər onu zindana saldırdı. 31Ağanın
digər qulları baş verən hadisəni görən-
də çox kədərləndilər və gedib bütün
olanı ağalarına nəql etdilər.

32Onda ağa o qulu yanına çağırıb
dedi: “Ey pis qul, bütün o borcu sənə
bağışladım, çünki mənə yalvardın.
33Mən sənə mərhəmət etdiyim kimi
sən də yoldaşına mərhəmət etməli de-
yildinmi?” 34Ağası qəzəblənib bütün
borcunu ödəyənə qədər onu işgəncə
verənlərə təslim etdi. 35Hər biriniz qar-
daşlarınızı ürəkdən bağışlamasanız,
Səmavi Atam da sizə elə edər».

### *Boşanma haqqında*

*(Mark 10:1-12)*

19 1İsa söhbətini bitirdikdən son-
ra Qalileyadan çıxıb Yəhude-
yanın İordan çayının o biri tayında
yerləşən bölgəsinə getdi. 2Böyük bir
izdiham Onun ardınca gəldi. İsa orada
onlara şəfa verdi.

3Bəzi fariseylər İsanın yanına gəlib
Onu sınamaq üçün belə bir sual
verdilər: «İnsanın öz arvadını hər
səbəbə görə boşamağa icazəsi varmı?»
4İsa cavab verib dedi: «Oxumamısınız
ki, Yaradan başlanğıcdan “onları kişi
və qadın olaraq yaratdı” və dedi:
5“Buna görə də kişi ata-anasını tərk

---

a **18:24** *Talant* – ən böyük ölçü, 34,5 kiloqram qızıl və yaxud gümüş.

**18:16** *Qanun. 19:15* **18:18** *Mat. 16:19; Yəh. 20:23* **18:21-22** *Luka 17:3-4* **19:4** *Yar. 1:27; 5:2*
**19:5** *Yar. 2:24*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 29



edib arvadına qovuşacaq və ikisi bir
bədən olacaq”? 6Artıq onlar iki deyil,
bir bədəndir. Buna görə də qoy Alla-
hın birləşdirdiyini insan ayırmasın».
7Fariseylər İsaya belə dedilər: «Onda
Musa nə üçün bir talaq kağızı verərək
arvadını boşamağı əmr etdi?» 8İsa
onlara dedi: «Ürəyinizin inadkar oldu-
ğuna görə Musa arvadlarınızı boşa-
mağınıza icazə verdi. Amma başlan-
ğıcdan belə deyildi. 9Mənsə sizə deyi-
rəm ki, cinsi əxlaqsızlıqdan başqa hər
hansı bir səbəbə görə arvadını boşayıb
başqası ilə evlənən kəs zina edir».[a]

10Şagirdləri İsaya dedilər: «Əgər
ərlə arvad arasındakı münasibət belə
isə, deməli, evlənməmək daha yaxşı-
dır». 11Amma İsa onlara dedi: «Hər
adam bu sözü qəbul edə bilməz, ancaq
bu qabiliyyətin verildiyi adamlar
qəbul edə bilər. 12Çünki elələri var ki,
anadangəlmə xədimdir, elələri var ki,
insanlar tərəfindən xədim ediliblər,
elələri də var ki, Səmavi Padşahlıq
uğrunda özlərini xədim sayırlar. Bunu
qəbul edə bilən qəbul etsin».

### *İsa uşaqlara xeyir-dua verir*

*(Mark 10:13-16; Luka 18:15-17)*

13O zaman uşaqlar İsanın yanına
gətirildi ki, İsa onların üzərinə əllərini
qoyub dua etsin. Şagirdlər isə onlara
qadağan etdilər. 14Amma İsa dedi:
«Uşaqları buraxın, qoy Mənim ya-
nıma gəlsinlər! Onlara mane olmayın!
Çünki Səmavi Padşahlıq belələrinə
məxsusdur». 15İsa onların üzərinə
əllərini qoyub oradan getdi.

### *Var-dövlət və Səmavi Padşahlıq*

*(Mark 10:17-31; Luka 18:18-30)*

16Bir adam İsanın yanına gəlib de-
di: «Müəllim,[b] mən nə yaxşılıq etmə-
liyəm ki, əbədi həyata malik olum?»
17İsa ona dedi: «Nə üçün Məndən
yaxşılıq barəsində soruşursan? Yaxşı
olan tək Biri vardır.[c] Əgər sən əbədi
həyata qovuşmaq istəyirsənsə, Onun
əmrlərinə riayət et». 18O adam İsadan
«Hansı əmrlərə?» deyə soruşdu. İsa da
dedi: «“Qətl etmə. Zina etmə. Oğurluq
etmə. Yalandan şahidlik etmə. 19Ata-
anana hörmət et”. Həmçinin “qonşu-
nu özün kimi sev”».

20Cavan adam İsaya dedi: «Bun-
ların hamısına riayət etmişəm,[d] daha
nəyim çatışmır?» 21İsa ona dedi:
«Əgər kamil olmaq istəyirsənsə, get,
əmlakını sat və yoxsullara payla.
Onda göylərdə xəzinən olacaq. Sonra
qayıt, Mənim ardımca gəl». 22Lakin
cavan adam bu sözü eşitdikdə kədər-
lənib getdi, çünki var-dövləti çox idi.

23İsa şagirdlərinə dedi: «Sizə doğ-
rusunu deyirəm: varlı adamın Səmavi
Padşahlığa daxil olması çətindir.
24Yenə sizə deyirəm ki, dəvənin iynə
gözündən keçməsi varlı adamın Al-
lahın Padşahlığına daxil olmasından
asandır». 25Bunu eşidən şagirdlər çox
təəccüblənərək dedilər: «Elə isə, kim
xilas ola bilər?» 26İsa onlara baxıb

---

a **19:9** *Zina edir* – bəzi əlyazmalarda *zina edir. Ərindən boşanmış qadınla evlənən də zina edir* (Luka 16:18).

b **19:16** *Müəllim* – bəzi əlyazmalarda *Ey yaxşı Müəllim.*

c **19:17** *Nə üçün Məndən yaxşılıq barəsində soruşursan? Yaxşı olan tək Biri vardır* – bəzi əlyazmalarda *Mənə niyə yaxşı deyirsən? Tək Allahdan başqa yaxşısı yoxdur* (Mark 10:18; Luka 18:19).

d **19:20** *Riayət etmişəm* – bəzi əlyazmalarda *Gəncliyimdən bəri riayət edirəm* (Mark 10:20; Luka 18:21).

**19:7** *Qanun. 24:1-4; Mat. 5:31* **19:9** *Mat. 5:32; Luka 16:18; 1Kor. 7:10-11*

**19:18-19** *Çıx. 20:12-16; Qanun. 5:16-20; Lev. 19:18*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 30



dedi: «Bu, insanlar üçün qeyri-müm-
kündür, amma Allah üçün hər şey
mümkündür».

27Bundan sonra Peter cavab verə-
rək Ona dedi: «Bax biz hər şeyi qoyub
Sənin ardınca gəlmişik, əvəzində
nəyimiz olacaq?» 28İsa onlara dedi:
«Sizə doğrusunu deyirəm: hər şey
yeniləşəndə, Bəşər Oğlu izzətli taxtına
oturanda Mənim ardımca gələn sizlər
də İsrailin on iki qəbiləsinə hökm
etmək üçün on iki taxt üzərində
oturacaqsınız. 29Mənim adım uğrunda
ya evlərini ya qardaşlarını ya bacıla-
rını ya atasını ya anasını[a] ya uşaqlarını
və yaxud tarlalarını atan hər kəs
bundan yüz dəfə artıq alacaq və əbədi
həyatı da irs olaraq alacaq. 30Amma
birinci olanların çoxu axırıncı, axırıncı
olanlarsa birinci olacaq.

### *Üzüm bağının sahibi barədə məsəl*

20 1Səmavi Padşahlıq səhər erkən
durub öz üzüm bağı üçün işçi
tutmağa çıxan ev sahibinə bənzəyir.
2O, işçilərlə günü bir dinara razılaşıb
onları üzüm bağına göndərdi. 3Üçüncü
saat[b] radələrində çıxıb meydanda işsiz
durmuş adamları gördü. 4Onlara da
dedi: "Siz də üzüm bağına gedin və
haqqınızı düz verərəm". 5Onlar da
bağa getdilər. Altıncı[c] və doqquzuncu
saat[d] radələrində yenə çıxıb belə etdi.
6On birinci saat[e] radələrində çıxdı və
orada duran başqalarını tapıb onlara
dedi: "Nə üçün bütün günü burada
işsiz durursunuz?" 7"Çünki heç kim
bizə iş vermədi" dedilər. Onlara "siz
də üzüm bağına gedin"[f] dedi.

8Axşam olanda bağ sahibi öz naza-
rətçisinə dedi: "İşçiləri çağır və axırın-
cılardan başlayaraq birincilərə kimi
muzdlarını ver". 9On birinci saat
radələrində işə gələnlər adambaşına
bir dinar aldılar. 10Birinci gələnlərsə
daha çox alacaqlarını düşündülər,
lakin onlar da adambaşına bir dinar
aldılar. 11Pullarını aldıqları zaman ev
sahibinə şikayət edərək dedilər: 12"Bu
ən axırıncılar cəmi bir saat işlədilər və
sən onları günün ağırlığını və qızmar
istisini çəkən bizlərlə bir tutdun". 13O
isə onlardan birinə cavab verib dedi:
"Dostum, axı mən sənə haqsızlıq
etmədim, sən mənimlə bir dinara razı-
laşmadınmı? 14Haqqını al, get! Axırın-
cıya da sənə verdiyim qədər vermək
istəyirəm. 15Öz pulumla istədiyimi
etməyə ixtiyarım yoxdurmu? Sən mə-
nim comərdliyimə qısqanırsan?" 16Be-
ləcə də axırıncılar birinci, birincilər isə
axırıncı olacaq».[g]

### *İsa ölüb-diriləcəyi barədə üçüncü dəfə xəbər verir*

*(Mark 10:32-34; Luka 18:31-34)*

17İsa Yerusəlimə gedərkən yolda
On İki şagirdi kənara çağırıb ayrıca
onlara dedi: 18«Bax Yerusəlimə qal-
xırıq, Bəşər Oğlu başçı kahinlərə və

---

a **19:29** *Ya anasını* – bəzi əlyazmalarda *ya anasını ya arvadını.*
b **20:3** *Üçüncü saat* – hazırkı vaxtla səhər saat doqquz.
c **20:5** *Altıncı saat* – hazırkı vaxtla günorta saat on iki.
d **20:5** *Doqquzuncu saat* – hazırkı vaxtla günortadan sonra saat üç.
e **20:6** *On birinci saat* – hazırkı vaxtla günortadan sonra saat beş.
f **20:7** *Gedin* – bəzi əlyazmalarda *gedin və haqqınızı alarsınız.*
g **20:16** *Olacaq* – bəzi əlyazmalarda *olacaq; çünki dəvət edilmiş çox, seçilmiş isə azdır* (Mat. 22:14).
**19:28** *Mat. 25:31; Luka 22:30* **19:30** *Mat. 20:16; Luka 13:30* **20:8** *Lev. 19:13; Qanun. 24:15*
**20:16** *Mat. 19:30; Mark 10:31; Luka 13:30*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 31



ilahiyyatçılara təslim olunacaq. Onu
ölümə məhkum edəcəklər; 19ələ
salaraq qamçılayıb çarmıxa çəksinlər
deyə başqa millətlərə təslim edəcəklər.
O, üçüncü gün diriləcək».

### *Kim üstündür*

*(Mark 10:35-45)*

20O zaman Zavday oğullarının
anası oğulları ilə birlikdə İsaya yaxın-
laşıb səcdə qılaraq Ondan nə isə dilədi.
21İsa qadından «Sən nə istəyirsən?»
deyə soruşdu. Qadın Ona dedi: «Əmr
et ki, mənim bu iki oğlum Sənin
Padşahlığında biri sağında, biri solun-
da otursun». 22Amma İsa cavab verib
dedi: «Nə dilədiyinizi özünüz də
bilmirsiniz. Mənim içəcəyim kasadan
siz də içə bilərsinizmi?»[a] Onlar dedilər:
«Bilərik». 23İsa onlara dedi: «Mənim
içəcəyim kasadan içəcəksiniz.[b] Amma
sağımda və yaxud solumda oturmağa
izin vermək Məndən asılı deyil. Atam
oranı kimlər üçün hazırlayıbsa, onlara
veriləcək».

24Bunu eşidən on şagirdin iki
qardaşa acığı tutdu. 25İsa şagirdləri
yanına çağırıb dedi: «Bilirsiniz ki,
millətlərin rəhbərləri onların üzərində
hökmranlıq, əyanları da onlara ağalıq
edir. 26Sizin aranızda isə qoy belə
olmasın. Sizlərdən böyük olmaq istə-
yən xidmətçiniz olsun. 27Aranızda kim
birinci olmaq istəsə, başqalarının qulu
olsun. 28Beləcə Bəşər Oğlu gəlmədi ki,
Ona xidmət etsinlər, gəldi ki, Özü
xidmət etsin və çoxlarını satın almaq
üçün Öz canını fidyə versin».

### *İki kor adamın gözləri açılır*

*(Mark 10:46-52; Luka 18:35-43)*

29İsa şagirdləri ilə Yerixodan
çıxarkən böyük bir izdiham Onun
ardınca getdi. 30Yol kənarında oturan
iki kor adam İsanın oradan keçdiyini
eşitdikdə «Ya Rəbb, ey Davud Oğlu!
Bizə rəhm elə!» deyə bağırdı. 31Cama-
at onlara qadağan edib susdurmaq
istədisə də, onlar «Ya Rəbb, ey Davud
Oğlu! Bizə rəhm elə!» deyə daha
ucadan bağırdılar. 32İsa dayanıb on-
ları çağırdı və onlardan soruşdu: «Nə
istəyirsiniz, sizin üçün edim?» 33Onlar
dedilər: «Ya Rəbb, gözlərimiz açılsın».
34İsanın onlara rəhmi gəldi, gözlərinə
toxundu. Həmin an onların gözləri
açıldı və İsanın ardınca getdilər.

### *İsanın Yerusəlimə girməsi*

*(Mark 11:1-11; Luka 19:28-40; Yəh. 12:12-19)*

21 1Yerusəlimə yaxınlaşıb Zeytun
dağının yamacındakı Bet-Fa-
qeyə gəldikləri zaman İsa iki şagirdi
göndərərək 2onlara dedi: «Qarşınızda-
kı kəndə gedin. Dərhal orada bağlan-
mış bir eşşəklə bir sıpa tapacaqsınız.
Onları açıb Mənə gətirin. 3Kim sizə
bir şey desə, ona “bunlar Rəbbə la-
zımdır, tezliklə onları geri göndərə-
cək” deyərsiniz». 4Bunlar da peyğəm-
bər vasitəsilə söylənən bu söz yerinə
yetsin deyə baş verdi:
5«Sion qızına[c] deyin ki,
“Bax Padşahın sənə tərəf gəlir;
O itaətkardır və bir eşşəyə –
Eşşəyin balası olan sıpaya minib

---

a **20:22** *Bilərsinizmi?* – bəzi əlyazmalarda *bilərsinizmi? Mən vəftiz olduğum kimi siz də vəftiz ola bilərsinizmi?* (Mark 10:38).
b **20:23** *İçəcəksiniz* – bəzi əlyazmalarda *içəcəksiniz və Mən vəftiz olduğum kimi vəftiz olacaqsınız* (Mark 10:39).
c **21:5** *Sion qızına* – yəni Yerusəlim əhalisinə.
**20:25-27** *Mat. 23:11; Mark 9:35; Luka 2:25-26* **20:30** *Mat. 9:27* **21:5** *Yeş. 62:11; Zək. 9:9*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 32



gəlir”».
6Şagirdlər gedib İsanın əmr etdiyi
kimi etdilər. 7Eşşəklə sıpanı gətirib
üzərlərinə paltarlarını qoydular və İsa
sıpanın belinə mindi. 8Camaatın çoxu
öz paltarlarını yola sərdi. Bəzisi də
ağaclardan budaqlar kəsib yola döşə-
di. 9İsanın önündə gedən və ardınca
gələn xalq belə nida edirdi:

«Davud Oğluna hosanna![a]
Rəbbin ismi ilə Gələnə alqış olsun!
Ən ucalarda hosanna!»

10İsa Yerusəlimə daxil olanda
bütün şəhər «Bu Kimdir?» deyərək
sarsıldı. 11Camaat isə deyirdi: «Bu,
Qalileyanın Nazaret şəhərindən olan
İsa Peyğəmbərdir».

### *İsa satıcıları məbəddən qovur*

*(Mark 11:15-19; Luka 19:45-48; Yəh. 2:13-22)*

12İsa məbədə girib orada alver
edənlərin hamısını qovdu. Sərrafların
masalarını və göyərçin satanların kür-
sülərini çevirdi. 13Onlara belə dedi:

«“Mənim evim dua evi
adlandırılacaq”

deyə yazılıb. Amma siz onu “quldur
yuvasına” çevirmisiniz!»
14İsa məbəddə Onun yanına gələn
korlara və axsaqlara şəfa verdi.
15Lakin başçı kahinlər və ilahiyyat-
çılar Onun etdiyi heyrətamiz işləri və
məbəddə «Davud Oğluna hosanna!»
deyə bağıran uşaqları gördükdə acıq-
landılar 16və Ona dedilər: «Bunların
nə söylədiyini eşidirsənmi?» İsa da
onlara dedi: «Bəli.

“Körpələrin və çağaların ağzından
Kamil həmd aldın”

sözünü heç oxumamısınızmı?» 17İsa
onları tərk edib şəhərdən çıxdı. Bet-
Anyaya gedib orada gecələdi.

### *Barsız əncir ağacı*

*(Mark 11:12-14,20-24; Luka 13:6-9)*

18Səhəri gün İsa şəhərə qayıdanda
acmışdı. 19Yol kənarında bir əncir
ağacı gördü və ona yaxınlaşdı. Amma
ağacda yarpaqdan başqa bir şey
tapmadı. İsa ona dedi: «Qoy bir daha
sənin meyvən çıxmasın». Əncir ağacı o
anda qurudu. 20Şagirdlər bunu gör-
dükdə «Əncir ağacı bir anda necə
qurudu?» deyərək heyrətləndilər. 21İsa
cavab verib onlara dedi: «Sizə doğ-
rusunu deyirəm: əgər imanınız olub
şübhə etməsəniz, nəinki əncir ağacının
başına gətirilən şeyi edərsiniz, hətta bu
dağa “Qalx, dənizə atıl!” desəniz, elə
də olacaq. 22İmanla dua edərək hər nə
diləsəniz, alacaqsınız».

### *İsanın səlahiyyəti*

*(Mark 11:27-33; Luka 20:1-8)*

23İsa məbədə gəlib təlim öyrədərkən
başçı kahinlər və xalqın ağsaqqalları
Ona yaxınlaşıb dedilər: «Sən bu işləri
hansı səlahiyyətlə edirsən? Sənə bu
səlahiyyəti kim verib?» 24İsa onlara
belə cavab verdi: «Mən də sizə bir sual
verəcəyəm; onu Mənə desəniz, Mən də
bunları hansı səlahiyyətlə etdiyimi sizə
deyərəm. 25Yəhyanın vəftizi haradan
idi? Göydənmi, yoxsa insanlardan?»
Onlarsa aralarında müzakirə edərək
belə dedilər: «Əgər desək “göydən”,
“Bəs nə üçün ona inanmadınız?”
deyəcək. 26Amma desək “insanlar-
dan”, camaatdan qorxuruq, çünki
hamı Yəhyanı peyğəmbər sayır».
27Cavabında İsaya dedilər: «Bilmi-
rik». İsa da onlara dedi: «Bunları

---

a **21:9** *Hosanna* – ibrani dilində *xilas et* deməkdir və nida kimi işlənir.

**21:9** *Zəb. 118:25-26* **21:13** *Yeş. 56:7; Yer. 7:11* **21:16** *Zəb. 8:2* **21:21** *Mat. 17:20; 1Kor. 13:2*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 33



hansı səlahiyyətlə etdiyimi Mən də sizə demirəm.

### *İki oğul məsəli*

**28**Bəs siz necə düşünürsünüz? Bir adamın iki oğlu vardı. Gəlib birincisinə "oğlum, bu gün get üzüm bağımda işlə" dedi. **29**O da cavab verib "istəmirəm" dedi. Lakin sonra peşman olub getdi. **30**Həmin adam ikincisinə yaxınlaşıb yenə eyni sözü söylədi. O cavab verib "Gedirəm, ağam!" dedi, amma getmədi. **31**Bu iki nəfərdən hansı atasının istəyini yerinə yetirdi?» Onlar «birincisi» dedilər. İsa onlara dedi: «Sizə doğrusunu deyirəm: vergiyığanlar və fahişələr Allahın Padşahlığına sizdən qabaq girirlər. **32**Çünki Yəhya sizin yanınıza salehlik yolunu göstərməyə gəldi. Sizsə ona inanmadınız, amma vergiyığanlar və fahişələr ona inandılar. Siz bunu gördükdən sonra da peşman olub ona inanmadınız.

### *Pis bağbanlar məsəli*

*(Mark 12:1-12; Luka 20:9-19)*

**33**Başqa bir məsəli dinləyin: Ev sahibi olan bir adam var idi. Üzüm bağı saldı, oranın ətrafına çəpər çəkdi. İçində yer qazaraq üzümsıxan düzəltdi, nəzarət qülləsi tikdi. Sonra isə bağı bağbanlara icarəyə verərək başqa ölkəyə getdi. **34**Məhsul vaxtı çatanda məhsulunu almaq üçün qullarını bağbanların yanına göndərdi. **35**Lakin bağbanlar onun qullarını tutub kimini döydülər, kimini öldürdülər, kimini də daşqalaq elədilər. **36**Bağ sahibi yenə əvvəlkindən daha çox başqa qullar göndərdi. Bağbanlar onlarla da əvvəlki kimi etdilər. **37**"Oğluma hörmət edərlər" deyərək axırda öz oğlunu onların yanına göndərdi. **38**Bağbanlarsa oğulu görəndə öz aralarında dedilər: "Varis budur. Gəlin onu öldürək və miras bizə qalsın". **39**Beləcə onu tutub bağdan kənara çıxararaq öldürdülər. **40**Beləliklə, bağın sahibi gəldikdə bu bağbanlara nə edəcək?» **41**Onlar İsaya dedilər: «Bu xainləri dəhşətli şəkildə həlak edəcək, üzüm bağını isə başqa bağbanlara icarəyə verəcək ki, onlar məhsulu öz vaxtında ona versinlər».

**42**İsa onlara dedi: «Məgər siz Müqəddəs Yazılarda bunu heç oxumamısınızmı?

"Bənnaların rədd etdiyi daş
Guşədaşı olub.
Bu, Rəbbin işi idi,
Gözümüzdə xariqəli bir işdir".

**43**Buna görə sizə deyirəm: Allahın Padşahlığı sizdən alınıb onun məhsullarını yetişdirəcək bir millətə veriləcək. **44**Bu daşın üstünə yıxılan kəs parçalanacaq, daş isə kimin üzərinə düşərsə, onu əzəcək».[a]

**45**Başçı kahinlər və fariseylər Onun məsəllərini eşitdikdə bu sözləri onlar üçün dediyini başa düşdülər. **46**Ona görə də Onu tutmaq üçün yol axtarırdılar, lakin camaatdan qorxdular, çünki camaat İsanı peyğəmbər hesab edirdi.

### *Toy ziyafəti məsəli*

*(Luka 14:15-24)*

**22** **1**İsa yenə onlara məsəllərlə xitab edərək dedi: **2**«Səmavi Padşahlıq oğluna toy ziyafəti verən bir padşaha bənzəyir. **3**O, toy ziyafətinə dəvət olunanları çağırmaq üçün qullarını göndərdi. Lakin onlar gəlmək

---

a **21:44** Bəzi əlyazmalarda bu ayə yoxdur.

**21:32** *Luka 3:12; 7:29-30* **21:33** *Yeş. 5:1-7* **21:42** *Zəb. 118:22-23*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 34



istəmədi. 4Bir daha başqa qulları gön-
dərərək onlara dedi: “Dəvət olunan-
lara deyin ki, budur, mən ziyafətimi
hazırladım, öküzlərim və bəslənmiş
heyvanlarım kəsilib, hər şey hazırdır,
toy ziyafətinə gəlin!” 5Amma dəvət
olunanlar etinasızlıq göstərərək kimi
tarlasına, kimi ticarətinə getdi. 6O
biriləri isə onun qullarını tutub təhqir
etdilər və öldürdülər. 7Padşah bundan
xəbər tutaraq qəzəbləndi. Öz qoşun-
larını göndərib o qatilləri məhv etdi,
şəhərlərini isə yandırdı. 8Onda qulla-
rına dedi: “Toy ziyafəti hazırdır, fəqət
dəvət olunanlar buna layiq deyil.
9Beləliklə, yolayrıclarına gedin və kimi
tapsanız, toy ziyafətinə dəvət edin”.
10Həmin qullar yollara çıxdılar. Pis-
yaxşı kimi tapdılarsa, hamısını topla-
dılar. Toy məclisi qonaqlarla doldu.

11Padşah qonaqlara baxmaq üçün
girdikdə orada toy libası geyməmiş bir
nəfəri gördü, 12ona dedi: “Dostum!
Sən toy libası geyməmiş buraya necə
girdin?” O isə susdu. 13O zaman pad-
şah xidmətçilərə dedi: “Onun əllərini,
ayaqlarını bağlayın və qaranlıq çölə
atın! Orada ağlaşma və diş qıcırtısı
olacaq”. 14Çünki dəvət edilmiş çox,
seçilmiş isə azdır».

### *Hər kəsin öz haqqı*

*(Mark 12:13-17; Luka 20:20-26)*

15O zaman fariseylər gedib məslə-
hətləşirdilər ki, Onu söz üstündə necə
tutsunlar. 16Onlar hirodçularla birgə
öz şagirdlərini İsanın yanına göndərib
dedilər: «Müəllim, biz bilirik ki, Sən
etibarlı adamsan, Allahın yolunu
həqiqətə görə öyrədirsən və heç kimə
tərəfkeşlik etmirsən. Çünki insanlar
arasında fərq qoymursan. 17İndi bizə
de görək, Səncə bizim üçün qeysərə
vergi verməyə icazə var ya yox?»
18Amma İsa onların pis niyyətini
bilərək dedi: «Ey ikiüzlülər, Məni niyə
sınağa çəkirsiniz? 19Vergi verdiyiniz
sikkəni Mənə göstərin». Onlar da Ona
bir dinar gətirdilər. 20İsa onlara dedi:
«Sikkənin üstündəki bu təsvir və yazı
kimindir?» 21Ona dedilər: «Qeysərin».
O vaxt İsa onlara dedi: «Elə isə, qey-
sərin haqqını qeysərə, Allahın haqqını
Allaha verin». 22Bunu eşitdikləri za-
man heyrətləndilər və İsanı tərk edib
getdilər.

### *Dirilmə haqqında sual*

*(Mark 12:18-27; Luka 20:27-40)*

23Həmin gün dirilmənin olmadığını
iddia edən bəzi sadukeylər İsanın
yanına gəlib soruşdular: 24«Müəllim,
Musa belə demişdir: “Əgər bir adam
övladsız ölsə, qardaşı onun dul qalmış
arvadını alıb ölən qardaşın nəslini
davam etdirsin”. 25Aramızda yeddi
qardaş var idi. Birincisi bir arvad aldı
və öldü. Uşağı olmadığından arvadı ilə
qardaşı evləndi. 26İkincisi və üçüncüsü,
hətta yeddincisinə qədər eləcə öldü.
27Hamısından sonra bu qadın da öldü.
28İndi ölülər diriləndə bu qadın o
yeddi nəfərdən hansının arvadı ola-
caq? Çünki hamısı bu qadını almışdı».

29İsa onlara cavab verib dedi:
«Müqəddəs Yazıları və Allahın qüd-
rətini bilmədiyinizə görə yanılırsınız.
30Ona görə ki ölülər diriləndə insanlar
nə evlənir, nə də ərə gedirlər. Ancaq
səmadakı mələklər[a] kimi olurlar.
31-32Bəs ölülərin dirilməsinə gəlincə,
Allah tərəfindən sizə “Mən İbrahimin

---

a **22:30** *Səmadakı mələklər* – bəzi əlyazmalarda *Allahın səmadakı mələkləri.*

**22:13** *Mat. 8:12; 25:30; Luka 13:28* **22:23** *Həv. 23:8* **22:24** *Qanun. 25:5* **22:31-32** *Çıx. 3:6*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 35



Allahı, İshaqın Allahı və Yaqubun Allahıyam” deyə söylənən sözü oxumamısınızmı? Allah ölülərin deyil, dirilərin Allahıdır». 33Bunları eşidən camaat Onun təliminə təəccüblənirdi.

### *Allahın ən böyük əmri*

*(Mark 12:28-34; Luka 10:25-28)*

34Fariseylər İsanın sadukeyləri susdurduğunu eşidəndə bir yerə toplaşdılar. 35Onlardan biri olan qanunşünas İsanı sınamaq məqsədi ilə Ondan bunu soruşdu: 36«Müəllim, Qanunda ən böyük əmr hansıdır?» 37İsa ona dedi: «“Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla və bütün düşüncənlə sev”. 38Bu, böyük və əsas əmrdir. 39Buna bənzəyən ikincisi budur: “Qonşunu özün kimi sev”. 40Bütün Qanun və Peyğəmbərlərin sözləri bu iki əmrə əsaslanır».

### *Məsih kimin Oğludur?*

*(Mark 12:35-37; Luka 20:41-44)*

41Fariseylər toplaşdıqda İsa onlardan bunu soruşdu: 42«Məsih haqqında nə düşünürsünüz? O kimin Oğludur?» Onlar da İsaya «Davudun Oğlu» dedilər. 43İsa onlara dedi: «Elə isə, nə üçün Davud Ruh vasitəsilə Ona “Ağa” deyə müraciət edir?

44“Rəbb mənim Ağama dedi:
‹Mən düşmənlərini ayaqlarının
altına salanadək
Sağımda otur›”

deyib. 45Əgər Davud Ona “Ağa” deyə müraciət edirsə, O necə Davudun oğlu ola bilər?» 46Bunun cavabında İsaya kimsə bir söz deyə bilmədi. O gündən sonra artıq heç kim Ondan bir şey soruşmağa cəsarət etmədi.

### *Vay halınıza!*

*(Luka 11:39-51)*

23 1Bundan sonra İsa camaata və şagirdlərinə müraciət edib 2dedi: «İlahiyyatçılar və fariseylər Musanın kürsüsündə oturmuşlar. 3Buna görə də sizə əmr etdikləri hər şeyə riayət və əməl edin. Amma onların etdiklərini etməyin, çünki söyləyərlər, amma riayət etməzlər. 4Ağır və çətin daşına bilən yükləri bağlayıb insanların çiyninə yükləyərlər, özləri isə bu yükləri daşımaq üçün barmaqlarını belə, tərpətmək istəməzlər. 5Onlar öz əməllərinin hamısını insanlar görsün deyə edərlər. Çünki onlar dua qutucuqlarını[a] genişləndirib geyimlərinin qotazlarını[b] uzadarlar. 6Ziyafətlərdə yuxarı başı və sinaqoqlarda baş kürsüləri tutmağı, 7bazar meydanlarında salam almağı, insanların onlara “Rabbi!”[c] deyə xitab etməsini sevərlər.

8Amma kimsə sizi “Rabbi” deyə çağırmasın. Çünki sizin bir Müəlliminiz var.[d] Siz hamınızsa qardaşsınız. 9Yer üzündə kimsəyə “ata” deməyin. Çünki bir Atanız var, O da Səmavi Atadır. 10Kimsə sizə “rəhbər” deməsin. Çünki bir Rəhbəriniz var, O da Məsihdir. 11Aranızda ən böyük olan

a **23:5** *Dua qutucuqları* – Bu qutucuğa Tövratdan götürülən bəzi ayələr qoyulur. Yəhudilər dua edən zaman onu ya alına, ya da qola bağlayırlar.

b **23:5** *Qotaz* – Rəbbin əmrlərini xatırlamaq üçün geyimlərin dörd tərəfinə taxılır. Bax: Say. 15:38-40; Qanun. 22:12.

c **23:7** *Rabbi* – yəni Müəllim.

d **23:8** *Var* – bəzi əlyazmalarda *var, O da Məsihdir.*

**22:37** *Qanun. 6:5* **22:39** *Lev. 19:18* **22:44** *Zəb. 110:1* **23:5-6** *Mark 12:38-39; Luka 20:46*
**23:11** *Mat. 20:25-27; Mark 9:35; 10:43-44; Luka 22:25-26*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 36



xidmətçiniz olsun. 12Kim özünü yüksəldərsə, aşağı tutulacaq və kim özünü aşağı tutarsa, yüksəldiləcək.

13Vay halınıza, ey ilahiyyatçılar və fariseylər – ikiüzlülər! Çünki siz Səmavi Padşahlığı insanların üzünə qapayırsınız. Nə özünüz girirsiniz, nə də girmək istəyənləri buraxırsınız. 14[a]

15Vay halınıza, ey ilahiyyatçılar və fariseylər – ikiüzlülər! Çünki siz dənizi və qurunu dolaşırsınız ki, bir nəfəri dinə gətirəsiniz. Dinə gətirdikdə isə onu özünüzdən ikiqat artıq cəhənnəmlik edirsiniz.

16Vay halınıza, ey kor rəhbərlər! Deyirsiniz ki, “kim məbədə and içirsə, əhəmiyyətli bir şey deyil, lakin kim məbədin qızılına and içirsə, öz andına borcludur”. 17Ey ağılsızlar və korlar! Hansı daha böyükdür? Qızılmı, yoxsa qızılı təqdis edən məbədmi? 18Yenə də deyirsiniz ki, “kim qurbangaha and içirsə, əhəmiyyətli bir şey deyil; lakin qurbangah üzərindəki qurbana and içən öz andını yerinə yetirməlidir”. 19Ey korlar![b] Hansı daha böyükdür? Qurbanmı, yoxsa qurbanı təqdis edən qurbangahmı? 20Beləliklə, qurbangaha and içən kəs ona və onun üstündə olan bütün şeylərə and içir. 21Məbədə and içən kəs ona və içində Yaşayana and içir. 22Göyə and içən kəs də Allahın taxtına və taxtda Oturana and içir.

23Vay halınıza, ey ilahiyyatçılar və fariseylər – ikiüzlülər! Çünki siz nanə, şüyüd və zirənin onda birini verirsiniz, lakin Qanunun daha vacib işlərini, ədaləti, mərhəməti və imanı atırsınız. Amma onda birini verməklə yanaşı bunları da yerinə yetirməli idiniz. 24Ey kor rəhbərlər! Ağcaqanadı süzgəclə çıxarır, dəvəni isə udursunuz!

25Vay halınıza, ey ilahiyyatçılar və fariseylər – ikiüzlülər! Çünki siz kasanın və boşqabın bayır tərəfini təmizləyirsiniz, lakin onların daxili soyğunçuluq və pozğunluqla doludur. 26Sən, ey kor farisey! Əvvəlcə kasanın[c] daxilini təmizlə ki, bayır tərəfi də təmiz olsun!

27Vay halınıza, ey ilahiyyatçılar və fariseylər – ikiüzlülər! Çünki siz ağardılmış məqbərələrə bənzəyirsiniz: onların bayır tərəfi gözəl görünür, daxili isə ölü sümükləri və hər cür murdarlıqla doludur. 28Siz də zahirən insanlara saleh görünürsünüz, daxilən isə ikiüzlülük və qanunsuzluqla dolusunuz.

29Vay halınıza, ey ilahiyyatçılar və fariseylər – ikiüzlülər! Çünki siz peyğəmbərlərə məqbərələr tikirsiniz, salehlərin abidələrini bəzəyirsiniz. 30“Biz ata-babalarımızın yaşadığı günlərdə yaşasaydıq, peyğəmbərlərin qanını tökməkdə onlarla şərik olmazdıq” deyirsiniz. 31Beləliklə, peyğəmbərləri öldürənlərin övladları olduğunuza özünüz şəhadət edirsiniz. 32Elə isə, ata-babalarınızın başladığı işi başa çatdırın! 33Siz ey ilanlar, gürzələr nəsli!

---

a **23:13-14** *İkiüzlülər! …buraxırsınız* – bəzi əlyazmalarda *ikiüzlülər! Çünki siz dul qadınların evlərini yeyib-dağıdar və özlərinizi göstərmək üçün uzun-uzadı dua edərsiniz. Bunun üçün sizin cəzanız daha ağır olacaq.* **14** *Vay halınıza, ey ilahiyyatçılar və fariseylər – ikiüzlülər! Çünki siz Səmavi Padşahlığı insanların üzünə qapayırsınız. Nə özünüz girirsiniz, nə də girmək istəyənləri buraxırsınız* (Mark 12:40; Luka 20:47), bəzilərində isə 13-cü ayə ilə 14-cü ayənin yeri dəyişikdir.

b **23:19** *Korlar* – bəzi əlyazmalarda *ağılsızlar və korlar.*

c **23:26** *Kasanın* – bəzi əlyazmalarda *kasanın və boşqabın.*

**23:12** *Luka 14:11; 18:14* **23:22** *Yeş. 66:1; Mat. 5:34-35* **23:23** *Lev. 27:30* **23:27** *Həv. 23:3*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 37



Cəhənnəmə məhkum edilməkdən necə
qaçacaqsınız?
34Ona görə də Mən sizə peyğəm-
bərlər, müdrik adamlar və ilahiyyat-
çılar göndərirəm. Siz onlardan bəzisini
öldürəcək və çarmıxa çəkəcəksiniz.
Bəzisini sinaqoqlarınızda qamçılaya-
caq və şəhərdən şəhərə qovacaqsınız;
35belə ki saleh olan Habilin qanından
tutmuş məbədlə qurbangahın arasında
öldürdüyünüz Berekya oğlu Zəkəriy-
yənin qanına qədər yer üzündə tökülən
bütün saleh adamların qanı üçün mə-
suliyyət daşıyasınız. 36Sizə doğrusunu
deyirəm: bütün bu şeylər üçün bu nəsil
məsuliyyət daşıyacaq.

### *Yerusəlimin aqibəti*

*(Luka 13:34-35)*

37Ey Yerusəlim, Yerusəlim! Pey-
ğəmbərləri öldürən və ora göndəri-
lənləri daşqalaq edən şəhər! Toyuq
cücələrini qanadları altına yığan kimi
Mən də dəfələrlə sənin övladlarını
yığmaq istədim, sizsə istəmədiniz!
38Baxın, eviniz viran qalır. 39Çünki
Mən sizə bunu deyirəm:

“Rəbbin ismi ilə Gələnə
alqış olsun!”

deyənə qədər Məni bir daha görməyə-
cəksiniz».

### *Axır zamanın əlamətləri*

*(Mark 13:1-23; Luka 21:5-24)*

24 1İsa məbəddən çıxıb gedərkən
şagirdləri məbədin binalarını
Ona göstərmək üçün yanına gəldilər.
2İsa onlara cavab verib dedi: «Bütün
bunları görürsünüzmü? Sizə doğrusu-
nu deyirəm: onların daşı daş üstündə
qalmayacaq, hamısı yerlə yeksan ola-
caq».
3İsa Zeytun dağında oturanda şa-
girdlər ayrılıqda Onun yanına gəlib
dedilər: «Bizə söylə, bu dediklərin nə
vaxt baş verəcək? Sənin zühurun və
dövrün sonuna hansı əlamətlər ola-
caq?» 4İsa onlara cavab verib dedi:
«Ehtiyatlı olun, qoy sizi heç kim
aldatmasın. 5Çünki Mənim adımla çox
adam gəlib “Məsih mənəm” deyərək
çoxlarını aldadacaq. 6Siz müharibələr
və müharibə xəbərləri eşidəcəksiniz.
Amma təlaşa düşməyin. Bunlar baş
verməlidir, amma bu hələ hər şeyin
axırı deyil. 7Çünki millət millətə,
padşahlıq padşahlığa qarşı çıxacaq.
Yerbəyer aclıq[a] və zəlzələlər olacaq.
8Bütün bunlar sanki doğuş ağrılarının
başlanğıcıdır.
9O zaman sizi əziyyətə təslim edib
öldürəcəklər. Mənim adıma görə bü-
tün millətlər sizə nifrət edəcək. 10Onda
bir çoxu imandan büdrəyərək bir-
birini təslim edəcək və bir-birinə nifrət
edəcək. 11Bir çox yalançı peyğəmbər
törəyib çox adamı aldadacaq. 12Qa-
nunsuzluq çoxaldığı üçün bir çoxunun
məhəbbəti soyuyacaq. 13Amma axıra-
can dözən xilas olacaq. 14Səmavi Pad-
şahlığın bu Müjdəsi bütün millətlərə
şəhadət olmaq üçün bütün dünyada
vəz ediləcək. O zaman hər şeyin axırı
gələcək.
15Bələliklə, Daniel peyğəmbərin
bəhs etdiyi viranəlik gətirən iyrənc
şeyin Müqəddəs məkanda qoyuldu-
ğunu gördüyünüz zaman – qoy oxuyan
bunu anlasın – 16Yəhudeyada olanlar
dağlara qaçsın. 17Damda olan evin-

a **24:7** *Aclıq* – bəzi əlyazmalarda *aclıq, vəba.*
**23:33** *Mat. 3:7; 12:34; Luka 3:7* **23:35** *Yar. 4:8; 2Saln. 24:20-21* **23:38** *Yer. 12:7; 22:5; 26:6*
**23:39** *Zəb. 118:26* **24:9** *Mat. 10:22* **24:13** *Mat. 10:22* **24:15-16** *Dan. 9:27; 11:31; 12:11*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 38



dəki əşyaları götürmək üçün aşağı
enməsin. 18Tarlada olan üst paltarını
götürmək üçün geri qayıtmasın.
19Həmin günlər hamilələrin və körpə
əmizdirənlərin vay halına! 20Dua edin
ki, qaçmağınız qış fəslində və ya Şənbə
günündə baş verməsin. 21Çünki o vaxt
elə dəhşətli əzab-əziyyət olacaq ki,
dünyanın başlanğıcından indiyə qədər
beləsi olmayıb və heç olmayacaq da.
22Əgər o günlər qısaldılmasaydı, heç
bir insan xilas ola bilməzdi. Amma
seçilmişlərə görə o günlər qısaldılacaq.

23O zaman əgər kimsə sizə desə ki,
“bax, Məsih buradadır” yaxud da
“oradadır”, inanmayın. 24Çünki ya-
lançı məsihlər və yalançı peyğəmbər-
lər törəyəcək. Onlar böyük əlamətlər
və xariqələr göstərəcəklər ki, imkan
taparlarsa, seçilmişləri də aldatsınlar.
25Bax Mən sizə əvvəlcədən söyləmi-
şəm. 26Ona görə sizə “bax, O
çöldədir” desələr də, çıxmayın. “Bax,
O daxili otaqlardadır” desələr də,
inanmayın. 27Çünki şimşək şərqdə
çaxıb qərbdə belə, göründüyü kimi
Bəşər Oğlunun zühuru da elə olacaq.
28Leş haradadırsa, kərkəslər də orada
toplaşar.

### *Bəşər Oğlunun zühuru*

*(Mark 13:24-31; Luka 21:25-33)*

29Amma o günlərin əzab-əziyyə-
tindən dərhal sonra

Günəş tutulacaq,
Ay nurunu saçmayacaq,
Ulduzlar göydən töküləcək,
Səma cisimləri lərzəyə gələcək.

30O zaman Bəşər Oğlunun əlaməti
göydə görünəcək. O vaxt yer üzünün
bütün tayfaları şivən qoparacaq və
Bəşər Oğlunun göyün buludları üzə-
rində qüdrət və böyük izzətlə gəldiyini
görəcək. 31O, mələklərini uca şeypur
səsi ilə göndərəcək. Mələklər də göy-
lərin bir ucundan o biri ucuna qədər
dörd külək istiqamətindən Onun seç-
diklərini toplayacaq.

32Əncir ağacından ibrət alın: onun
budağı cücərib yarpaqlananda bilir-
siniz ki, yay fəsli artıq yaxındır.
33Eləcə siz də bütün bu şeyləri görəndə
bilin ki, Bəşər Oğlu yaxındadır, lap
qapıdadır. 34Sizə doğrusunu deyirəm:
bu nəsil ömrünü sona çatdırmazdan
əvvəl bütün bunlar baş verəcək. 35Yer
və göy keçib gedəcək, amma Mənim
sözlərim əsla keçib getməyəcək.

### *Bilinməyən gün və saat*

*(Luka 12:39-48; 17:26-35)*

36Lakin o günü və o saatı nə
göylərin mələkləri, nə də Oğul bilir.[a]
Atadan başqa heç kim bilmir. 37Nu-
hun günləri necə idisə, Bəşər Oğlunun
zühuru da elə olacaq. 38Daşqından
əvvəlki həmin günlərdə, Nuhun gəmi-
yə girdiyi günə qədər insanlar yeyib-
içir, evlənir, ərə gedirdi. 39Daşqın gəlib
hamısını aparana qədər bixəbər idilər.
Bəşər Oğlunun zühuru da belə olacaq.
40O zaman tarladakı iki nəfərdən biri
götürüləcək, o birisi isə qalacaq.
41Dəyirmanda dən üyüdən iki qadın-
dan biri götürüləcək, o birisi isə qa-
lacaq.

42Ona görə də oyaq olun. Çünki
Rəbbinizin hansı gün[a] gələcəyini
bilmirsiniz. 43Amma bunu bilin ki,
əgər evin yiyəsi oğrunun gecə hansı

---

a **24:36** *Nə göylərin mələkləri, nə də Oğul bilir* – bəzi əlyazmalarda *göylərin mələkləri belə, bilmir.*

**24:17-18** *Luka 17:31* **24:21** *Dan. 12:1; Vəhy 7:14* **24:23** *Luka 17:21,23* **24:26-27** *Luka 17:23-24*
**24:28** *Əyy. 39:30; Luka 17:37* **24:29** *Yeş. 13:10; 34:4; Yez. 32:7; Yoel 2:10,31; 3:15; Vəhy 6:12-13*
**24:30** *Dan. 7:13; Vəhy 1:7* **24:36** *Mark 13:32* **24:37** *Yar. 6:5-8* **24:39** *Yar. 7:6-24*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 39



saatda gələcəyini bilsəydi, oyaq qalıb evinin yarılmasına imkan verməzdi. 44Buna görə siz də hazır olun, çünki Bəşər Oğlu gözləmədiyiniz vaxt gələcək.

45Vaxtlı-vaxtında onlara yemək vermək üçün ağasının öz nökərləri üzərinə qoyduğu sadiq və ağıllı qul kimdir? 46Nə bəxtiyardır o qul ki, ağası evinə qayıdanda onu iş başında görür! 47Sizə doğrusunu deyirəm: ağası bu qula bütün əmlakı üzərində idarəçiliyi tapşıracaq. 48Amma həmin qul pis olub ürəyində "ağam gec gələcək" deyərsə, 49öz yoldaşlarını döyməyə və əyyaşlarla yeyib-içməyə başlayarsa, 50o qulun ağası onun gözləmədiyi gün və ağlına gəlmədiyi vaxt gələcək, 51ona ağır cəza verəcək və onu ikiüzlülərlə bir yerdə saxlayacaq. Orada ağlaşma və diş qıcırtısı olacaq.

## *On qız məsəli*

**25** 1O zaman Səmavi Padşahlıq çıraqlarını götürüb bəyin qarşısına çıxan on qıza bənzəyəcək. 2Onlardan beşi ağıllı, beşi isə ağılsız idi. 3Ağılsızlar özləri ilə çıraqlarını götürmüşdü, amma yağ götürməmişdi. 4Ağıllılarsa çıraqları ilə birgə qablarda yağ da götürmüşdü. 5Lakin bəy gecikdiyindən hamısını yuxu basdı və onlar yatdı. 6Amma gecə yarısı bir qışqırıq qopdu: "Budur, bəy gəlir, onu qarşılamağa çıxın!" 7O zaman o qızların hamısı durub öz çıraqlarını düzəltdilər. 8Ağılsızlar ağıllılara dedi: "Yağınızdan bizə də verin, çünki çıraqlarımız sönür". 9Ağıllılarsa cavab verib dedilər: "Belə olmasın ki, yağ nə bizə çatsın, nə sizə. Yaxşısı budur ki, gedib satıcılardan alasınız". 10Onlar yağ satın almağa getdikləri zaman bəy gəldi. Hazır olanlar onunla toy məclisinə girdilər və qapı bağlandı. 11O biri qızlar da sonradan gəlib "Ağa! Ağa! Qapını bizə aç!" dedilər. 12O isə cavab verib dedi: "Sizə doğrusunu deyirəm: sizi tanımıram". 13Beləliklə, oyaq olun. Çünki siz nə günü,[b] nə də saatı bilirsiniz.

## *Əmanət pul məsəli*

*(Luka 19:11-27)*

14Səmavi Padşahlıq səyahətə çıxan bir adama bənzəyir. O, qullarını çağırıb əmlakını onlara əmanət etdi. 15O hər birinə öz qabiliyyətinə görə – birinə beş, birinə iki, birinə də bir talant verdi və yola düşdü. 16Beş talant alan dərhal gedib bunları sərmayəyə qoydu, daha beş talant qazandı. 17İki talant alan da beləcə daha iki talant qazandı. 18Bir talant alansa gedib torpağı qazdı və ağasının pulunu gizlətdi.

19Uzun zamandan sonra həmin qulların ağası gəldi və onlardan hesabat tələb etdi. 20Beş talant alan gəlib daha beş talant gətirərək dedi: "Ağa, sən mənə beş talant əmanət etdin. Budur, mən daha beş talant qazandım". 21Ağası ona dedi: "Afərin, yaxşı və sadiq qulum! Sən xırda işlərdə sadiq oldun, səni böyük işlər üzərinə qoyacağam. Ağanın sevincinə şərik ol!"

22İki talant alan da gəlib dedi: "Ağa, mənə iki talant əmanət etdin.

a **24:42** *Hansı gün* – bəzi əlyazmalarda *nə vaxt.*

b **25:13** *Nə günü* – bəzi əlyazmalarda *Bəşər Oğlunun gələcəyi nə günü.*

**24:42** *Mark 13:35* **24:43-44** *Luka 12:39-40; Vəhy 3:3; 16:15* **25:1** *Luka 12:35*
**25:11-12** *Luka 13:25* **25:13** *Mark 13:33* **25:14-15** *Mark 13:34*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 40



Budur, mən daha iki talant qazan-
dım”. 23Ağası ona dedi: “Afərin, yaxşı
və sadiq qulum! Sən xırda işlərdə sadiq
oldun, səni böyük işlər üzərinə qoya-
cağam. Ağanın sevincinə şərik ol!”

24Bir talant alan da gəlib dedi:
“Ağa, sənin sərt bir adam olduğunu
bilirdim. Əkmədiyin yerdən biçərsən,
səpmədiyin yerdən yığarsan. 25Ona
görə qorxdum, gedib sənin talantını
torpaqda gizlətdim. Buyur, öz malını
geri götür!” 26Ağası isə cavab verib
ona dedi: “Pis və tənbəl qul! Mənim
əkmədiyim yerdən biçdiyimi və səpmə-
diyim yerdən yığdığımı bilirdinmi?
27Onda gərək mənim pulumu sərraf-
lara verəydin ki, mən qayıdanda onu
faizlə geri alım. 28İndi əlindəki talantı
ondan alın və on talantı olana verin!
29Çünki kimin varıdırsa, daha çox
veriləcək və o, bolluq içində olacaq,
kimin yoxudursa, əlində olan da on-
dan alınacaq. 30Yaramaz qulu isə qa-
ranlıq çölə atın. Orada ağlaşma və diş
qıcırtısı olacaq”.

### *Qoyunlar və keçilər*

31Bəşər Oğlu bütün mələklərlə bir-
likdə izzəti ilə gələn zaman Öz izzətli
taxtına oturacaq. 32Bütün millətlər
Onun önündə toplaşacaq, O da qo-
yunları keçilərdən ayıran bir çoban
kimi onları bir-birindən ayıracaq.
33Qoyunları sağına, keçiləri isə soluna
qoyacaq.

34O zaman Padşah sağındakılara
deyəcək: “Ey sizlər, Atamın xeyir-dua
verdiyi adamlar! Gəlin, dünya yara-
nandan bəri sizin üçün hazırlanmış
olan Padşahlığı irs alın. 35Çünki ac
idim, Mənə yemək verdiniz; susamış-
dım, Mənə su verdiniz; qərib idim,
Məni qəbul etdiniz; 36çılpaq idim,
Məni geyindirdiniz; xəstə idim, qay-
ğımı çəkdiniz; zindanda idim, yanıma
gəldiniz”. 37Onda salehlər Ona cavab
verib deyəcəklər: “Ya Rəbb, biz Səni
nə vaxt ac görüb yemək verdik və ya
susamış görüb su verdik? 38Nə vaxt
Səni qərib görüb qəbul etdik və ya
çılpaq görüb geyindirdik? 39Nə vaxt
Səni xəstə və ya zindanda görüb
yanına gəldik?” 40Padşah da cavab
verib onlara deyəcək: “Sizə doğrusunu
deyirəm: siz bu ən kiçik qardaşla-
rımdan birinə etdiyinizi Mənə etmiş
oldunuz”.

41O zaman solundakılara deyəcək:
“Ey lənətə gəlmişlər, çəkilin önümdən!
İblislə onun mələklərinə hazırlanmış
olan əbədi oda yollanın! 42Çünki ac
idim, Mənə yemək vermədiniz; susa-
mışdım, Mənə su vermədiniz; 43qərib
idim, Məni qəbul etmədiniz; çılpaq
idim, Məni geyindirmədiniz; xəstə və
zindanda idim, qayğımı çəkmədiniz”.
44Onda onlar da cavab verib deyə-
cəklər: “Ya Rəbb, Səni nə vaxt ac,
susamış, qərib, çılpaq, xəstə və yaxud
zindanda gördük ki, Sənə xidmət
etmədik?” 45O zaman onlara cavab ve-
rib deyəcək: “Sizə doğrusunu deyirəm:
siz bu ən kiçiklərdən birinə etmədiyi-
nizi Mənə etməmiş oldunuz”.
46Bunlar əbədi əzaba, salehlərsə əbədi
həyata gedəcək».

### *İsanı öldürmək üçün sui-qəsd hazırlanır*

*(Mark 14:1-2; Luka 22:1-2; Yəh. 11:45-53)*

26 1İsa bütün bu sözləri bitirən-
dən sonra şagirdlərinə dedi:

**25:29** *Mat. 13:12; Mark 4:25; Luka 8:18* **25:30** *Mat. 8:12; 22:13; Luka 13:28*
**25:31** *Mat. 16:27; 19:28* **25:46** *Dan. 12:2*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 41



2«İki gün sonra Pasxa bayramı olaca-
ğını bilirsiniz. Bəşər Oğlu çarmıxa
çəkilmək üçün təslim ediləcək».
3O zaman başçı kahinlər[a] və xalqın
ağsaqqalları Qayafa adlı baş kahinin
həyətinə toplaşdılar. 4İsanı hiylə ilə
tutub öldürmək üçün sui-qəsd hazır-
ladılar. 5Amma deyirdilər: «Bunu bay-
ramda etməyək, yoxsa xalq arasında
qarışıqlıq düşər».

### *İsa Bet-Anyada*

*(Mark 14:3-9; Yəh. 12:1-8)*

6İsa Bet-Anyada cüzamlı Şimonun
evində ikən 7bir qadın Onun yanına
gəldi və qadının əlində içində çox
bahalı ətirli yağ olan ağ mərmər qab
var idi. İsa süfrəyə oturanda qadın
yağı Onun başına tökdü. 8Şagirdlər
bunu gördükdə acıqlanıb dedilər: «Bu
israfçılıq nə üçündür? 9Axı bu ətiri
baha qiymətə satıb pulunu yoxsullara
vermək olardı». 10Lakin İsa bunu
bilərək dedi: «Niyə qadını incidirsiniz?
O Mənim üçün gözəl bir iş gördü.
11Yoxsullar həmişə sizin yanınızdadır,
Mənsə həmişə yanınızda olmayaca-
ğam. 12Qadın bu ətiri Mənim bədə-
nimə tökməklə Məni dəfn üçün ha-
zırladı. 13Sizə doğrusunu deyirəm:
dünyanın hansı yerində Müjdə vəz
edilərsə, bu qadının etdiyi iş də danı-
şılacaq ki, o yada salınsın».

### *Yəhudanın xəyanəti*

*(Mark 14:10-11; Luka 22:3-6; Yəh. 13:18-30)*

14O zaman On İki şagirddən Yə-
huda İskaryot adlı biri başçı kahin-
lərin yanına gedib dedi: 15«Onu sizə
təslim etsəm, mənə nə verərsiniz?»
Onlar da Yəhudaya otuz gümüş təklif
etdilər. 16O vaxtdan Yəhuda İsanı
təslim etmək üçün fürsət axtarmağa
başladı.

### *Axırıncı şam yeməyi*

*(Mark 14:12-26; Luka 22:7-23;
Yəh. 13:21-30; 1Kor. 11:23-25)*

17Mayasız Çörək bayramının ilk
günü şagirdlər İsanın yanına gəlib
dedilər: «Sənin Pasxa yeməyin üçün
harada hazırlıq görməyimizi istəyir-
sən?» 18O da cavab verdi: «Şəhərə
girib filankəsin yanına gedin və ona
deyin: "Müəllim deyir: ‹Vaxtım yaxın-
laşdı, şagirdlərimlə birgə Pasxanı sənin
evində keçirəcəyəm›"». 19Şagirdlər
İsanın əmrini yerinə yetirərək Pasxa
yeməyi üçün hazırlıq etdilər.
20Axşam düşəndə İsa On İki şagirdi
ilə birgə süfrəyə oturdu. 21Onlar ye-
mək yeyərkən İsa dedi: «Sizə doğru-
sunu deyirəm: sizlərdən biri Mənə
xəyanət edəcək». 22Onlar çox kədər-
lənib bir-bir Ondan soruşdular: «Ya
Rəbb, mən deyiləm ki?» 23O cavab
verib dedi: «Mənimlə birlikdə əlini
qaba batıran Mənə xəyanət edəcək.
24Bəşər Oğlu Özü barəsində yazıldığı
kimi gedir. Amma vay o adamın
halına ki, Bəşər Oğluna xəyanət edir!
O adam heç doğulmasaydı, onun üçün
daha yaxşı olardı». 25Ona xəyanət
edən Yəhuda «Rabbi, mən deyiləm
ki?» deyə soruşdu. İsa da ona «sən
dediyin kimidir» dedi.
26Onlar yeyəndə İsa çörək götürdü,
şükür duası edib onu böldü və
şagirdlərə verərək dedi: «Alın, yeyin!
Bu Mənim bədənimdir». 27Sonra bir
kasa götürdü və şükür edib onu da
şagirdlərə verərək dedi: «Bundan ha-

---

a **26:3** *Kahinlər* – bəzi əlyazmalarda *kahinlər, ilahiyyatçılar.*

**26:1-2** *Çıx. 12:1-27* **26:6-7** *Luka 7:37-38* **26:11** *Qanun. 15:11* **26:23** *Zəb. 41:9*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 42



mınız için! 28Çünki bu, Əhdin[a] bağ-
lanması və günahların bağışlanması
üçün çoxları uğrunda axıdılan Mənim
qanımdır. 29Mən sizə deyirəm: Ata-
mın Padşahlığında sizinlə birlikdə
təzəsini içəcəyim günə qədər üzüm
ağacının bu məhsulundan əsla içmə-
yəcəyəm».

30Onlar ilahi oxuyandan sonra
çıxdılar və Zeytun dağına tərəf getdi-
lər.

### *Peterin inkarı əvvəlcədən bildirilir*

*(Mark 14:27-31; Luka 22:31-34;*
*Yəh. 13:36-38)*

31Onda İsa şagirdlərinə dedi: «Bu
gecə hamınız Məni atıb gedəcəksiniz,[b]
çünki belə yazılıb:

“Çobanı vuracağam,
Sürünün qoyunları pərən-pərən
olacaq”.

32Amma Mən diriləndən sonra sizdən
qabaq Qalileyaya gedəcəyəm».
33Peter Ona cavab verib dedi: «Hamı
Səni atıb getsə də, mən əsla atıb
getməyəcəyəm». 34İsa ona dedi: «Sənə
doğrusunu deyirəm: bu gecə xoruz
banlamazdan əvvəl sən Məni üç dəfə
inkar edəcəksən». 35Peter Ona dedi:
«Əgər Səninlə birlikdə ölməyim lazım
olsa belə, Səni əsla inkar etməyə-
cəyəm». Bütün şagirdlər də belə de-
dilər.

### *Getsemani bağında*

*(Mark 14:32-42; Luka 22:39-46)*

36Sonra İsa şagirdlərlə birlikdə
Getsemani adlanan bir yerə gəldi və
onlara dedi: «Mən oraya gedib dua
edərkən siz burada oturub-qalın».
37O, Peter ilə Zavdayın iki oğlunu Özü
ilə apardı. Özündə bir kədər və na-
rahatlıq hiss etməyə başladı. 38Onlara
belə dedi: «Ürəyimi elə dərin kədər bü-
rüyüb, az qalır ki, ölüm. Burada qalın
və Mənimlə birlikdə oyaq olun».

39İsa bir qədər irəli getdi və üzüstə
yerə qapanıb dua etdi: «Ey Atam,
mümkündürsə, qoy bu kasa[c] Məndən
yan keçsin. Amma Mənim yox, Sənin
iradən olsun». 40İsa şagirdlərin yanına
qayıdıb gördü ki, onlar yatıb. O, Peteri
səslədi: «Məgər Mənimlə birlikdə bir
saat oyaq qala bilməzdinizmi? 41Oyaq
durub dua edin ki, sınağa düşməyə-
siniz. Ruh həvəsli, cisim isə gücsüz-
dür». 42İsa yenə ikinci dəfə uzaqlaşdı
və dua etdi: «Ey Atam, əgər Mən
içmədən bu kasanın keçməsi mümkün
deyilsə, qoy Sənin iradən olsun».

43İsa qayıdanda gördü ki, onlar
yenə yatıb. Çünki onların gözləri yu-
mulurdu. 44Onları tərk edib təkrarən
uzaqlaşdı, yenə eyni sözlərlə üçüncü
dəfə dua etdi. 45Sonra İsa şagirdlərin
yanına qayıdıb onlara dedi: «Hələ də
yatıb dincəlirsiniz? Budur, vaxt yaxın-
laşıb və Bəşər Oğlu günahkarların
əlinə təslim olunur. 46Qalxın gedək.
Budur, Mənə xəyanət edən gəlir!»

### *İsa həbs olunur*

*(Mark 14:43-50; Luka 22:47-53; Yəh. 18:3-12)*

47İsa hələ danışarkən On İki şa-
girddən biri olan Yəhuda gəldi. Onun
yanında başçı kahinlərin və xalqın
ağsaqqallarının göndərdiyi əli qılınclı
və dəyənəkli böyük bir dəstə adam var

---

a **26:28** *Əhdin* – bəzi əlyazmalarda *Yeni Əhdin* (Luka 22:20).
b **26:31** *Məni atıb gedəcəksiniz* – hərfi tərcümədə *Məndə büdrəyəcəksiniz.*
c **26:39** *Kasa* – İsanın çarmıxdakı ölümünün rəmzidir.
**26:28** *Çıx. 24:8; Yer. 31:31-34* **26:31** *Zək. 13:7* **26:32** *Mat. 28:16*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 43



idi. 48İsaya xəyanət edən Yəhuda
onlara işarə ilə bildirib demişdi:
«Kimi öpsəm, İsa Odur, Onu tutun».
49O anda İsaya yaxınlaşıb «Salam,
Rabbi!» deyərək Onu öpdü. 50İsa da
ona «Dostum, nə üçün gəlmisən?»
dedi. Elə bu vaxt İsaya yaxınlaşıb əl
ataraq Onu tutdular. 51Onda İsa ilə
birlikdə olanlardan biri əl atıb
qılıncını çəkdi və baş kahinin qulunu
vurub qulağını qopartdı. 52İsa ona
dedi: «Qılıncını yerinə qoy, çünki
qılınc çəkənlərin hamısı qılıncla məhv
olacaq. 53Yoxsa elə düşünürsən ki,
Atamdan yardım istəyə bilmərəm?
İstəsəm, dərhal Mənə on iki legion-
dan[a] artıq mələk göndərər. 54"Bun-
ların olması gərəkdir" deyən Müqəd-
dəs Yazılar onda bəs necə yerinə
yetərdi?»

55Həmin vaxt İsa camaata dedi:
«Nə üçün quldur üstünə gələn kimi
qılınc və dəyənəklərlə Məni tutmağa
gəlmisiniz? Hər gün məbəddə oturub[b]
təlim verirdim, heç Məni tutmadınız.
56Amma bunların hamısı peyğəmbər-
lərin Yazıları yerinə yetsin deyə baş
verdi». Onda bütün şagirdlər İsanı atıb
qaçdılar.

### *İsa Ali Şuranın önündə*

*(Mark 14:53-65; Luka 22:54-55,63-71; Yəh. 18:13-24)*

57İsanı həbs edənlər Onu baş kahin
Qayafanın yanına gətirdilər. İlahiyyat-
çılar və ağsaqqallar da oraya toplaşdı.
58Peter uzaqdan baş kahinin həyətinə
qədər İsanın ardınca gedirdi, sonu
görmək üçün içəri girib mühafizəçilərlə
birgə oturdu.

59Başçı kahinlər[c] və Ali Şuranın
hamısı İsanı edam etmək üçün Onun
əleyhinə yalançı şahidlik ifadəsi axta-
rırdılar. 60Çoxlu yalançı şahid gəldi,
lakin yenə də axtardıqlarını tapma-
dılar. Axırda iki şahid gəlib 61dedi:
«Bu Adam dedi: "Mən Allahın məbə-
dini dağıdıb üç gün ərzində tikə bilə-
rəm"».

62Baş kahin ayağa qalxıb İsaya
dedi: «Sənin heç cavabın yoxdur?
Onlar Sənin əleyhinə bu nə ifadədir
verirlər?» 63Amma İsa susmaqda
davam etdi. Baş kahin isə Ona dedi:
«Səni var olan Allaha and etdirirəm,
bizə de, Allahın Oğlu Məsih Sənsən-
mi?» 64İsa da ona dedi: «Sənin dediyin
kimidir. Hətta sizə deyirəm: bundan
sonra Bəşər Oğlunun Qüdrətli Olanın[d]
sağında oturduğunu və göyün bulud-
ları üzərində gəldiyini görəcəksiniz».
65Onda baş kahin əynindəki paltarını
cırıb dedi: «O, Allaha küfr etdi! Artıq
şahidlərə nə ehtiyacımız var? Elə indi
Onun küfr söylədiyini eşitdiniz! 66Bəs
buna nə deyirsiniz?» Onlar cavab ve-
rib dedilər: «O, ölüm cəzasına layiq-
dir».

67Elə bu vaxt İsanın üzünə tüpürüb
yumruq vurdular. Bəziləri də Ona şillə
vuraraq 68dedilər: «Ey Məsih, bizə
peyğəmbərlik elə görək, Səni vuran
kimdir?»

### *Peter İsanı inkar edir*

*(Mark 14:66-72; Luka 22:56-62; Yəh. 18:15-18,25-27)*

69Peter isə bayırda, həyətdə otur-

---

a **26:53** *Legion* – təqribən 6000 əsgər.
b **26:55** *Oturub* – bəzi əlyazmalarda *sizinlə birgə oturub.*
c **26:59** *Kahinlər* – bəzi əlyazmalarda *kahinlər, ağsaqqallar.*
d **26:64** *Qüdrətli Olan* – yəni Allah.

**26:55** *Luka 19:47; 21:37* **26:60-61** *Yəh. 2:19* **26:64** *Dan. 7:13* **26:65-66** *Lev. 24:16*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 44



muşdu. Bir qarabaş ona yaxınlaşıb
dedi: «Sən də Qalileyalı İsa ilə bir-
likdə idin». 70Amma Peter hamının
qarşısında inkar edərək dedi: «Bil-
mirəm, sən nə danışırsan». 71Sonra
darvazaya gələndə başqa bir qarabaş
onu görüb oradakılara dedi: «Bu
adam Nazaretli İsa ilə birlikdə idi».
72Peter yenə inkar edib and içdi:
«Mən o Adamı tanımıram». 73Bir az
sonra orada duranlar gəlib Peterə
dedilər: «Doğrudan da, sən də onlar-
dansan, çünki nitqin səni ifşa edir».
74Peter özünü qarğıyıb and içərək
dedi: «O Adamı tanımıram».

Həmin anda xoruz banladı. 75Peter
İsanın «xoruz banlamazdan əvvəl sən
Məni üç dəfə inkar edəcəksən» dediyi
sözü yadına saldı. Ona görə oradan
çıxıb hönkür-hönkür ağladı.

### *Yəhuda özünü asır*

*(Mark 15:1; Luka 23:1-2; Yəh. 18:28; Həv. 1:18-19)*

27 1Səhər açılanda bütün başçı
kahinlərlə xalqın ağsaqqalları
İsanı edam etmək üçün məşvərət etdi-
lər. 2İsanın əl-qolunu bağlayaraq vali
Pilatın yanına aparıb ona təslim etdi-
lər.

3O zaman İsaya xəyanət edən Yə-
huda Onun məhkum edildiyini görən-
də peşman oldu. Otuz gümüşü başçı
kahinlərə və ağsaqqallara geri gətirib
4«mən təqsirsiz qanı təslim etməklə
günah işlətdim» dedi. Onlarsa ona
«Bundan bizə nə? Özün bilərsən» de-
dilər. 5Yəhuda gümüş pulları məbədin
içinə atıb oradan çıxdı, gedib özünü
asdı.

6Başçı kahinlər gümüş pulları götü-
rüb dedilər: «Madam ki qan bahasıdır,
bu gümüş pulları məbədin xəzinəsinə
qoymağa icazəmiz yoxdur». 7Öz arala-
rında məşvərət keçirərək o pulla ya-
dellilləri dəfn etmək üçün dulusçunun
tarlasını satın aldılar. 8Buna görə o
tarlaya bu günə qədər «Qan tarlası»
deyilir. 9Beləcə Yeremya peyğəmbər
vasitəsilə söylənən bu söz yerinə yetdi:

«İsrail övladlarının qiymətlən-
dirdiyi Adamın dəyərini – otuz
gümüşü aldılar 10və Rəbbin mənə
buyurduğu kimi dulusçunun tarlası
üçün verdilər».

### *İsa Romalı vali Pilatın önündə*

*(Mark 15:2-15; Luka 23:3-5,13-25; Yəh. 18:29-19:16)*

11İsa valinin önündə dayanmışdı.
Vali Ondan «Yəhudilərin Padşahı
Sənsənmi?» deyə soruşdu. İsa da ona
dedi: «Sənin dediyin kimidir». 12Başçı
kahinlər və ağsaqqallar Onu ittiham
etdikləri vaxt İsa heç bir cavab ver-
mədi. 13Onda Pilat Ona dedi: «Sənin
əleyhinə edilən bu qədər şəhadəti
eşitmirsənmi?» 14İsa onun heç bir sö-
zünə cavab vermədi. Vali buna çox
heyrətləndi.

15Hər Pasxa bayramında valinin
xalqın istədiyi bir məhbusu azad
etməsi adət idi. 16O günlərdə Barabba
adlı məşhur bir məhbus həbsdə
saxlanılırdı. 17Beləliklə, onlar bir yerə
toplaşdıqları vaxt Pilat onlardan
soruşdu: «Sizin üçün kimi azad etmə-
yimi istəyirsiniz? Barabbanı, yoxsa
Məsih deyilən İsanı?» 18Çünki bilirdi
ki, onlar İsanı paxıllıqdan təslim et-
mişdilər.

19Pilat hökm kürsüsündə oturarkən

**26:67-68** *Yeş. 50:6* **27:9-10** *Zək. 11:12-13*

40_Mat Lat:Azeri Bible Cyrillic  30.09.2009  11:04  Page 45



arvadı «o saleh Adamla sənin heç bir
işin olmasın, çünki bu gün röyada Ona
görə çox əzablar çəkmişəm» deyə xə-
bər göndərdi.

**20**Başçı kahinlər və ağsaqqallarsa
xalqı təhrik edirdilər ki, Barabbanın
azad olmasını, İsanınsa ölümünü istə-
sinlər. **21**Vali onlardan soruşdu: «İki-
sindən hansını sizin üçün azad etmə-
yimi istəyirsiniz?» Onlar da «Barab-
banı» dedilər. **22**Pilat onlara «Elə isə
Məsih deyilən İsaya nə edim?» dedi.
Onların hamısı «Çarmıxa çəkilsin!»
dedilər. **23**Vali «Axı O nə pislik edib?»
deyə soruşdu. Onlarsa «Çarmıxa çə-
kilsin!» deyə daha ucadan bağırdılar.

**24**Pilat əlindən heç bir şeyin gəlmə-
diyini və əksinə, iğtişaşın gücləndiyini
görərək su götürüb xalqın önündə
əllərini yudu və belə dedi: «Mən bu
Adamın[a] qanı üçün təqsirkar deyiləm,
qoy sizin boynunuzda qalsın». **25**Bü-
tün xalq cavab verib dedi: «Onun
qanının məsuliyyəti bizim və övladla-
rımızın üzərinə olsun!» **26**Onda Pilat
onlar üçün Barabbanı azad etdi. İsanı
isə qamçılatdıqdan sonra çarmıxa
çəkilməyə təslim etdi.

### *Əsgərlər İsanı təhqir edir*

*(Mark 15:16-20; Yəh. 19:2-3)*

**27**Sonra valinin əsgərləri İsanı vali
sarayına apardılar. Bütün alayı Onun
başına topladılar. **28**Onu soyundurub
al rəngli xalat geyindirdilər. **29**Tikan-
lardan bir tac hörüb başına qoydular,
sağ əlinə də bir qamış verdilər. Önündə
diz çöküb «Yəhudilərin Padşahı sağ
olsun!» deyərək Onu ələ saldılar.
**30**Ona tüpürdülər, qamışı götürüb ba-
şına vurdular. **31**Onu ələ salandan son-
ra xalatı əynindən çıxarıb Öz paltarını
geyindirdilər. Sonra Onu çarmıxa
çəkməyə apardılar.

### *İsa çarmıxa çəkilir*

*(Mark 15:21-32; Luka 23:26-43;
Yəh. 19:17-25)*

**32**Bayıra çıxanda Şimon adlı Ki-
renalı bir adamla rastlaşdılar. Onu
İsanın çarmıxını daşımağa məcbur et-
dilər.

**33**Qolqota, yəni «Kəllə yeri» adla-
nan yerə gələndə **34**Ona içməyə ödlə
qarışıq şərab verdilər. İsa onu dad-
dıqda içmək istəmədi. **35**Əsgərlər[b] Onu
çarmıxa çəkdilər və püşk ataraq pal-
tarlarını aralarında bölüşdürdülər.
**36**Sonra orada oturub Onun keşiyini
çəkdilər. **37**Başı üzərinə «Yəhudilərin
Padşahı İsa budur» ittihamını yazıb
qoydular. **38**O zaman İsa ilə birlikdə
biri sağında, biri də solunda iki quldur
da çarmıxa çəkildi.

**39**Gəlib-keçənlər başlarını yırğala-
yıb Ona böhtan ataraq **40**«Ey məbədi
dağıdıb üç gündə tikən! Əgər Allahın
Oğlusansa, Özünü xilas et və çarmıx-
dan düş!» deyirdilər. **41**Başçı kahinlər
də ilahiyyatçılar və ağsaqqallarla birgə
eyni şəkildə İsanı ələ salaraq deyirdi-
lər: **42**«Başqalarını xilas edirdi, amma
Özünü xilas edə bilmir! İsrailin Pad-
şahıdır, qoy indi çarmıxdan düşsün və
biz də Ona iman edək. **43**Allaha
güvənirdi. Allah Onu sevirsə, qoy indi
xilas etsin! Çünki "Mən Allahın Oğlu-
yam" dedi». **44**İsa ilə birlikdə çarmıxa

---

a **27:24** *Adamın* – bəzi əlyazmalarda *saleh Adamın.*

b **27:35** *Əsgərlər* – bəzi əlyazmalarda *Peyğəmbərin dediyi «aralarında paltarlarımı bölüşdürdülər, geyimim üçün püşk atdılar» sözü yerinə yetsin deyə əsgərlər* (Yəh. 19:24).

**27:24** *Qanun. 21:6-9* **27:35** *Zəb. 22:18* **27:39** *Zəb. 22:7; 109:25* **27:40** *Mat. 26:61; Yəh. 2:19*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 46



çəkilən quldurlar da Onu təhqir edir-
dilər.

### *İsanın ölümü*

*(Mark 15:33-41; Luka 23:44-49;*
*Yəh. 19:25-30)*

**45**Altıncı saatdan[a] doqquzuncu
saata qədər[b] bütün yer üzünə qaranlıq
çökdü. **46**Doqquzuncu saata yaxın İsa
uca səslə nida edərək dedi:
«Eli, Eli, lema şavaqtani?»
Bu «Ey Allahım, Allahım, niyə Məni
tərk etdin?» deməkdir. **47**Orada daya-
nanların bəzisi bunu eşidərkən dedilər:
«Bu Adam İlyası çağırır». **48**Aralarından-
dan biri dərhal qaçıb bir süngər
gətirdi, şərab sirkəsinə batırıb bir
qamışın ucuna keçirərək İsaya verdi
ki, içsin. **49**O biriləri isə dedilər: «Onu
rahat burax, görək İlyas gəlib Onu
xilas edəcəkmi?» **50**İsa yenə uca səslə
qışqırıb ruhunu tapşırdı.
**51**O anda məbədin pərdəsi yuxarı-
dan aşağıya qədər iki yerə parçalandı.
Yer sarsıldı, qayalar yarıldı. **52**Qəbir-
lər açıldı, vəfat etmiş bir çox müqəd-
dəsin cəsədi dirildi. **53**Onlar İsanın
dirilməsindən sonra qəbirlərdən çıxıb
müqəddəs şəhərə[c] girdilər və bir çox
insana göründülər.
**54**İsaya nəzarət edən yüzbaşı və
onunla birlikdə olan əsgərlər zəlzələni
və baş verən şeyləri gördükdə «doğ-
rudan da, bu Adam Allahın Oğlu idi»
deyərək dəhşətə düşdülər.
**55**Orada olub-keçənlərə uzaqdan
baxan bir çox qadın var idi ki, xidmət
etmək üçün Qalileyadan İsanın ardın-
ca gəlmişdilər. **56**Məcdəlli Məryəm,
Yaqub ilə Yusifin anası Məryəm və
Zavdayın oğullarının anası da onların
arasında idi.

### *İsanın dəfni*

*(Mark 15:42-47; Luka 23:50-56;*
*Yəh. 19:38-42)*

**57**Axşam düşəndə İsanın şagirdi
olmuş varlı bir adam – Yusif adlı bir
Arimateyalı gəldi. **58**O, Pilatın yanına
gedib İsanın cəsədini istədi. Pilat da
cəsədin ona verilməsini əmr etdi.
**59**Yusif cəsədi alıb təmiz bir kəfənə
bükdü. **60**Onu qaya içində qazdığı öz
yeni qəbrinə qoydu və qəbirin ağzına
bir iri daş yuvarlayıb getdi. **61**Məcdəlli
Məryəm və o biri Məryəm orada,
qəbirin qarşısında oturmuşdular.
**62**Ertəsi gün, yəni Hazırlıq günün-
dən[d] sonrakı gün başçı kahinlərlə
fariseylər Pilatın yanına toplaşıb
**63**dedilər: «Ağa, biz xatırlayırıq ki, o
yalançı hələ sağ ikən "üç gün sonra
diriləcəyəm" demişdi. **64**Ona görə də
əmr et ki, üçüncü günə qədər qəbirin
təhlükəsizliyi qorunsun. Yoxsa şa-
girdləri gəlib[a] Onu oğurlayar və xalqa
"O, ölülər arasından dirildi" deyərlər.
Axırıncı yalan birincisindən daha pis
olar». **65**Pilat onlara dedi: «Bir dəstə
keşikçi götürün, gedin, bacardığınız
kimi qəbirin təhlükəsizliyini qoru-
yun». **66**Onlar gedib qəbirin qarşı-
sında keşikçi dəstəsi qoydular və qəbir
daşına möhür basdılar. Beləliklə,

---

a **27:45** *Altıncı saat* – hazırkı vaxtla günorta saat on iki.
b **27:45** *Doqquzuncu saat* – hazırkı vaxtla günortadan sonra saat üç.
c **27:53** *Müqəddəs şəhərə* – yəni Yerusəlimə.
d **27:62** *Hazırlıq günü* – yəni Yəhudilərdə müqəddəs sayılan Şənbə günü üçün hazırlıq görülən cümə günü.

**27:43** *Zəb. 22:8* **27:46** *Zəb. 22:1* **27:48** *Zəb. 69:21* **27:51** *Çıx. 26:31-33* **27:55-56** *Luka 8:2-3*
**27:62-63** *Mat. 16:21; 17:23; 20:19; Mark 8:31; 9:31; 10:32-34; Luka 9:22; 18:31-33*

40_Mat Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:04 Page 47



qəbirin təhlükəsizliyi qorundu.

### *İsanın dirilməsi*

*(Mark 16:1-11; Luka 24:1-12; Yəh. 20:1-18)*

28 **1**Şənbə günü keçəndən sonra,
həftənin ilk günü[b] səhər dan
yeri ağaranda Məcdəlli Məryəm və o
biri Məryəm qəbiri görməyə gəldilər.
**2**Budur, böyük bir zəlzələ oldu. Çünki
Rəbbin bir mələyi göydən enib gələrək
daşı bir tərəfə yuvarladı və üzərində
oturdu. **3**Onun görünüşü şimşək kimi,
paltarı isə qar kimi ağ idi. **4**Keşikçilər
qorxudan titrəyib ölü kimi oldular.
**5**Mələk qadınlara müraciət edərək
dedi: «Siz qorxmayın! Çarmıxa çəkil-
miş İsanı axtardığınızı bilirəm. **6**O bu-
rada yoxdur, dediyi kimi dirilmişdir!
Gəlin, Onun[c] yatdığı yeri görün. **7**Tez
gedin, Onun şagirdlərinə belə söyləyin:
"İsa ölülər arasından dirildi. Qalile-
yaya sizdən qabaq gedir. Onu orada
görəcəksiniz". Budur, mən sizə xəbər
verdim».

**8**Qadınlar qorxu və böyük sevinclə
dərhal qəbirdən çıxdılar. Onun şa-
girdlərinə xəbər verməyə qaçdılar.
**9**Amma[d] budur, İsa «Sizə salam!» deyə
onların qarşısına çıxdı. Onlar da
yaxınlaşıb İsanın ayaqlarına sarılaraq
Ona səcdə qıldılar. **10**İsa onlara dedi:
«Qorxmayın! Gedin, qardaşlarıma
xəbər verin ki, Qalileyaya getsinlər.
Məni orada görəcəklər».

### *Keşikçilərin gətirdiyi xəbər*

**11**Qadınlar hələ yolda ikən keşik-
çilərdən bəzisi şəhərə gəlib baş verən
bütün şeyləri başçı kahinlərə bildir-
dilər. **12**Onlar ağsaqqallarla toplaşıb
məşvərət keçirdikdən sonra əsgərlərə
çoxlu pul verib dedilər: **13**«Deyərsiniz
ki, şagirdləri gecə biz yatanda gəlib
Onu oğurlayıblar. **14**Əgər bu xəbər
valinin qulağına gedib çatsa, biz onu
inandırarıq, sizi də bəladan qurta-
rarıq». **15**Beləliklə, əsgərlər pulu alıb
tapşırıldığı kimi etdilər. Bu söz bu
günə kimi Yəhudilər arasında yayıl-
mışdır.

### *İsa şagirdlərinə tapşırıq verir*

*(Mark 16:14-18; Luka 24:36-49;*
*Yəh. 20:19-23; Həv. 1:6-8)*

**16**On Bir şagird Qalileyaya, İsanın
onlara təyin etdiyi dağa getdi. **17**İsanı
gördükdə Ona səcdə qıldılar. Bəzisi isə
şübhə etdi. **18**İsa yaxınlaşıb onlara
dedi: «Göydə və yer üzündə bütün sə-
lahiyyət Mənə verilmişdir. **19**Beləliklə,
gedin, bütün millətləri Mənim şagir-
dim edin; onları Ata, Oğul və Mü-
qəddəs Ruh adı ilə vəftiz edin; **20**sizə
əmr etdiyim hər şeyə riayət etməyi
onlara öyrədin. Budur, Mən dövrün
sonuna qədər hər gün sizinləyəm».

---

a **27:64** *Gəlib* – bəzi əlyazmalarda *gecə gəlib.*
b **28:1** *Həftənin ilk günü* – yəni bazar günü.
c **28:6** *Onun* – bəzi əlyazmalarda *Rəbbin.*
d **28:9** *Amma* – bəzi əlyazmalarda *Amma onlar Onun şagirdlərinə xəbər verməyə gedərkən.*
**28:16** *Mat. 26:32; Mark 14:28*